# İCTİMAİ TOPLANTILAR ÜZRƏ DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARI ÜÇÜN DƏRS VƏSAİTİ







## TƏLİMÇİLƏR ÜÇÜN DƏRS VƏSAİTİ

# İCTİMAİ TOPLANTILAR ÜZRƏ DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARI ÜÇÜN DƏRS VƏSAİTİ

TƏLİMÇİLƏR ÜÇÜN DƏRS VƏSAİTİ

Bakı 2013

# MÜNDƏRİCAT

HƏDƏFLƏR....7
DAVRANIŞLAR....7
ÖYRƏNMƏ VƏ ÖYRƏTMƏ STRATEGİYALAR....I7
QİYMƏTLƏNDİRMƏ STRATEGİYALAR ....I7
DƏRS PROQRAMI....10

I. BÖLMƏ
QRUP DİNAMİKASI VƏ KÜTLƏ PSİXOLOGİYASI .... 15
1. QRUP .... 15
2. KÜTLƏ.... 18

II. BÖLMƏ
İCTİMAİ TOPLANTILAR.... 31
1. İCTİMAİ TOPLANTILAR, YARANMA SƏBƏBLƏRİ VƏ POLİSİN ROLU.... 31
2. İCTİMAİ TOPLANTILARIN HAZIRLIQ MƏRHƏLƏSİ .... 37
3. İCTİMAİ TOPLANTILARIN BAŞLANMA METODLARI.... 39
4. KÜTLƏ İŞTİRAKÇILARININ TAKTİKİ HƏRƏKƏTLƏRİ .... 40
5. QRUPLARIN HƏRƏKƏT FORMALARI.... 41
6. İCTİMAİ TOPLANTILAR ZAMANI TƏLAŞ .... 41
7. İCTİMAİ TOPLANTILARA MÜDAXİLƏ ÜZRƏ ÜMUMİ QAYDALAR .... 43

III. BÖLMƏ
İCTİMAİ TOPLANTILARDA İSTİFADƏ EDİLƏN TAKTİKİ-TEXNİKİ DÜZÜLÜŞLƏR .... 51
1. GÖZLƏMƏ DÜZÜLÜŞLƏRİ.... 51
2. MÜDAXİLƏ DÜZÜLÜŞLƏRİ .... 58

IV. BÖLMƏ
GÖZYAŞARDICI QAZLAR VƏ XÜSUSİ MÜDAFİƏ SİLAHLARI .... 71
1. QÖZYAŞARDICI QAZLAR .... 71
2. ƏL QAZ QUMBARASI .... 73
3. GÖZYAŞARDICI AEROZOLLAR .... 82
4. GÖZYAŞARDICI QAZATAN QURĞULAR.... 84
5. QAZ TÜFƏNGLƏRİ.... 85
6. FN 303 MÜDAFİƏ TÜFƏNGİ .... 91
7. 12 mm POMPALI TÜFƏNG.... 92
8. “TEREN –12 K” (KARTEÇLİ) VƏ “TEREN – 12 P” MARKALI ELASTİK GÜLLƏLƏR.... 93
9. ƏLEYHQAZLAR VƏ SÜZGƏCLƏR .... 95
10. GÖZYAŞARDICI KİMYƏVİ MADDƏLƏR.... 99

V. BÖLMƏ
REZİN DƏYNƏKLƏRDƏN İSTİFADƏ VƏ MÜDAFİƏ QAYDALARI ................................ 103

1. REZİN DƏYƏNƏK ........................................................................................ 103
2. SÜBHƏLİ ŞƏXSİN MÜŞAYİƏT EDİLMƏSİ ............................................................ 107
3. SİNİR SİSTEMİNƏ TƏZYİQ GÖSTƏRMƏ TEXNİKALARI ........................................... 108

MƏNBƏLƏR: ........................................................................................... 111

# HƏDƏFLƏR , DAVRANIŞLAR, ÖYRƏNMƏ VƏ ÖYRƏTMƏ STRATEGİYALARI, QİYMƏTLƏNDİRMƏ STRATEGİYALARI





## HƏDƏFLƏR

- Qrup və kütlələrin təsnifatlandırılması
- İctimai toplantılar zamanı kütlənin psixoloji baxımdan analiz edilməsi
- İctimai toplantılar və onlara müdaxilə üzrə əsas anlayışlar
- İctimai toplantıların formalaşma prosesini dərk etmə bacarığı
- Qrupların aksiya təşkil etmə taktikaları və aksiya formaları
- İctimai toplantılara müdaxilə üzrə əsas qaydalar
- İctimai toplantılara qarşı düzgün və effektiv taktikalar formalaşdırma
- İctimai toplantılara qarşı insan hüquqları çərçivəsində taktikaların formalaşdırılması
- Gözyaşardıcı qazlar və əleyhqazlar üzrə əsas anlayışlar
- Rezin dəyənəkdən istifadə və müdafiə texnikaları üzrə əsas anlayışlar



## DAVRANIŞLAR

- Qrupların növlərinin sayını və onların xüsusiyyətlərini bilməlidir,
- Kütlənin növlərinin sayını və onların xüsusiyyətlərini bilməlidir,
- Kütlə daxilindəki fərdlərin xarakteristikasını bilməlidir,
- İctimai toplantılar təşkil edən kütləni növünə görə fərqləndirməklə onları psixoloji baxımdan analiz edə bilməlidir,
- İctimai toplantıların yaranma səbəblərini və polisin rolunu bilməlidir,
- İctimai toplantıların hazırlıq mərhələlərini və toplantılara başlama metodlarını bilməlidir,
- Qrupların aksiya təşkil etmə taktikalarını və aksiya formalarını bilməlidir,
- İctimai toplantıda təlaşa səbəb olan amilləri və təlaşın qarşısını alma metodlarını bilməlidir,
- İctimai toplantılara müdaxilə üzrə ümumi prinsip və qaydaları bilməlidir
- İctimai toplantılarda istifadə olunan texniki, taktiki və düzülüş qaydalarını mənimsəməklə, toplantı zamanı ən optimal müdaxilə etmə metodunu müəyyən edə bilməlidir
- Gözyaşardıcı qaz və vəsaitlərin növlərini və təsirlərini bilməlidir,
- Açıq ərazilərdə gözyaşardıcı kimyəvi maddələrdən istifadə etmə metodlarını bilməlidir,
- Qapalı ərazilərdə gözyaşardıcı kimyəvi maddələrdən istifadə etmə metodlarını bilməlidir
- Gözyaşardıcı vəsaitlərin anbarda saxlanılması və ləğv edilməsi metodlarını bilməlidir,
- İctimai toplantılara müdaxilə zamanı effektiv şəkildə və zərurət çərçivəsində rezin dəyənəkdən istifadə etmə texnikalarını bilməlidir,
- İctimai toplantılara müdaxilə zamanı şübhəli şəxslərin yaxalanması və müşayiət edilməsi texnikalarını uğurla tətbiq edə bilməlidir.



## ÖYRƏNMƏ VƏ ÖYRƏTMƏ STRATEGİYALARI

- Təlimin hədəfinə çatması öyrənmə-öyrətmə prosesinin effektiv və faydalı olmasından asılıdır. Burada təklif olunan strategiyaları təkmilləşdirə və onlara yenilərini əlavə edə bilərsiniz.
- Mövzuya giriş sualları verməklə dinləyiciləri dərsə hazırlanmalıdır.
- Dinləyicilərin hazırlıq səviyyəsinə uyğun suallar verməli və cavab verməyə cəsarətləndirməlidir.
- Dinləyicilərin dərsdə iştirakı təmin edilməlidir.
- Əsas anlayışların hər birinin tərifi verilməlidir.
- Mövzu izah edilərkən slaydlardan istifadə edilməlidir.

- Dinləyicilərlə müntəzəm olaraq göz təması qurulmalıdır, çünki göz təması həm sinfi nəzarət altında saxlamaq, həm də dinləyicilərin diqqətinin yayınmasının qarşısını almaq üçün effektiv metoddur.
- Müəllim dərs keçərkən dinləyiciləri motivasiya etməlidir. Müəllim dinləyicilərin sual verməsinə, dərslə bağlı texniki vasitələrdən istifadəyə, şərh və misallar verilməsinə fürsət verməli, bunları etməyə təşviq etməlidir.
- Müəllim ana dilini mükəmməl bilməlidir. Açıq, aydın, səlis, sadə, dinləyicinin hazırlıq səviyyəsinə uyğun dildən istifadə etməlidir.
- Müəllim öz səs tonunu sinfin və mövzunun xüsusiyyətlərinə uyğun tənzimləməlidir.
- Müəllim müəyyən bir yerdə dayanmamalıdır. Müntəzəm olaraq kürsüdə, yazı taxtasında, sinfin müəyyən bir yerində dayanmamalı və ya daim bir yerdən digər bir yerə getməməlidir. Mümkün olduğu qədər dərsi ayaq üstə keçməlidir.
- Dinləyicilərin şifahi və yazılı səhvlərini dərhal və müvafiq ifadə ilə düzəltməlidir.
- Müəllim hər dərsə müxtəlif və yeni qaynaqlardan istifadə etməklə hazırlaşmalıdır. Yeni və tutarlı məlumat verərkən nöqsanlı məlumatın yanlış və çatışmayan cəhətlərini isbatlamalı, yeni məlumatla bağlı mənbələri göstərməlidir.
- Müəllim dərs şəraitində demokratik ab-hava yaratmalıdır.
- Müəllim özünün hazırladığı güdəlik dərs planı ilə dərsə girməli, o planın xüsusiyyətlərinə görə dərsi keçməlidir. Dərsin sonunda planın keçilən və keçilməyən mövzularına nəzər salmalıdır.
- Müəllim mövzuları sadədən mürəkkəbə, asandan çətinə, konkretlikdən mücərrədliyə doğru getməklə keçməlidir.
- Müəllim hər dinləyici bölməni tam mənimsədikdən sonra digər bölməyə keçməlidir. Bunun üçün əks reaksiya (feedback), düzəltmə, ipucu, mövzuların yaddaşda saxlanılmasına stimul verən metodlardan istifadə edilməli, habelə dərs keçmə formaları və öyrətmə metodlarına dair dəyərləndirmə aparılmalı, nöqsanlar aradan qaldırılmalı, çatışmayan cəhətlər tamamlanmalıdır.
- Müəllim öz davranış və emosiyaları ilə dinləyicilərə dərsi sevdirməlidir.
- Dinləyici dərsə hazırlıqlı gəlməlidir. Dinləyicinin dərsdə iştirakına təsir edən mühüm amillərdən biri də onun hazırlıq səviyyəsidir. Əgər dinləyici hazır deyilsə, dərslərdə iştirakı da azala bilər.
- Dinləyici dərsə diqqətlə qulaq asmalıdır. Başa düşmədiyi mövzuları müəllimindən soruşmalıdır.
- Müəllimin yazı taxtasında göstərdiyi “slayddakı məlumatlar”ı ürəyində oxumalıdır. Oxuya bilmədiyi yerləri müəllimindən soruşmalıdır.
- Müəllim tərəfindən aparılan müzakirələrdə iştirak etməlidir. Diskussiya aparma qayda və prinsiplərinə riayət etməlidir.
- Müəllimin praktiki hadisələrin öyrənilməsinə dair suallarına cavab verməlidir. Əgər cavab verə bilməsə, müəllimindən ipucu (kömək) istəməlidir.




## QİYMƏTLƏNDİRMƏ STRATEGİYALARI

- Dinləyicilərə praktiki hadisələr həll etdirilərək dəyərləndirmə aparılmalıdır.
- Alternativ cavablardan ibarət suallar hazırlanaraq bölmənin sonunda şifahi və yazılı qaydada soruşulmalıdır.
- Mövzu ilə bağlı baxılan videoların müzakirəsində bütün dinləyicilər iştirak etməlidir.
- Tədrisin sonunda praktik təlimlər təşkil etməklə ictimai toplantılara müdaxilə zamanı istifadə olunan texnika və taktikalara dair dinləyicilərin bilikləri möhkəmlədirilməlidir.



## HƏDƏFLƏRİN TƏDRİS CƏDVƏLİ

| | HƏDƏFLƏR | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| BÖLMƏLƏR | Qrup və kütlələrin təsnifatlandırılması | İctimai toplantılar təşkil edən kütlənin psixoloji baxımdan analiz edilməsi | İctimai toplantılar və onlara müdaxilə üzrə əsas anlayışlar | İctimai toplantıların formalaşma prosesini dərk etmə bacarığı | Qrupların toplantı təşkil etmə taktika və metodları | İctimai toplantılara müdaxilə üzrə ümumi qaydalar | İctimai toplantılara qarşı düzgün və effektiv taktikalar formalaşdırma | İctimai toplantılara qarşı insan hüquqları çərçivəsində taktikaların formalaşdırılması | Gözyaşardıcı qazlar və əleyhqazlar üzrə əsas anlayışlar | Rezin dəyənəkdən istifadə və müdafiə texnikaları üzrə əsas anlayışlar |
| I. BÖLMƏ | * | * | * | | | | | * | | |
| II. BÖLMƏ | | | * | * | * | * | * | * | | |
| III. BÖLMƏ | | | * | | | | * | * | | |
| IV. BÖLMƏ | | | * | | | | * | * | * | |
| V. BÖLMƏ | | | * | | | | | * | | * |



# DƏRS PROQRAMI

| BAZAR ERTƏSI | ÇƏRŞƏNBƏ AXŞAMI | ÇƏRŞƏNBƏ | CÜMƏ AXŞAMI | CÜMƏ |
|---|---|---|---|---|
| İctimai toplantılara müdaxilə taktikası (NƏZƏRİ) | İctimai toplantılara müdaxilə taktikası (NƏZƏRİ) | Keçmişdə yaşanmış İctimai Toplantılar və bu zaman Qazdan İstifadə taktikası (CD nümayişi) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | Polisin özünümüdafiə qaydaları (Şübhəli səxslərin Saxlanılması / Müşayiəti, Əl Qandallarının Tətbiqi Qaydları) (PRAKTİK) |
| İctimai toplantılara müdaxilə taktikası (NƏZƏRİ) | İctimai toplantılara müdaxilə taktikası (NƏZƏRİ) | Keçmişdə yaşanmış İctimai Toplantılar və bu zaman Qazdan İstifadə taktikası (CD nümayişi) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTIK) | Polisin özünümüdafiə qaydaları (Şübhəli səxslərin Saxlanılması / Müşayiəti, Əl Qandallarının Tətbiqi Qaydları) (PRAKTİK) |
| İctimai toplantılara müdaxilə taktikası (NƏZƏRİ) | Göz yaşardıcı qazlar və əleyhqazların istifadəsi və tətbiqi (NƏZƏRİ - PRAKTİK) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | Polisin özünümüdafiə qaydaları (Şübhəli səxslərin Saxlanılması / Müşayiəti, Əl Qandallarının Tətbiqi Qaydları) (PRAKTİK) |
| Əsəblərin İdarə edilməsi – Qrup dinamikası və Kütlə Psixologiyası | Göz yaşardıcı qazlar və əleyhqazların istifadəsi və tətbiqi (NƏZƏRİ - PRAKTİK) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | Polisin özünümüdafiə qaydaları (Şübhəli səxslərin Saxlanılması / Müşayiəti, Əl Qandallarının Tətbiqi Qaydları) (PRAKTİK) |
| Əsəblərin İdarə edilməsi – Qrup dinamikası və Kütlə Psixologiyası | Göz yaşardıcı qazlar və əleyhqazların istifadəsi və tətbiqi (NƏZƏRİ - PRAKTİK) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | Polisin özünümüdafiə qaydaları (Şübhəli səxslərin Saxlanılması / Müşayiəti, Əl Qandallarının Tətbiqi Qaydları) (PRAKTİK) |
| Əsəblərin İdarə edilməsi – Qrup dinamikası və Kütlə Psixologiyası | Göz yaşardıcı qazlar və əleyhqazların istifadəsi və tətbiqi (NƏZƏRİ - PRAKTİK) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | İctimai toplantılara müdaxilə zamanı tətbiq edilən taktiki-texniki gedişatlar və düzülüş qaydaları (PRAKTİK) | Sorğu - İmtahan |



## DƏRS MÜDDƏTI
30 Saat



## TƏLİM KEÇMƏ METODLARI
İzah etmə, müzakirə, sual-cavab, ssenari və təcrübi təlim



## TEXNİKİ VASİTƏLƏR/LƏVAZİMATLAR
**a) Nəzəri dərslər üçün:**

Projektor cihazı, projektor pərdəsi, yazı taxtası, praktiki ictimai toplantılara dair video çəkilişlər

**b) Praktik dərslər üçün (40 nəfərlik sinif):**

Zirehli su tankları, meqafon, “Robokob” bədən qoruyucu paltar (20 ədəd), qalxan (20 ədəd), rezin dəyənək (40 ədəd), əl qandalı (40 ədəd), dəbilqə (40 ədəd), gözyaşardıcı silahlar və vəsaitlər (bütün növlərdən 1 ədəd), yanğınsöndürən balon, əleyhqaz və süzgəc



## FƏALİYYƏTLƏR
Ssennari üzrə məşğələ, video nümayişi və müzakirələr

# İCTİMAİ TOPLANTILAR ZAMANI DAXİLİ İŞLƏR ORQANLARI

## ƏMƏKDAŞLARININ İDARƏ EDİLMƏSİ ÜZRƏ TƏLİMİN DƏRS PROQRAMI

(1 HƏFTƏ) - ( Cəmi: 30 saat) - (nəzəri hissə 12 saat, praktiki hissə 18 saat)

**1-ci bölmə**
**NƏZƏRİ HİSSƏ: 12 saat**

1. DİO-nun ictimai toplantılar zamanı fəaliyyətini tənzimləyən qanunvericilik və digər normativ aktlar (1 saat) ( Məqsəd : DİO əməkdaşlarının sərbəst toplaşmaq azadlığı və bununla bağlı müdaxilə əsaslarını nəzərdə tutan qanunvericilik və digər normativ aktlar haqda biliyə sahib olması):
   - Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995-ci il); maddə 49
   - Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu (24 dekabr 2002-ci il), maddə 3.6
   - Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu (13 noyabr 1998-ci il); 5 fəsil, 17 maddə
   - Polis haqqında Azərbaycan Respublikasının Qanunu (28 noyabr 1999-cu il); maddə 14, 7-ci bənd
   - Daxili Qoşunların Statusu haqqında Azərbaycan Respublikası Qanunu (08 fevral 1994-cü il)
   - Hərbi vəziyyət haqqında Azərbaycan Respublikasının Qanunu (6 yanvar 1994-cü il); maddə 11, 3 və 10-cu bəndlər
   - Azərbaycan Respublikasının Inzibati Xətalar Məcəlləsi (11 iyul 2000-ci il); maddə 49, 60, 298
   - Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (30 dekabr 1999-cu il); maddə 169
   - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsi (30 iyun 2001-ci il); 4.1.14-cü bənd
   - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN, Daxili Qoşunlar və Çevik Polis Alayı) normativ aktları

2. İnsan Hüquqları və Mütənasib Güc Tətbiqi ilə bağlı Beynəlxalq Akt və Öhdəliklər ( 1 saat) (Məqsəd: İnsan hüquqları və mütənasib güc tətbiqi ilə bağlı beynəlxalq akt və konvensiyaların müvafiq müddəalarının DİO əməkdaşları tərəfindən öyrənilməsi):
   - Insan Hüquqları haqqında Ümumi Bəyannamə (Beynəlxalq Bill), (10 dekabr 1948-ci il); maddə 20
   - İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (4 noyabr 1950-ci il); maddə 11
   - Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (16 dekabr 1966-cı il); maddə 21
   - Hüquq-mühafizə Orqanlarının əməkdaşları tərəfindən gücün və odlu silahın tətbiqinin Əsas prinsipləri (7 sentyabr 1990-cı il); maddə 12
   - Avropa Məhkəməsinin 26 aprel 1991-ci il, Seriya A, 202 nömrəli Qərarı (Ezelin Fransaya qarşı)

3. İctimai toplantılar zamanı DİO əməkdaşlarının hərəkət dinamikası, psixologiyası və əsəblərinin idarə edilməsi (3 saat) (Məqsəd: Qrup, kütlə, iğtişaş, fəal iştirakçı, təhrikçi və bu mövzu ilə bağlı digər anlayışların dərk edilməsi):
   - Kütlədəki insanların xarakteristikası
   - Kütlənin növləri
   - Kütlə Qrupları
   - İctimai toplantılar zamanı həyəcan və əsəblərin idarə edilməsi
   - İctimai toplantılar zamanı kütlənin psixologiyası
   - İctimai toplantıların hazırlanma mərhələləri (kütləvi tədbirlərin məzmununa, miqyasına, yaranma üsuluna, nizamlanma qaydasına, keçirilmə müntəzəmliyinə, təşkiletmə və keçirilmə subyektinə, keçirilmə yerinə görə növləri) və səciyyəvi xüsusiyyətləri

4. İctimai toplantılara müdaxilə taktikası (3 saat) ( Məqsəd: İctimai toplantılar zamanı istifadə ediləcək taktiki-texniki üsullarının sinif şəraitində nəzəri tədrisi):
   - İctimai toplantılar üzrə 9 saatlıq praktiki dərslər zamanı həyata keçiriləcək taktiki-texniki sıra düzülüşünün təyinatına uyğun şəkildə sinif şəraitində nəzəri biliyin əldə edilməsi)

5. Kütləvi-mədəni və idman tədbirləri (1 saat) ( Məqsəd: İdman yarışlarında, konsertlərdə, bayram və digər ictimai tədbirlərdə həyata keçiriləcək təhlükəsizlik tədbirləri ilə bağlı milli və beynəlxalq standartlar):

- İdman tədbirləri zamanı təhlükəsizlik üzrə beynəlxalq standartlar
- Bu zaman daxili işlər orqanlarının fəaliyyəti

6. Xüsusi vasitələrlə tanışlıq (3 saat) (Məqsəd: İctimai toplantılar zamanı DİO əməkdaşları tərəfindən istifadə edilən xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri haqqında bilginin əldə edilməsi):
   - Fərdi müdafiə vasitələri: dəbilqə, rezin dəyənək, robokop, qalxan,
   - Zirehli texnika: TOMA və s.
   - Göz yaşardıcı qazlar
   - Əleyhqazlardan istifadə
   - Qazlardan istifadə zamanı ilkin tibbi yardım tədbirləri

**2-ci bölmə**
**PRAKTİK (Təcrübi) DƏRSLƏR**

1. İctimai toplantılar zamanı DİO əməkdaşları tərəfindən fiziki qüvvə və xüsusi vasitələrin tətbiqi qaydaları (3 saat) ( Məqsəd: Fiziki qüvvə və xüsusi vasitələrin hal, yer və şəxslərə görə tətbiqi qaydalarının öyrənilməsi):
   - Şübhəli şəxs / şəxslərin saxlanılması
   - Əl qandallarının tətbiqi qaydaları
   - Şübhəli şəxsin saxlanılması üçün qanunvericiliyə müvafiq prosessual hərəkətlər
   - Rezin dəyənəkdən istifadə
2. İctimai toplantılar zamanı qüvvə və vasitələrin taktiki-texniki sıra düzülüşü qaydaları (9 saat) (Məqsəd: Cəlb olunan qüvvə və vasitələrin təyinatı, yerləşdirilməsi və təchizatı ilə bağlı praktiki bilgilərin əldə edilməsi):
   - Gözləmə və müdaxilə düzülüşləri
   - Xətt düzülüşü
   - Alçaq çəpər düzülüşü
   - Yüksək çəpər düzülüşü
   - Kama düzülüşü
   - Əhatəyə alma düzülüşü (Dövrələmə)
3. Kazuslar (Praktiki tapşırıqlar) (3 saat) (Məqsəd: Hər hansı bir toplantı zamanı əməkdaş tərəfindən praktiki tapşırıqlarla bağlı qəbul edilən qərarlar):
   - İdmanla bağlı praktiki tapşırıq
   - İcazəli mitinq və ya küçə yürüşü ilə bağlı praktiki tapşırıq
   - İcazəsiz mitinq və ya küçə yürüşü ilə bağlı praktiki tapşırıq
   - Kütləvi iğtişaşlar zamanı DİO-nun fəaliyyəti ilə bağlı praktiki tapşırıq
   - Mülki itaətsizlik
4. Praktiki (təcrübi) məşğələlər (2 saat) (Məqsəd: Öyrənilən nəzəri və praktiki bilgilərin müəyyən bir ssenariyə uyğun olaraq təcrübədə həyata keçirilməsi):
   - Qanunvericiliyə uyğun olaraq icazə verilmiş məlum toplantının sonradan qanunsuz hala keçməsi nəticəsində onun müəyyən bir qüvvə və xüsusi vasitələrdən istifadə edilərək dayandırılması)
5. İmtahan, qiymətləndirmə və sertifikat təqdimatı (1 saat) (Məqsəd: Öyrənilən bilgilərin və qiymətləndirilmə meyarlarının nəticələri):
   - İmtahanın keçirilməsi (Bu zaman kitaba uyğun 100 sual hazırlanacaq və ondan təlim iştirakçıları üçün 20 sual test halına salınaraq müvafiq qaydada təqdim ediləcək)
   - Anketin hazırlanması (Təlimin və təlimçilərinin fəaliyyətinin qiymətləndirilməsi)
   - Sertifikatların təqdim edilməsi (Təlimi bitirən və imtahanda 60 bal (12 düzgün cavab) və ondan çox nəticə əldə edən iştirakçılara sertifikatların təqdim edilməsi)




# 1. BÖLMƏ QRUP DİNAMİKASI VƏ KÜTLƏ PSİXOLOGİYASI

1. QRUP
2. KÜTLƏ

# 1. BÖLÜM QRUP DİNAMİKASI VƏ KÜTLƏ PSİXOLOGİYASI

## HAZIRLIQ SUALLARI



- Qrup nədir?
- Hansı qrup növləri var?
- Kütlə nədir?
- Hansı kütlə növləri var?
- Kütlə növlərini bilməyin DİO əməkdaşları üçün hansı faydaları var?

## 1. QRUP

"Qrup" anlayışı ədəbiyyata gündəlik danışıq dilindən daxil olmuşdur. Gündəlik danışıq dilində "qrup" adətən azlıq təşkil edən şəxsləri, bitkiləri və digər cismləri ifadə etmək üçün istifadə olunur. Məsələn, bir ağac qrupu və ya mübahisə edən şagird qrupu. Sabit bir qrupu ifadə edərkən qrup anlayışından insanların, əşyaların və ya anlayışların xüsusuyyətlərə görə alt kateqoriyalara ayrılması zamanı da istifadə edilir.

Məsələn, atom fizikaçıları qrupu, müəllimlər və şagirdlər hamısı birlikdə universitet qruplarını formalaşdırır. Yekun olaraq, ümumilikdə ortaq xüsusiyyətlərə malik təşkilat və ya insan topluluğunu qrup adlandırmaq mümkündür.

Sosioloji baxımdan qrup - bir-birləri ilə əlaqədə olan, bir-birinin varlığını diqqətə alan və aralarındakı bəzi ortaq cəhətlərdən xəbərdar olan birdən çox insan topluluğudur.

İnsanların aralarında hər hansı qarşılıqlı əlaqə olmadığı halda yaş, cinsiyyət, azarkeşlik etdiyi komanda və ya siyasi düşüncə kimi bəzi ortaq xüsusiyyətlərə əsaslanaraq kateqoriyalara ayrılması "qrup" kimi başa düşülməməlidir.

Bəzən gündəlik danışıq dilində, bəzən də kağız üzərində "Basketbol azarkeşləri qrupu" və ya "serial sevənlər qrupu" formasında insanların yanlışlıqla qrup kimi təsnif edilməsinə şahid oluruq. Əslində bu cür təsnifat qrupların əsas xüsusiyyətlərindən olan "üzvlərin ortaq dəyərlərə sahib olması və bu ortaq dəyərlərin onları digər qruplardan ayırdığına inanmaları" tərifinə də uyğun gəlmir.

Sadəcə fiziki yaxınlıq və ya ortaq maraq da kütləni qrup kimi formalaşdırmağa kifayət etmir. Məsələn, heyvanat parkında şir qəfəsinin önündə şirə baxanları "qrup" adlandırmaq olmaz. Bu insanların ortaq maraqları tamaşaçı kütləsindən irəli gəlir. Fiziki baxımdan bir birlərinin yanında dayanırlar, amma aralarında hər hansı bir əlaqə yoxdur. Bir anlıq şirin qəfəsdən çıxdığını və bu insanların şirdən canlarını qurtarmaq üçün yaxındakı bufetə sığındığını təsəvvür edək. Həmin insanlar bu şəraitdə indi qrup yarada bilər. Çünki, onların hamısı ortaq bir təhlükə ilə üzbəüz olduqlarını dərk edir, bufetə şirin girməsinin qarşısını almaq, səngər qurmaq, qorxudan qışqıran uşaqları sakitləşdirmək üçün birgə fəaliyyət göstərir və öz aralarında qarşılıqlı əlaqəyə girirlər.

Danışıq dilində səhvən kateqoriyalara ayırdığımız insanları eyni qrupa üzv olduqlarından xəbərdar olmadığı üçün qrup adlandırmaq olmaz. Əvəzində, ailə ya da dostluq qrupunu təşkil edən üzvlər arasında qarşılıqlı əlaqə olması səbəbindən və ortaq dəyərlərə sahib olduqlarını bildikləri üçün onları qrup adlandırmaq olar.

Qrupların bəzilərində üzvlər arasında əlaqələr güclü, bəzilərində isə zəifdir. Məsələn, gəmi ilə səyahət zamanı iki nəfər arasında müvəqqəti ünsiyyət və emosional yaxınlaşma çox zəif ictimai əlaqə olduğu halda, evlənmiş şəxslər arasında qüvvətli bağlılıq və möhkəm əlaqə vardır.

## 1.1 Qrupun yaranması

İlk öncə qrupun yaranmasına zəmin yaradacaq şərait formalaşır. Gərginliyin artmasına səbəb olan müxtəlif şayiələr yayılır və təhrik edici hadisələr baş verir. Ortaq bir məqsəd ətrafında birləşən qrup həyəcanlıdır və özlərinə məxsus müəyyən qaydaları var. Bu qaydalara riayət etməyən fərdlər dərhal qrupdan xaric edilir. Qrup üzvlərinin eyni həyəcanı hiss etməsi və ortaq qaydalara riayət etməsi mütləqdir. Qrupda “mən” anlayışı yoxdur, “biz” anlayışı hökm sürür. Bu cür vəziyyət də qrupda “kollektiv şüur” formalaşdırır. Kollektiv şüur qrup üzvlərini bir arada tutan və reallaşdırmaq istədikləri qayə və ideyaların qaynağı olan birlikdə düşünmə və hərəkət etmə ruhudur.

Qrupda üzvlər təkbaşına olarkən bəzi duyğularını cilovlayıb daha soyuqqanlı davrana bilir. Lakin, qrup halında olarkən, onlar hisslərini cilovlaya bilmir və bir çox hallarda məsuliyyət hissləri itir. Fərdin qrup daxilində məsuliyyət hissinin azalması və kütlənin gücünün arxasına sığınması onu arzuolunmaz davranışlara sövq edir. Qrupda emosiyalar hakim olduğu üçün, hər hansı bir hərəkət edilərkən bir çox hallarda həmin hərəkətin niyə, necə, kimə qarşı ediləcəyi və ya edildiyi müzakirə edilmir və ya səbəbi bilinmir. Adətən hərəkətlər liderin istədiyi formada və onun verdiyi əmrlərə görə edilir.

Qrup daxilində liderin həyəcanlı çıxışlar etməsi ilə üzvlər bir-birlərinin təsiri altına düşməyə başlayır və dairəvi bir həyəcan dalğası nəticəsində fikir “fikri” ortaya atana gəldiyi zaman daha da şaxələnir və həyəcan pik səviyyəyə qalxır. Məhz bu andan sonra qrup daxilində qarşılıqlı əlaqə özünün pik səviyyəsinə qalxır və liderin cüzi göstərişi ilə geniş miqyaslı iğtişaşlar törədilir. **Lider qrupa təsir etmək və onları istiqamətləndirmək üçün aşağıdakı metodlardan istifadə edir:**

**İnandırma:**

Qrup liderinin həyəcanı yüksək səviyyədə saxlamaq, ətrafdakılara güclü görünmək, atılacaq addımları bəyan etmək, toplantıların haqlı tərəflərini göstərmək, habelə dəstək gördüklərinə dair üzvləri və ətrafdakıları inandırmaq məqsədilə çıxışlar etməsidir.

**Mükafatlandırma**

Mükafatlandırmanın müxtəlif yolları var. İnsanların ehtiyaclarından asılı olaraq mükafatlandırma maddi və ya mənəvi ola bilər. Lider qrup üzvlərini yaxşı tanıdığı üçün kimin nəyə ehtiyacı olduğunu bilir və ona görə hərəkət edir. Necə deyərlər, nəbzə görə şərbət verir. Ehtiyacları ödənildikdən sonra qrup üzvlərinin liderdən asılılığı artır və ona mütləq itaət edirlər.

**Məcbur etmə**

Qrupda emosiya və həyəcan hökm sürür. Bu səbəbdən, üzvlərdən biri qrupun qaydalarına riayət etməsə, lider qrup daxili nizam-intizamı qorumaq məqsədilə müxtəlif yollarla həmin üzvə təzyiq göstərərək onu qaydalara riayət etməyə məcbur edir və ya məcbur etməyə çalışır. Bu cür təzyiq müxtəlif formada göstərilə bilər. Məsələn, digər üzvləri həyəcanlandırmaqla qaydalara riayət etməyən üzvü qrupdan xaric edir, tənhalığa məhkum edir, habelə işgəncə, təhdid, şantaj və ya öldürmə kimi metodlardan istifadə edir.

## 1.2 Qrup növləri

Qrupları təsnifləndirmək üçün müxtəlif yollar var. Qrupları dinlərinə, cinsiyyətlərinə, irqlərinə, siyasi düşüncələrinə görə təsnifatlandırmaq mümkündür. Burada polis üçün önəmli olan qrupları ümumi ictimai davranışlardan fərqli davranmaya sövq edən səbəbləri təsnif etməkdir. Qrupları keçirdikləri toplantılara və psixoloji vəziyyətlərinə görə təsnif edərkən qarşımıza dörd cür qrup çıxır:

### a) Aqressiv qrup

Planlı, proqramlı və şüurlu şəkildə iğtişaş törədib, üsyan və terrora baş vurmaqla dövlətin konstitusion nizamını pozmaq məqsədi güdən qruplara aqressiv qrup deyilir. Aqressiv qruplar insanların canına və əmlakına ziyan vurmaq məqsədilə, habelə konstitusion qurumlar əleyhinə iğtişaşlar törədirlər. Siyasi üsyanlar, din və məzhəb davaları, ideoloji toqquşmalar və həbsxana üsyanları bu qrupun törətdiyi planlı və proqramlı iğtişaşlardır.

Aqressiv qruplar öz məqsədlərinə nail olmaq üçün, lazım gələrsə təhlükəsizlik qüvvələrini də hədəf alırlar. Çətin vəziyyətdə düşdükləri zaman istənilən növ zorakılıqdan istifadə edir, toqquşmaya girir və yaxalanmamaq üçün qaçmaya cəhd edirlər. Onlar öz arzularını reallaşdırmaq məqsədilə əhalinin yaşaması üçün zəruri olan fabrik və sənaye obyektlərini dağıtmaqla, habelə dövlət liderləri, təhlükəsizlik qüvvələri və ya əhali arasında hörmət qazanmış şəxsləri öldürməklə iğtişaş törədə bilər. Aqressiv qruplara müdaxilə edərkən planlı, proqramlı, intizamlı və əvvəlki hadisələrdən əldə edilmiş təcrübələr əsasında və soyuqqanlı şəkildə davranmaq lazımdır.

### b) Təşvişə düşmüş qrup

Təşviş qorxu və məlumatsızlığın səbəb olduğu şüursuz hərəkətdir. Təhlükəsiz bir yerə çatmaq üçün şiddətli qorxu və həyəcanın təsiri ilə meydana gələn kortəbii hərəkətlərdir.

Zəlzələ, yanğın, sel kimi təbii fəlakətlər zamanı binaların dağılması və ya dağılma qorxusu, yanğın zamanı alovların kütləni mühasirəyə alması, kütlə daxilindən atılan partlayıcı maddələr, qapalı bir yerdə kütləyə bomba xəbərinin verilməsi kütlənin təşvişə düşməsinə səbəb olur. Belə hallarda fərdlər öz canlarını xilas etmə təlaşına düşdüyü üçün, hər kəs müxtəlif istiqamətlərə qaçmağa başlayır və onlar arasında əzilənlər olur. Çünki, təşvişə düşmüş qrupda şəxslər ancaq özlərini fikirləşir. Bu səbəbdən, qaçarkən yıxılanların bir daha ayağa qalxma şansı olmur. Yeri gəlmişkən, belə hallarda başqalarının fərdə, fərdin isə başqalarına zərər vermə ehtimalı çox yüksəkdir. Təşviş davam etdiyi müddətdə mal və can itkisi artır.

Təşvişə düşmüş qrupu istiqamətləndirmək xeyli çətindir. Ancaq, təhlükəsizlik qüvvələri səs artırıcı cihazlarla və ya qışqıraraq qrupu sakitləşdirməyə çalışmalı, təşvişin qarşısını almaq üçün səy göstərməlidir.

### c) Məqsədli Qrup

Vahid və ya müəyyən bir məqsədə nail olmaq üçün birgə hərəkət edən, eyni emosiyaları paylaşan və birgə toplantılar keçirən qruplardır. Bu qruplar məqsədlərinə nail olmaq üçün soyğun, boykot, işğal, nümayiş, etiraz və cənazə qaçırma kimi metodlardan istifadə edir. Məqsədləri bu cür iğtişaşlar törətməklə istəklərinə nail olmaqdır.

### ç) Planlı qrup

Müəyyən və ortaq bir məqsəd üçün bir araya gəlmiş, aralarında davamlı qarşılıqlı təsir və

əlaqə olan, eyni emosiya və həyəcanı paylaşan qrupdur.

Planlı qruplar müxtəlif səbəblərdən formalaşa bilər. Onlara bir neçə misal verək; eyni dinə mənsub insanların dini mərasimi ifa etmək üçün bir araya gəlməsi ilə yaranan qruplar, idman müsabiqələrində komandalarını dəstəkləyən azarkeşlər, seçim kompaniyalarında bir namizədi dəstəkləmək məqsədilə toplanan qruplar planlı qruplardır.

Bu cür qruplar adətən qanunlara hörmət edir və onları nəzarət altına almaq daha asandır. Qanunlara riayət etmələrinə baxmayaraq, onlar güclü bir liderin rəhbərliyində qanundan kənar davranışlara və ya iğtişaş törətməyə cəhd edə bilər. Çünki, qrupu formalaşdıran şəxslər arasında müntəzəm əlaqə və qarşılıqlı təsir mövcuddur. Qanuna məhəl qoymayan bir liderin emosional çıxışı və ya təhriki nəticəsində kütlə qısa zamanda qanunsuz toplantılara sövq edilə bilər. Məsələn, super liqadan aşağı liqaya düşmə oyununda azarkeşlərin komandası məğlub olarsa, həmin azarkeşlər fanatik azarkeş və ya azarkeşlər tərəfindən qeyri qanuni nümayişlərə sövq edilə bilər. Bütün bu qeyd olunanlardan məlum olduğu kimi, təsadüfi bir kütlə hər nə qədər qanunlara hörmət etsə də, çox qısa zamanda aqressiv və qanunsuz hərəkətlərə yol verən kütləyə çevrilə bilər.

## 2. KÜTLƏ

Kütlə kollektiv davranışın ən tanınmış formasıdır. *Kütlə, bir-biriləri ilə əlaqələri sadəcə eyni müvəqqəti həyəcanı paylaşmaqla məhdudlaşan, ortaq fikirlə hərəkət edən, nisbətən kortəbii, fiziki olaraq bir-birlərinə yaxın olan insanların bir arada toplanmasıdır.*

Başqa bir deyişlə, hər hansı ortaq bir məsələyə reaksiya verən və qeyri-ixtiyarı qarşılıqlı təsir göstərmə əlaqəsinə girən müvəqqəti insan topluluğudur.

Kütlələr aşağıdakı ümumi xüsusiyyətlərə malikdir;

a) İnsanların fiziki olaraq bir məkanda olması və ya həmin məkana yaxın olması nəticəsində formalaşır.

b) Ortaq maraq səbəbilə, təşkilatlanmadan müvəqqəti olaraq bir araya gəlirlər.

c) Əvvəlcədən bir-birlərini tanımadıqları üçün aralarında ortaq məqsəd və hərəkət birliyi yoxdur.

d) Müəyyən bir liderə, iş bölgüsünə və ya statusa malik deyil.

e) Hadisələrin gedişatına həssas yanaşırlar və biganə qalmırlar. Nisbətən kortəbii və ya qeyri-ixtiyarı formada formalaşdığı üçün aralarında qeydə alınması mümkün olmayan qarşılıqlı təsir mövcuddur.

f) Adətən qanun və qaydalara hörmət etdikləri üçün onları nəzarət altında saxlamaq da asandır. Bununla belə, onlar nadir hallarda olsa da, qanunsuz hərəkətlərə sövq edilə və ya istiqamətləndirilə bilər.

Bəzi hallarda fərdlərin bir araya gəlməsi ilə formalaşan qruplarda onu meydana gətirən hər bir fərdin psixologiyasından tamamilə fərqli bir psixologiya hökmranlıq etməyə başlayır və birlikdə hərəkət etmə meyli güclənir. “Biz” duyğusu “Mən” duyğusunu üstələyir. Bu da, kütlənin toplantılarda istənilən tərəfə çəkilməsini və ya istiqamətləndirilməsini təmin edir. Nəticədə, kütlədə toplantı keçirmə birliyi yaranır və ortaq davranışlar nümayiş etməyə başlayırlar. Məsələn, “Susma! Növbə sənə də gələcək!” və ya “Azərbaycan səninlə fəxr edir” ifadəsi kütlənin həm emosional hərəkət etməsinə, həm də həyəcanının artmasına səbəb olur. Bu vəziyyətdə fərd məntiqi düşünə bilmir və özünü kütlənin ayrılmaz bir parçası və qızğın tərəfdarı kimi hiss edir.

Kütlələr adətən müəyyən məsələlərdə vahid məqsəd ətrafında birləşən alt qruplardan ibarət olur. Kütlələri istiqamətləndirmək və ya hərəkətlərinə nəzarət etmək olduqca asandır.

Kütlələr ortaq hərəkət etməyə başlayanda fərdlərin tək başına özlərinə nəzarət etməsi çətinləşir, yəni kütlənin nəzarəti demək olar ki, onları idarə edənlərin əlinə keçir. Beləcə, toplantını keçirmək və ya ictimaiyyətin diqqətini cəlb etmək daha da asanlaşır.

Qrup daxilində birgə hərəkat formasının dəstəkçiləri və ya tərəfdarları artdıqca kütlə özünü daha güclü və sanki məğlubedilməz hiss etməyə başlayır. Bu da tədricən qrupun təhlükəsizlik baxımından nəzarət altında saxlanılmasını çətinləşdirir. Kütləni formalaşdıran fərdlərin kimliyindən asılı olmayaraq (görünüşləri, məşğuliyyətləri, xarakterləri oxşar və ya fərqli olmasından asılı olmayaraq) kütlə halında birləşməsi onlarda kollektiv ruh formalaşdırır. Təlqin edilən bu ortaq ruh onları tək başına olarkən nümayiş etdirdikləri davranışlardan daha fərqli davranmaya sövq edə bilər. Bəzi emosiya və düşüncələr yalnız kütlə daxilindəki şəxslərdə özünü büruzə verir və ya meydana çıxır. Çox fərqli xüsusiyyətlərə malik fərdlərin bir araya gəlməsi ilə formalaşan və qısa müddətdə bir-biriləri ilə qaynaşmış struktura çevrilən bu cür kütlələrdə fərdlər özlərini kütlə psixologiyasına qapdıraraq (halbuki, təklikdə onlar bu instinktlərini cilovlaya bilər) məğlubedilməz güc qazandığını hesab edirlər. Bu cür vəziyyət kütlədə aşağıda qeyd olunan ümumi əlamətlərin yaranmasına səbəb ola bilər:

- Şüurlu hərəkətin tədricən azalması,
- İfadə və hərəkət birliyinin yaranması,
- Emosional hərəkət etmə meylinin artması,
- Fikirdən dərhal əmələ keçmə istəyi,
- Basdırılmış emosiya və düşüncələrin ortaya çıxması.

Yuxarıda göstərilən hallar kütlələrin asanlıqla yönləndirilməsinə, təhrik edilməsinə və emosiyalarının kəskin artmasına səbəb olur. Kütlələr birgə hərəkət etməyə başladıqları andan etibarən asanlıqla müdafiə etdikləri düşüncələrin təsiri altına düşür. Xüsusilə ictimai iğtişaşlarda müşahidə olunan dağıtma, yandırma və dövlət əmlakına zərər vermə kimi meyllər buna bariz nümunədir.

Kütlə hərəkətləri məntiqsiz və kor-təbii görünsə də, aşağıda qeyd olunan amillərin təsiri altında olurlar. Bu amillər əslində kütlələrin davranışlarını məhdudlaşdırır.

**Emosional faktorlar:** Kütlənin davranışında onun daxilindəki fərdlərin narazılığı, qəzəbi, mühakiməsiz ittiham etmə kimi emosional hissləri əks oluna bilər. Bu fərdlər kütlənin əksəriyyətinin istəyinə riayət edərək normal vəziyyətlərdə etməyəcəkləri hərəkətləri etməyə başlayır. Adətən düşüncələrini açıqlaya bilməyən kütlənin diqqəti bir hədəfdən digər bir hədəfə yönəldiyi zaman fərddə təhrik olma və aqressivlik duyğuları aktuallaşa bilər.

**Əxlaq normaları:** Kütlənin davranışı bu kütləni formalaşdıran fərdlərin məsələlərə yanaşma tərzindən asılıdır. Davranışların məqbul və ya qeyri məqbul olması xalqın yaşadığı dövr və yerin xüsusiyyətlərindən, adət-ənənədən və cəmiyyətin əxlaqı dəyərlərindən asılıdır. Kütlə əxlaq anlayışı ilə ziddiyyət təşkil edən davranışlara nadir hallarda yol verir. Daşqalaq cəmiyyətin əksəriyyəti tərəfindən qəbul olunan, hətta labüd hesab edilən yerlərdə tətbiq olunur. Daşqalaq mərasimində iştirak edən kütlə qanunu pozmadığını, əksinə cəmiyyətin adından toplantı təşkil etdiyini hesab edə bilər.

**Liderlik:** Liderlik kütlə davranışının gücünə və istiqamətinə ciddi təsir edir. Peşəkar təhrikçi qəzəblənmiş kütləni intiqam almağa hazır qrupa çevirə bilər və qəzəbə səbəb olan amillərdən faydalanaraq hər hansı bir hədəf əleyhinə kütləni zorakılıq etməyə sövq edə bilər. Eyni zamanda, lider strateji əhəmiyyətə malik təklif və ya əmrlə kütləni sakitləşdirə və istiqamətini dəyişdirə bilər. Bir çox hallarda, qeyri müəyyənlik və çaşqınlıqdan bezən kütlənin avtoritar qaydada qəti əmrlər verən şəxslərin ardınca getməsi təbii haldır. Məhz bu an kütlənin iradəsini ələ almağa, hisslərini istismar etməyə və onlardan öz məqsədləri üçün

yararlanmağa çalışan liderlər üçün ən əlverişli andır. Digər tərəfdən, lider kütlənin sağlam düşüncəsinə xitab etməklə onları sakitləşdirə və dağılışmalarına səbəb ola bilər.

**Xarici faktorlar:** Hava şəraiti kütlənin davranışlarına təsir edən mühüm xarici faktordur. Adətən, kütlə xalqın əlverişli yerlərdə və açıq hava şəraitində toplanması ilə formalaşır. Soyuq hava və yağış qrup hərəkətlərini məhdudlaşdıra bilər.

Kütlənin davranışına təsir edən digər mühüm faktorlardan biri də təhlükəsizlik qüvvələrinin fəaliyyətidir. Təhlükəsizlik qüvvələri zəruri tədbirlər görəndə, aksiyalara nəzarət etmək asanlaşır. Xalqla qarşılıqlı əlaqənin səviyyəsi və xarakteri baxımından təhlükəsizlik qüvvələri kütlənin davranışına təsir edən mühüm faktorlardan biridir.

**Uyuşdurucu maddələrin təsiri:** Adətən peşəkar təhrikçilər ətraflarındakı zəif iradəli şəxslərə ciddi təsir göstərirlər və bu məqsədlə hətta yüksək dozalı spirtli içkilər kimi uyuşdurucu maddələrdən də faydalanırlar. Uyuşdurucu maddələrin təsiri altına düşən şəxslər öz ətraflarında iğtişaşlar törədərkən, peşəkar təhrikçilər mitinqlərə xarici tərəflərdən sızır. Bu taktika ilə mübarizə aparmaq çox çətindir. Çünki, kütlə bu şəxslərə böyük simpatiya duyur. Səlahiyyətli qurumların onlara güc nümayiş etdirməsi bir çox hallarda toqquşmalar ilə nəticələnir. Çünki, kütləni idarə edənlərin əsas məqsədlərindən biri də məhz bu cür toqquşmaların baş verməsidir.

## 2.1 Kütlə növləri

Müxtəlif mənalarda işlənməsinə baxmayaraq, bir-birindən fərqli dörd əsas kütlə davranışı mövcuddur.

### a) Spontan / Təsadüfi / Plansız kütlələr

Aralarında maddi və mənəvi əlaqə olmayan, tamamilə təsadüf nəticəsində müvəqqəti olaraq bir araya gəlmiş, kollektiv davranış nümayiş etdirməyən insan sıxlığıdır. Eyni hadisədə iştirak xaricində ortaq cəhətləri olmayan insanların bir arada toplanmasıdır. Bu cür kütlələr qısa müddət üçün nəyəsə maraq göstərirlər. Məsələn, dükanın vitrininə baxan insanları bu cür kütləyə şamil etmək olar. Onlar arasında psixoloji bir əlaqə yoxdur, müvəqqəti kütlə növünə aiddir. Belə kütlələrə müdaxilə edilərkən etika çərçivəsində və kübar ifadə ilə "hərəkət edin" və ya "dağılışın" kimi xəbərdarlıq edilməsi onların təhlükəsizlik əməkdaşlarına asanlıqla itaət etməsini təmin edəcək.

### b) Seyrçi / Həmrəy ola bilən kütlələr:

Ortaq maraq dairəsi olan insanların bir araya gələrək formalaşdırdığı kütləyə seyrçi kütlə deyilir. Bu cür kütlələr adətən yardımlaşma və əməkdaşlıq etməyə hazır olan şəxslərdən ibarətdir. Məsələn, futbol oyununu izləyənləri, ya da bir konsertdə iştirak edənləri bu cür kütləyə şamil etmək olar. Tədricən bu cür kütlələr arasında daha çox vaxt keçirəcəyi ehtimal olunan polislər üçün seyrçi kütlələri xüsusi əhəmiyyət kəsb edir.

İdman yarışlarını izləyən seyrçilər aşağıdakı xüsusiyyətlərə malik ola bilər:

- Üzvlər arasında maraq və əlaqə mövcuddur.
- Azarkeşlik duyğusu onlarda kollektiv düşüncə formalaşdırır.
- Təşkilatlanmaya və birgə fəaliyyətə meyllidirlər.
- Həyəcanlı kütlədir və asanlıqla təhrik edilə bilər.
- Müsabiqə qaydalarının qadağaları səbəbindən təmkinli davranmaya da meyl edirlər.
- Adətən onların hərəkətlərini öncədən təxmin etmək mümkün olur.

Bu kütlə dağılışdıqdan sonra onların daxilindəki bəzi qruplar zorakılığa davam edə bilər.

**c) Planlı kütlələr:**

Bu cür kütlələri bəzi hallarda seyrçi kütlələrdən ayırmaq xeyli çətindir. Planlı kütlələr bəzi ənənəvi məqsədlərlə bir araya gələn, adətən mövcud qanunlara uyğun davranışlar nümayiş etdirən çoxsaylı insan topluluğudur. İnsanların bir-birlərini xəbərdar etməyə, fərdi məmnuniyyətə və paylaşmaya nail olmaq üçün bir araya toplaşması nəticəsində meydana gəlir. Onlara misal kimi bəzi dini toplantıları, cənazə mərasimlərini və ya konfransları göstərmək olar.

**ç) Aqressiv kütlələr:**

Qanunlara zidd hərəkət etməyə meylli olan, amma aralarında təşkilati, iradə və məqsəd birliyi olmayan, qiyam, talan ya da zorakılığın digər növlərində iştirak edən, mövcud qaydalara elə də məhəl qoymayan həyəcanlı fərdlərdən ibarət müvəqqəti kütlələrdir.

Bu cür kütlələrin arasına sızan və ya öncədən bunların arasında olan liderlik xüsusiyyətinə malik şəxs və ya şəxslərin kütləni təşkilatlandırması, cəsarətləndirməsi və iğtişaşa sövq edən çıxışlar etməsi nəticəsində kütlə aqressivləşir. Bu cür kütlələrə güc tətbiqi son çarə kimi istifadə olunmalıdır, ilk öncə kütlə sakitləşdirilməlidir. Zorakılıq faktoru istənilən vaxt kütləni aqressiv qrupa çevirməyə qadirdir. Bu cür hallarda təhlükəsizlik qüvvələri vəziyyəti nəzarət altına almağa müvəffəq olsa kütlə aqressivləşməyəcək və normal kütlə kimi qalacaq. Məhz bu səbəbdən təhlükəsizlik qüvvələrinin kütlələri mahiyyətinə görə yaxşı tanıması və müvafiq tədbirlər görməsi mühüm əhəmiyyət kəsb edir.

Kütlələri bu formada təsnifləndirmək asan deyil. Belə ki, fərqli növ kütlələr bir-birinə qarışa bilər və bəzi hallarda, məsələn sabit seyrçi qrupu aqressiv kütləyə, ya da qanunsuz bandaya çevrilə bilər.

## 2.2 Kütlələrin psixoloji vəziyyəti:

*Kütlə psixologiyası, cəmiyyət daxilində yaşayan fərdlərdən ibarət müəyyən bir qrupun emosiya, düşüncə, etiqad və davranışlarının ictimai qaydalardan və cəmiyyətdəki digər fərd və qruplardan hansı formada təsirlənərək istiqamət dəyişdirdiyini izah etməyə çalışan sahədir.* Kollektiv hərəkət edən fərdlərdə qrupa mənsubluq hissiyyatından qaynaqlanan yeni bəzi psixoloji xüsusiyyətlər ortaya çıxır. Kollektiv (birgə) hərəkətlərdən qaynaqlanan ortaq psixoloji xüsusiyyətlər aşağıdakılardır.

**a) İradə zəifliyi:** *Kütlə daxilində fərdin şüur və şəxsiyyəti demək olar ki, silinir. Fərd kütlə daxilində öz şüurlu şəxsiyyətini və mənliyini arxa plana çəkməklə özünü qatıldığı kütlənin fikirlərinə və hisslərinə həsr edir.* Belə ki, kütlə daxilindəki bütün fərdlərin düşüncə və hissləri vahid istiqamətə yönəlir. Fərd bunun necə baş verdiyinin fərqinə belə vara bilmir. Kütlə iradəsi fərdin iradəsini ələ keçirir. Müvəqqəti, amma kifayət qədər aydın xüsusiyyətlərə malik ortaq (kollektiv) şüur meydana gəlir. Bu kollektiv şüur daxilində fərdi şüur qeyb olur.

Müəyyən bir məqsədə malik olmadan meydanda toplanmış insanları əsla psixoloji kütlə adlandırmaq olmaz. Kütlənin yaranması üçün bəzi təhrik edici amillər olmalıdır. Psixoloji kütlənin ən böyük xüsusiyyəti kütlə halına gələrək kollektiv ruh formalaşdırmasıdır. Bu ortaq ruh isə insanları tək başına olarkən hiss etdiklərindən, düşündüklərindən və edəcəklərindən tamamilə fərqli tərzdə hiss etdirir, düşündürür və hərəkət etdirir. Kütlələr ağılı bir kənara qoyaraq adətən primitiv ideyalar ətrafında cəmlənir.

Kütlə daxilindəki fərd elə bir psixoloji vəziyyətə düşür ki, O, çoxluğun və ya sayca çox olan kütlənin təsiri ilə öz qərar və düşüncələrinə nəzarət edə bilmir. O, təklikdə cilovlaya

biləcəyi instinktlərinə təslim olaraq çox vəhşi və qarşısı alınmaz güc əldə edə bilər. Şüuraltı aqressivlik impulsu kütlənin fərdə göstərdiyi təsir səbəbindən bir anda ortaya çıxmaqla fərdi normal hallarda etməyəcəyi hərəkət və davranışları etməyə sövq edə bilər. Məsələn, sadəcə futbol oyununa tamaşa etmək üçün stadiona gələn bir azarkeşin kütlə şüuruna qapılaraq oturacaqları sökməsi və ya normal hallarda heç vaxt söyüş söyməyən birinin digər azarkeşlər ilə birlikdə söyüş söyməsi kimi.

Yəni şəxslər qrup qərarları və fikriləri qarşısında iradə nümayiş etdirərək müstəqil düşünə, fikir söyləyə və qərar verə bilməz.

**b) Həssaslıq:** Ağlın yerini emosiyalar və instinktlər alır. Bu səbəbdən, kütlələrin təsir altına düşməsi və təsir göstərməsi həyəcan axınının intensivliyindən asılıdır. Xüsusilə, üsyan zamanı demaqoqlar və liderlər bu mexanizmdən istifadəyə böyük önəm verirlər.

Kütlənin həssaslığı onu təşkil edən fərdlərin həyəcanlı və ifrat dərəcədə gərgin olmasını ifadə edir. Qəzəb və qorxu kimi ədavət hissləri mərhəmət, sevgi və buna bənzər qeyri radikal hisslərə qalib gəlir.

Həssaslığın fərdlərin bir-biriləri ilə əlaqə qurmasında mühüm rol oynaması hamıya məlumdur. Beləliklə, kütlənin özünəməxsus həssaslıq nümayiş etdirməsi təbiidir. Həssaslıq adətən fikirlərin zehinlərə sirayət (fikirlərin fərdlərə təsir göstərməsi) etməsi və fərdlər tərəfindən paylaşılması, yəni eyni emosiyaları paylaşma və eyni şeyi hiss etmə formasında təzahür edir. Zehni və hissi sirayət nəticə etibarilə kütlələri müəyyən bir istiqamətə yönəldir.

*Kütlə hərəkətə keçərkən həyəcanı nadir hallarda eyni səviyyədə qalır və ya azalır. Ümumilikdə, həssaslıq səbəbindən kütlədə həyəcan və gərginlik artır. Bu cür vəziyyətə adətən "Təhrik Spiralı" deyilir.* Çünki, kütlənin hər üzvü ətrafında özünü həyəcana qapdırmış şəxslər gördüyü zaman kütlə həyəcanını öz həyəcanından daha çox hiss edir. Bu da həssaslığın cəmiyyətdə effektiv əlaqə vasitəsi olduğuna sübutdur.

Sosial təsir çərçivəsində bir fərdin necə təsir altıda düşdüyünü sadə misalla izah edə bilərik. Bir çoxunuz avtomobil qəzası baş verərkən insanların hadisə yerində toplaşdığına şahid olub. Avtomobil qəzasını görməyən, ancaq təsadüfən oradan keçərkən bəzi insanların toplaşdığını görən şəxs "nə olub?" "görəsən nə baş verir?" deyə maraq göstərərək kütləyə doğru gedir. Həmin şəxsdə maraq oyandıran eşitmədiyi və ya görmədiyi nəqliyyat qəzası deyil, məhz kütlənin mövcudluğudur. Bəzi hallarda da, insanlar heç bir məcburiyyət olmadığı halda kütləyə uyur. Məsələn, küçədə bir neçə nəfərin havaya baxdığını görən şəxs də havaya baxa bilər. Başqa bir misal versək, bir yaxınını və ya ən çox sevdiyi dostunu itirən bir şəxsin kədərlənərək nalə çəkməsini görən digər insanlar, onun dostunu tanımadıqları halda "heyf ondan, hayıf!", "Allah səbr versin" kimi sözlərlə həmin şəxsi təsəlli etməyə çalışır, hətta ağlamağa başlayır.

**c) Yamsılama:** Yamsılama deyərkən fərdin digər bir fərdin hərəkət və davranışlarını, geyim tərzini yamsılaması, habelə həmin fərdin hərəkət və davranışlarını bilərək və ya bilməyərək təqlid etməsi başa düşülür. Hər yamsılama təqlid demək deyildir. Yamsılama əsasən fərdin özündə gördüyü bəzi çatışmazlıqlara görə özünü əzik hiss etməsindən və ya digərlərindən üstün olma arzusundan irəli gələ bilər.

Bəzən bu yamsılama elə bir hal alır ki, fərd yamsılamanı nə üçün etdiyini bilmir, bəzən də bunun yaxşı əməl olduğunu hesab edə bilər. Fərd kütlədə öz şəxsiyyətini, mənliyini arxa plana ataraq, kütlə psixologiyasının təsiri ilə onların davranışlarını yamsılaya bilər. Yamsılamada mübaliğə vardır. Moda hərəkətləri, tanınmış futbolçunun saç modeli, istehlak məhsulu ilə bağlı reklamda təkrar edilən sözlər bizi yamsılamaya sövq edə bilər.

Heç kimin şəxsi duyğularına nəzarət edə bilmədiyi kütlə daxilində fərdlər də öz məsuliyyət hisslərini itirirlər. Kütlənin böyüklüyü, fərdi özünü güclü hiss etməsinə və bu gücündən istifadə etmə arzusuna sövq edir. Qrup üzvləri birlikdə hərəkət etməyi və qrupun gücündən faydalanmağı yamsılamaya başlayır. İnsanlar güclü olmağı xoşlayır və bu gücə sahib olmağı arzulayır. Bu gücə sahib olduqları anda da ondan istifadə edirlər. Güclü olma hissi kütlənin fərdə verdiyi inam və məsuliyyətsizlik hissindən qaynaqlanır. Məsələn, qrup daxilində xəsis kimi tanınan bir şəxsin, kasıblar üçün pul toplayan kütlə daxilində əliaçıq şəxslərdən geri qalmayaraq yüksək məbləğdə yardım etməsi və ya kasıb olduğu halda pal-paltarı ilə varlılardan seçilməyən şəxslər kimi.

**ç) Təlqin (inandırma):** Kütlədəki insanlar müntəzəm olaraq ictimai şəraitdə bir yerdə olduqları üçün onları təlqin etmək asanlaşır. Kütlə daxilində insanların davranışlarına standart normalar yön vermir.

Şəraitdən asılı olaraq kütlələr mülayim və ya radikal emosiya və davranışlara sahib ola bilər. Hər şey kütləyə edilən təlqinin növü və formasından asılıdır. Kütlələr təlqinə meylli olduğu üçün onları təlqinin təsiri altına ala bilən bir çox təhrik növləri vardır. Toplantı və yürüyüşlərdə qruplar arasına sızan təhrikçilərin müxtəlif provokativ yollarla kütlələri asanlıqla öz məqsəd və istiqamətlərindən azdırdığı məlumdur. Belə hallarda kütlələr tərəfindən heç bir şey öncədən planlaşdırılmır. Həmin anın və şəraitin təsiri altına düşməklə bir-birinə zidd emosiya dalğaları arasında qalırlar. Onlar, eyni ilə bir fırtınanın hər tərəfə sovurduğu yarpaqlara bənzəyirlər.

Kütlədə insan sayının çox olması şəxslərə qarşısıalınmaz güc hissi verir. Tək başına fərd sarayı yandıra və ya dükanı qarət edə bilməyəcəyini hiss etdiyi üçün belə hərəkətlərə təşəbbüs etməyi ağlına belə gəlmir. Halbuki, kütlə daxilində vəziyyət fərqlidir, o, kütlənin ona verdiyi güc və qüvvəti dərk edir, beləcə cinayət və qarət törətmək üçün ona edilən ilk təlqinə təslim olur. Ümumiyyətlə, kütlə şəraitində özümüzü gündəlik həyatımızla müqayisədə daha güclü və mətanətli hiss edirik. Belə bir şəraitdə, ictimaiyyətin məqbul görmədiyi, məsələn zorakılıq, risk, oğurluq, təxribat və əxlaqa zidd ifadələrdən istifadə kimi davranışlar nümayiş etdirməyə meylli ola bilərik.

**d) Təqlid:** İnsanları başqalarının etdiyi hərəkətlərin eynisini etməyə sövq edən primitiv, lakin effektiv metoddur. Təqlid digər şəxslərə məxsus hərəkətlərin və ya özgə əməllərin təkrarlanması deməkdir. Yalnız güclü iradəyə malik insanlar bu yönləndirməyə müqavimət göstərə bilər. Kütləni meydana gətirən fərdlərin kimliyindən asılı olmayaraq, yəni həyat tərzləri, instinktləri, xarakterləri bir-birindən fərqli olmasına baxmayaraq, kütləyə çevrilməsi onlarda vahid kollektiv şüur formalaşdırır. Bu ruh onları yalnız və ya bir-birilərindən ayrı olarkən nümayiş etdirdikləri davranışlardan tamamilə fərqli davranmaya sövq edir. Bəzi fikirlər, bəzi hisslər ancaq kütlə daxilində olan fərdlərdə təzahür edir və ya meydana çıxır. Eyni ilə canlı varlığa məxsus hüceyrələrin bir araya gələrək, fərdi xüsusiyyətlərini itirməsi və tamamilə fərqli xüsusiyyətlərə malik canlı varlıq formalaşdırması kimi.

Kütlədəki ab-hava təqlid etmə duyğusuna stimul verir. Bu səbəbdən, liderin və ya qrupda nüfuza malik fərdin şəxsi hərəkəti qrup üzvləri tərəfindən dərhal mənimsənilir, təqlid edilir və müştərək hərəkətə çevrilir. Məhz bu səbəbdən konsertlərdə təhlükəsizlik tədbirlərinin görülməsinə baxmayaraq, səhnədəki sənətçinin yanına gəlməyə müvəffəq olan bəzi pərəstişkarların ardınca digər pərəstişkarlar da eyni metodla səhnəyə hücum edirlər. Başqa bir misal kimi stadion girişlərində səlahiyyətli işçilərin təlimatı əsasında və ya tamaşaçıların ən öndəki tamaşaçılarının arxasınca getməsi səbəbindən hər kəsin eyni qapıdan girərək izdiham yaratmasını göstərmək olar.

**e) Məlumatların yayılması:** İnsanlar adətən həyəcanlı şikayətlərə məhəl qoymasalar da, başqalarının etdiyi hərəkətlərin təsiri altına düşürlər. Bu səbəbdən, qrup daxilində görülən əməllər və deyilən sözlər qısa zamanda yayılır və qrupu öz təsiri altına alır. Qrupda emosiyalar paylaşılır və bu paylaşma öncə simpatiyadan başlayır, bir çox hallarda qəzəbə çevrilir. Fərdlər başqalarının çəkdiyi əziyyəti özündə hiss edir, beləcə yalnız ziyan vurmağı düşünən qəzəbli fərdlərə çevrilirlər. Bu səbəbdən xüsusilə idman müsabiqələrində "rəqib azərkeşlər bizimkiləri döyüb" kimi əsassız xəbərlər dərhal yayılır və azarkeşlər arasında gərginlik yaşanır.

**ə) Təsir altında qalma:** İnsanların davranışlarına təsir edən psixoloji səbəblərdən biri də təsir altında qalmaqdır (sosial təsirlənmə). Qruplar əksər hallarda bir və ya bir neçə nəfərin etdiyi hərəkətlərin təsiri altında qalır və bu hərəkətləri etməyə başlayır. Şəraitdən asılı olaraq kütlələr mülayim və ya radikal emosiya və davranışlara sahib ola bilər. Hər şey onlara edilən təlqinin növündən və tərzindən asılıdır.

Adətən kütləvi hərəkətlər bir anlıq təsir altında qalma nəticəsində meydana gəlir. Gözlənilmədən ortaya atılan təhrik edici bir söz, fikir və ya hərəkət kütlənin aqressiv bir qrupa çevrilməsinə səbəb ola bilər. Kütləni meydana gətirən şəxslərin diqqəti onları xeyli həyəcanlandıran hadisəyə və ya təhrik edən liderə cəmlənir. Bu səbəbdən, kütləvi hərəkətləri məntiq və ağıl deyil, məhz qəzəb, həyəcan, kin və nifrət idarə edir.

**f) Anonimlik:** Qrup daxilində olarkən şəxslər yaxşı başa düşürlər ki, onların şəxsiyyətinin müəyyən edilməsi ehtimalı çox azdır. Bu da nizamsız kütləvi hərəkətlərdə şəxsləri motivasiya edən ən vacib amillərdən biridir. Kütlə daxilində bəzən öz şəxsiyyət və məsuliyyət hissimizi müvəqqəti olaraq itiririk ki, bu da adətən tək başına etməyəcəyimiz hərəkətləri etməyimizə səbəb ola bilər. Başqaları ilə qaynaşma və kütlə daxilində qeyb olma duyğusunu ifadə edən anonimlik bu prosesə yardımçı olur. Bu cür şəraitdə özümüzü yaxın dostlarımız arasında olduğu kimi qanunsuz nümayişlərə qatılmaqdan məhdudlaşdırılmış kimi hiss etmərik. Anonimlik müəyyən bir kütlənin özünü yüksək bir yerdən ataraq intihar etməklə təhdid edən şəxsi qəddarcasına ələ salmasını və özünü atması üçün amansızca təhrik etməsini, o cümlədən daşqalağın qəddarlığını anlamağa kömək edir.

Fərdi davranış və xüsusiyyətlər hər bir kəsi ağuşuna almaqla arxasınca aparan və ancaq instinktdən ibarət ehtiras selinə qərq olur. Anonimliklə əlaqədar kütlələr məsuliyyətsiz olduğu üçün oradakı fərdlər məsuliyyət hisslərini itirərək özlərini asanlıqla instinktlərinin ağuşuna atırlar. Kütlə daxilindəki fərdlər küləyin iradəsinə tabe olan qum dənələri kimidir.

Böyük kütlələr və qruplar fərdin şəxsiyyətini gizlədən örtük kimidir. Kütlə daxilində fərdlər davranışlarından məsuliyyət daşıdığını düşünmür və tək başına olarkən hiss etdikləri məsuliyyət duyğusu qədər güclü məsuliyyət hiss etmir. Bu səbəbdən qrupa qatılan şəxslər o qədər insan içindən kiminsə şəxsiyyətinin müəyyən ediləcəyini  ya da ittiham ediləcəyini güman etmir. Nə qədər ki, fərd o topluluğun bir parçasıdır bu inam onun daxilində dövran edəcək. Qrup daxilindəki qərəz, kin və nifrət kimi primitiv duyğular fərdi öz təsiri altına aldığı üçün o, öz hərəkətlərinə eyni inamla davam edəcək.

Bununla yanaşı, tanınmama ehtimalının səbəb olduğu güvən duyğusuna əlavə olaraq, heç şübhəsiz fərdin hərəkətlərində özünə olduğundan artıq dəyər vermə kimi hallar da müşahidə olunacaq.

Yalnız əlindəki fotoaparatla və ya video kamera ilə vəziyyəti aydınlaşdırmağa çalışan polis əməkdaşı fərdin tanınmama güvənini sarsa, qorxu və təlaş hissi yaradaraq fərdləri kütləvi hərəkətlərə qatılmaqdan yayındıra bilər.

## 2.3 Kütlə daxilində mövcud olan fərd növləri

Kütlələr qrup dinamikası əsasında hərəkət edir. Qrup dinamikası anlayışı qrup daxilində insanları bir arada tutan, başqa bir deyişlə qrupu meydana gətirən enerji və ya güc kimi qəbul edilir. Bu gücün təsiri altında insanlar ortaq məqsəd, gözlənti, dəyər, emosiya, düşüncə, inanc, hərəkət birliyi çərçivəsində, müəyyən prinsip və qaydalara uyğun bir araya gəlib təşkilatlanır. Kütlələrdə qrup dinamikasının formalaşmasını təmin edən müxtəlif fərdi xüsusiyyətlərə malik insanlar mövcud olur.

Provokativ şəraitdə tələbləri yerinə yetirilməyən və iğtişaşa təşəbbüs edən nüvə qrup var. Onların psixologiyası provokasiyaya cəlb olunmaq üçün əlverişlidir. Onlar şüarlar səsləndirirlər, hər kəsin görə və eşidə biləcəyi yandırıcı və dağıdıcı hərəkətlər nümayiş edirlər. Oturma, qalxma, yatma və yürüyüş formasında ictimai toplantılar təşkil edirlər. Bununla yanaşı, onlar talan, boykot, işğal və etirazlara da əl ata bilərlər. Qrupda həyəcanlı davranışlar müşahidə olunur. Qrup daxilində ehtiyatlı davranan şəxslərlə yanaşı, asanlıqla təsir altına düşə bilən və ya əməllərinin nəticələrini düşünmədən hər cür təxribata təşəbbüs edən şəxslər də var. Mövzunun daha yaxşı anlaşılması üçün kütlə və ya provokativ şəraitdə fərd növlərinin bəzi xüsusiyyətlərinə nəzər salmaqda fayda var.

**a) Təhrikçilər (Provokatorlar):** Müəyyən bir məqsədi reallaşdırmaq istəyən, çaxnaşma və iğtişaşların başladılması, davam etdirilməsi, habelə provokasiya sahəsində təcrübəyə malik şəxslərdir. Bu məqsədlə zorakılıqdan istifadə edərək liderliyi ələ keçirməklə ətrafdakılara əmrlər verir və qərarlarının müzakirə obyektinə çevrilməsinə icazə vermirlər. Onlar qrup daxilində təsir edici çıxışlar, həyəcan artırıcı şüar və hərəkətləri ilə nəzərə çarpırlar. Əvvəlcə “susma, susduqca növbə sənə gələcək” kimi ümumi şüarlar səsləndirirlər. Sonradan “Nə istəyirik? Azadlıq!! Verməsələr də alacağıq!! Bəs nə vaxt? Elə indicə!!” kimi spesifik şüarlar seçməklə topluluğu kiçik qruplara bölərək aralarında inamsızlığı, iğtişaş yaratma və zorakılıq hisslərini alovlandırmağa cəhd edirlər. Təhrikçilərin əsas məqsədi fərdləri və ya qrupu cinayət sayılan davranış və aksiyalara sövq etmək, onları təhrik etməkdir. Bundan əlavə təhrikçilər zahiri görünüşləri ilə digərlərinin simpatiyasını qazanmağa xüsusi önəm verirlər.

Onlar adətən qrupun daxilində və ya kənardan, yəni qrupa qatılmadan fəaliyyət göstərirlər. Təhlükəsizlik qüvvələri hər hansı formada gücdən istifadə edərkən qrup daxilində ilk öncə onları fərqləndirməyə çalışır. Bu şəxslər müntəzəm olaraq başqalarının etibarını və dəstəyini qazanmağa, mədh olunmağa çalışırlar. Daim başqalarının diqqətini öz üzərilərinə çəkməyə çalışırlar. Bu istəkləri reallaşmadıqda narahat olurlar.

Onlar kiçik hadisələrdən belə həyəcan yaradır və gözlənilməz reaksiyalar verirlər. Bu reaksiya adətən mövcud şəraitə uyğun olmur və bir az şişirdilir. Təhrikçilər özlərini məmnun edəcək halların qarşısının alınması və ya gecikdirilməsi ilə barışa bilmirlər, çünki özlərinə məmnunluq tapmağa məhkumdurlar. İfrat bəzənmə və qeyri etik hərəkətlər etməklə diqqət çəkici, cazibədar və başqalarının ağlını başdan alan davranışlar nümayiş edirlər. Bu səbəbdən, fiziki baxımdan cazibədar görünməyə xüsusi əhəmiyyət verirlər. Çıxışlarında təfərrüata girmədən sadə üslubdan istifadə edirlər. Onların bu formada çıxış etməsi böyük məna kəsb edir.

Onlar öz hərəkətləri ilə daim diqqət çəkməyə cəhd etdikləri üçün qeyri təbii davranılar. Digərləri ilə ünsiyyətdə bəzən lovğa, bəzən də əksinə təəssüf doğurucu dramatik davranışlar nümayiş etdirilər. Həqiqi olmayan, hədsiz şən və xoş görünmə formasında səthi və həyəcanlı həyat tərzinə malik olurlar. Yeniliyə, xəbər vermə və xəbər almağa məhkumdurlar və asanlıqla

təşvişə düşə bilərlər.

Bu şəxslər qısa zamanda özlərinə dost tapırlar və bu dostluqlardan həmişə öz mənafeləri üçün istifadə etməyə cəhd edirlər. Özlərini inamsız və köməksiz hiss etdikləri üçün daim ətrafdakıların onlara etimad etməsini istəyirlər. Onlar hərəkətlərində tutarsız və qeyri stabil olduğu üçün, başqaları onların davranışlarının real mahiyyətini dərk etməyə bilər.

Bu şəxslər zehni işlərdə elə də uğur qazana bilmir, əvəzində yaradıcılıq və xəyalpərəstlik qabiliyyətinə malikdirlər. Onlar asanlıqla başqalarının və mənasız şeylərin təsiri altına düşə bilər. Təlqinə meyillidirlər və avtoritar şəxsin davranışlarına ilk öncə öz problemlərini həll edəcəyini düşündükləri üçün itaət edirlər. Çox asan inanırlar, ya da etiqadları dərhal mənimsəyirlər.

**b) Fürsətcil və məqamı əldən verməyən fərdlər / Qoçaqlar:** Qruplara və ya həyat qaydalarına məntiqi yanaşmayan, ya da məntiqi yanaşma bacarığı olmayan anti-sosial fərdlərdən ibarətdir. Qəddar, dərhal zövq almaq istəyən, məsuliyyət hissi daşımayan, dəfələrlə xəbərdarlıq və cəza almalarına baxmayaraq davranışlarını düzəltməyən şəxslərdir. Bu şəxslər dərhal zövq almaq və ehtiraslarını doyuzdurmaq üçün başqalarına nəzarət etməklə yanaşı, özlərini uca tutma, pul qazanma, mülk sahibi olma kimi xüsusiyyətlərə də malikdir.

Adətən bu şəxslər öz ətrafındakıları ilə əlaqə qurmaqda çətinlik çəkirlər. Aldıqları cəzalar onları öz əməllərindən çəkindirmir. Onlar olduqca qəddar və həyat fəlsəfələrini zövq alma prinsipi üzərində quran şəxslərdir. Onlarda məsuliyyət hiss çatışmır və öz davranışlarının təhlükəsiz, faydalı və ədalətli olduğunu nümayiş etdirməyə cəhd edirlər. Hər hansı bir şəxsə və ya qrupa səmimi hörmət göstərmirlər. Qanun və qaydalara hörmətsizlik edirlər, sosial qaydalara adətən riayət etmirlər.

Asosial (cəmiyyətdən qaçan) və ya davranışlarında problem olan fərdlərin əksəriyyəti soyuq ailə şəraitində böyüdülmüşdür. Problemli davranışlara səbəb olan digər amil isə ərköyün ev şəraitidir. Bu cür ailədə böyüyən fərd heç vaxt arzularını cilovlaya bilmir. Bu cür həyat tərzi “indi nə istəyirəmsə o da olacaq” qaydasına uyğun formalaşır. Bu şəxslər intizama cəlb olunarkən belə hallara uyğunlaşma bacarıqları olmadığı üçün üsyan edirlər.

Bu şəxslərin əsas xüsusiyyətləri arasında yaşadıqları cəmiyyətin istəklərinə uyğunlaşmama və müxalif davranışlar nümayiş etdirmək də var. Onlar adətən digər şəxslərlə yola getmir, cəmiyyətin düşüncə və etiqadlarına zidd davranışlar nümayiş etdirir. Məhz bu xüsusiyyətlərinə görə onları digər insanlardan fərqləndirmək mümkündür.

Qısası, onlar düşüncəsiz, ani qərar verən və qrup daxilində canfəşanlıq edərək özlərinə status qazanmağa çalışan şəxslərdir. Onlar istənilən formada iğtişaş törətməklə dəstənin ən önündə gedirlər və çalışırlar ki, iğtişaşlar müntəzəm olsun. Onlar hadisələrin nə ilə nəticələnəcəyini düşünmədən istənilən formada təxribat törədə bilərlər.

**c) Təsir altında qalanlar:** Bu cür şəxslər həyatları boyunca aciz olur, üzləşdikləri çətinliklərə operativ və konstruktiv həll yolu tapa bilmir. Onlarda əqli və ya fiziki baxımdan çatışmazlıq olmasa da, qeyri stabil davranışlara malik olurlar və cəmiyyətə uyğunlaşmada çətinlik çəkirlər. Həyat tərzlərində uzaqgörənlik və gələcəyə dair plan qurma yoxdur. İradəsiz, enerji və motivasiyaları aşağı səviyyədə olduğu üçün ətrafdakıların köməyinə ehtiyacları var. Onlarda güclü şəxsiyyət xarakteri formalaşmamışdır.

Onlar əsasən passivlik və asılılıq nümayiş etdirən şəxslərdir. Dəstək aldıqları şəxslərdən özlərini asılı hiss edirlər. Acizliyə, qərarsızlığa, başqalarına arxasını söykənməyə meyillidirlər. Hər hansı bir işi öz öhdələrinə götürdükləri zaman və ya nə isə etməyə təşəbbüs göstərəndə çətinliklərlə üzləşir, təşvişə düşürlər. Əksər hallarda başqalarından dəstək alırlar.

Bu şəxslər son dərəcə yazıq, ümidsiz, köməyə möhtac, başqalarından asılı və uşaqvarı hərəkətləri ilə özlərini dərhal ifşa edirlər. Onlar istəyirlər ki, digər şəxslər onların hər arzusunu təmənnasız yerinə yetirsin.

Bu cür xüsusiyyətlərə malik şəxslərin bir qismində isə passiv tərzdə üsyankar müqavimət müşahidə olunur. Bu hal inadkarlıq, dikbaşlıq, tərslik formasında təzahür edir. Onlardan tələb olunan şeylərə daxilən müxalif olduqları üçün üsyankar davranışlar nümayiş edirlər. Amma inadkar, dikbaş və tərs xarakterə malik bu insanlar öz üsyankar təbiətini açıq şəkildə büruzə verməyərək, onlara verilən tapşırıqları gec yerinə yetirməklə passiv müqavimət nümayiş etdirilər.

Onların öz həyəcanlarına nəzarət etmə bacarığı çox zəifdir. Ən kiçik bir hadisə nəticəsində həyəcanlanan, gücsüzlük, səbirsizlik, tez qəzəblənmə və sonradan peşmanlıq və günahkar olma hissinə qapılan, az verib çox almaq istəyən bu cür uşaq xarakterli eqoist şəxslər öz xarakterləri ilə cəmiyyət daxilində nadir hallarda müvəffəqiyyət qazanırlar, həmçinin ailə üzvləri, iş yoldaşları və dostları ilə yol getmirlər.

**ç) Ehtiyatlı fərdlər:** Onlar xarakter baxımından ağıllı, tələbkar, mükəmməlliyi sevən, utancaq, həssas, diqqətli, təfərrüatçı, çalışqan, fanatik məsuliyyət hissinə malik, daxili ədavətlərini və arzularını ifadə edə bilməyən, özünü ifrat dərəcədə ittiham edən vicdana, əxlaq anlayışına sahibdir. Sosial və əxlaqi standartlara sadiq olduqları üçün özlərini günahkar hesab edən, ifrat mənəvi sarsıntı yaşayan şəxslərdir. Çox çalışırlar, ətrafdakılara faydalı xidmətlər göstərirlər. Mükəmməlliyi və hər şeyi tam və düzgün formada etməyi xoşaldıqları üçün özlərini daim narahat hiss edilər.

Bu şəxslər öz prinsip və dəyərlərini dostlarına qəbul etdirməyə çalışdıqları üçün digər fərdlərlə ünsiyyətdə adətən problemlərlə üzləşirlər. Özlərini belə aparmasalar rahat ola bilməzlər. Qətiyyətli və skeptik xarakterə malikdirlər. Digər şəxslərdən güclü və həyəcanlı şəkildə asılı olurlar. Bu səbəbdən, qrup daxilində olarkən peşəkar təhrikçilərdən fərqli olaraq əvvəlcədən planlı, proqramlı hərəkət etməyən gənc və təcrübəsiz liderlər kimi qoçaq və cəsur deyillər. Bununla belə, qrupdakı qoçaqların başladığı aksiyalarda dərhal iştirak etməyə meyillidirlər. Bacarıqsızlıq, qərarsızlıq kimi xüsusiyyətlərə malik olmaqla yanaşı, onlar həyəcanları itmiş, müqavimət qabiliyyəti azalmış, lakin tələbkar və intizamlı olmayı xoşlayan şəxslərdir.

Onlar çox təmiz, təfərrüatçı, ifrat vicdanlı, ehtiyatlı, əxlaqi dəyərlərə önəm verən, xəsis, inadkar, hər şeyi dərindən və düşünərək etmək istəyən, pessimist, ifrat dərəcədə həssas, idealist, utancaq, işinə düşkün, məsuliyyətdən qaçan, qaydalara ciddi şəkildə riayət edən və başqalarının razılığını almağa önəm verən xarakterə sahibdir.

**d) Dəstək verən fərdlər:** Bu şəxslər özlərini məmnun etmək üçün müntəzəm olaraq digər insanların etibarını, dəstəyini qazanmağa və mədh olunmağa çalışırlar. Özlərini etibarsız və gücsüz hiss etdikləri üçün ətrafdakıların onlara etibar etməsini istəyirlər. Bu şəxslər xəyalpərəstdir və xəyal dünyasında yaşayırlar. Asanlıqla başqalarının təsiri altında düşürlər və dəbdə olan lazımsız ictimai fikirləri yaxından təqib edilər. Təlqinə meyillidirlər. Avtoritar şəxslərin problemləri həll edəcəyinə inandıqları üçün onlara itaət edilər. Asanlıqla inanırlar və ya qrup etiqadını dərhal mənimsəyirlər. “Bizdən olmayan düşmənimizdir” məntiqinin aləti olmağa meyillidirlər. Bu səbəbdən, əsaslı mühakimə yürüdə bilmirlər.

Kütlələr, qruplar bu şəxslərə güc və prestij təmin etdiyi üçün məftunedici zahiri görünüşə sahib olurlar. Onların daxili dünyalarında sarsıntı və mənəvi boşluq yaranmışdır. Onlar daxildəki mənəvi boşluqları təmir etmək üçün qrupları dəstəkləməyi özlərinə “müalicə metodu” kimi

görürlər. Başqa bir deyişlə, qruplar onların dərdinə dərman olur. Bu səbəbdən, bir çox şəxslər qrupa daxil olmaq məcburiyyətində qalır. Onlar xarakter baxımından ictimai iğtişaşlarda iştirak etməyə meyllidir.

**e) Seyrçilər:** Onlar hər hansı bir aksiyada iştirak etməyən, lakin qrupu maraqla izləyən və baş verən hadisələrə tamaşa edən insanlardır. Onlar nə baş verdiyini bilmək istədiyi üçün, baş verən hadisəyə şərhlər verir. Qrup üzvlərinin nə üçün toplandıqları, nə dedikləri onlar üçün maraqlıdır. Baş verənləri anlamağa çalışırlar. Əgər qrup onların duyğu və düşüncələrinə xitab edirsə, aralarında yaxınlıq yaranarsa onlar əli, dili və qəlbi ilə həmin topluluğu dəstəkləyəcək. Əgər xitab etməsə və onlar üçün heç bir əhəmiyyəti olmasa oradan uzaqlaşaraq öz işlərin dalınca gedəcəklər. Bununla belə, aksiya iştirakçıları seyrçilərin onlara maraq göstərməsindən mənəvi dəstək alır və çalışırlar ki, həmin seyrçiləri də özlərinə cəlb etsinlər. Bundan əlavə, ictimai aksiyalarda özü iştirak etməsə də, yaxınları iştirak etdiyi üçün onlara dəstək verən şəxslər də var. Adətən onlar aksiyalara simpatiya göstərir və yaxınlarının iştirak etdiyi aksiyalara dəstək verirlər.




# 2. BÖLMƏ İCTİMAİ TOPLANTILAR

1 İCTİMAİ TOPLANTILAR, YARANMA SƏBƏBLƏRİ VƏ POLİSİN ROLU
2. İCTİMAİ TOPLANTILARIN HAZIRLIQ MƏRHƏLƏSİ
3. İCTİMAİ TOPLANTILARIN BAŞLANMA METODLARI
4. TOPLANTI İŞTİRAKÇILARININ TAKTİKİ HƏRƏKƏTLƏRİ
5. KÜTLƏNİN HƏRƏKƏT NÖVLƏRİ
6. İCTİMAİ TOPLANTILAR ZAMANI TƏLAŞ
7. İCTİMAİ TOPLANTILARA MÜDAXİLƏ ÜZRƏ ÜMUMİ QAYDALAR

## 2. BÖLMƏ İCTİMAİ TOPLANTILAR

### HAZIRLIQ SUALLARI

- İctimai etirazlar hansı mərhələlərdən ibarətdir?
- İctimai aksiyalarda polisin vəzifələri nədir?
- İctimai toplantılar hansı hazırlıq mərhələlərindən ibarətdir?
- İctimai toplantılara başlama metodları hansılardır?
- Təlaş nədir? Onun qarşısını necə almaq olar?
- İctimai toplantılara əsas müdaxilə qaydaları hansılardır?

### 1 - İCTİMAİ TOPLANTILAR, YARANMA SƏBƏBLƏRİ VƏ POLİSİN ROLU

İnsanların qidalanma, sağlamlıq, təhlükəsizlik, özünü inkişaf etdirmə və s. ehtiyaclarını təbiətdə tək başına ödəməsi demək olar ki, mümkün deyil. Bu səbəbdən, tarixi inkişaf prosesində insanlar bir araya gələrək sağlamlıq, təhlükəsizlik, mal və xidmət istehsalı sahələrində iş bölgüsü və əməkdaşlıq edərək insan təbiət əlaqələrində çox mühüm mərhələlər keçmişdir. Mədəniyyətlərin yaranması və inkişafı da insanların bir araya gəlməsi sayəsində mümkün olmuşdur. İnsanlar arasındakı həmrəyliyin faydaları və təbiət qüvvələrinə qarşı əldə edilən üstünlük tədricən sosial əlaqələrdə də öz əksini tapmışdır. Müəyyən bir düşüncə, etiqad, mədəniyyət və ya iqtisadi struktur çərçivəsində fərdlərin bir-biriləri ilə canlı və say baxımından həmrəyliyi nə qədər yüksəkdirsə, onlar sosial və iqtisadi tələbləri reallaşdırarkən bir o qədər gücə sahib olurlar, özlərini məmnun edirlər, həmçinin rəqibləri və fərqli qruplar üzərində üstünlük əldə edirlər.

Cəmiyyətlər inkişaf etdikcə ideologiya, etiqad, irq, milliyyət, mədəniyyət, iqtisadi, sosial və ya siyasi məqsədlər daşıyan rəsmi və ya qeyri-rəsmi təşkilatlar yaranmışdır və onlar müxtəlif yollarla öz güclərini artırmağa çalışmışlar. Müasir dövrdə dərnək və ya fondlar öz üzvlərinin, siyasi partiyalar seçicilərinin, idman klubları azarkeşlərinin, sənətçilər heyranlarının saylarını artırmağa çalışması və ya iki insan evlənərkən və ya sadə sünnət toyunun kiçik bir otaqda keçirilməsi mümkün olduğu halda çoxsaylı dəvətlilər qarşısında mərasim formasında təşkil edilməsi və ya cənazələrdə yasların birlikdə tutulması digər insanlarla bir arada olmaqdan əldə edilən maddi, mənəvi gücün və ya məmnunluğun fərdlər üçün nə qədər mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

Məhz bu səbəbdən, insanlar bir araya gəlməklə həmrəy olmağa çalışırlar. Mühüm futbol oyununda qələbə qazanan futbol klubunun azarkeşləri bir araya gələrək şəhəri dolaşırlar, insanlar yaz tətilində birlikdə şəhər kənarına çıxırlar, xalqımız bayramları birlikdə qeyd edir və ya birgə matəmlər tutur.

Cəmiyyətin təhlükəsizliyindən məsul olan polislərimiz də ictimai təhlükəsizliyə təhdid olmasın deyə bu cür fəaliyyətlərə nəzarət edir. Ancaq normal şərtlərdə bu cür fəaliyyətlər **detektiv xarakterli (cinayət potensiallı)** deyil, daha çox **sosial toplantılar** kateqoriyasına şamil edilir.

Sosial toplantılarda məqsəd bir şeyə birlikdə tərəfdar olmaq, sevinci və ya kədəri paylaşmaq, əylənmək və buna bənzər digər hallar daxildir. Ancaq detektiv xarakterli ictimai toplantılarda bir görüş və ya düşüncə paylaşılmaqla yanaşı, adətən müəyyən bir şəxsə, təşkilata və ya vəziyyətə etiraz da var.

Məsələn, futbol üzrə milli komandamızın əldə etdiyi vacib bir qalibiyyəti xalqımızın

meydanlarda bayram etməsi sosial aksiyadır. Çünki, hər hansı bir şəxs, qrup və ya ölkəni hədəf alan davranış deyil. Ancaq "Azadlıq" meydanında etiraz nümayişi keçirmək istəyən qrup iştirakçılarının aksiyası zorakılıq meylləri və provokasiya yaratmaq ehtimalları ilə düz mütənasib olduğu üçün detektiv toplantılar kateqoriyasına daxildir. Bu toplantı ümumi xarakterinə görə etiraz mahiyyətində olduğu üçün əhalinin asayişi, dinclik və təhlükəsizliyini təmin etməkdən məsul olan polislərimizi xüsusilə maraqlandırır. Polis öz vəzifəsinə uyğun olaraq həm sosial, həm də cinayət xarakterli toplantılarda öncədən tədbirlər görür. Bununla belə, sosial toplantılar çərçivəsində görülən tədbirlər detektiv toplantılardan xeyli fərqlidir.

Müasir dövrdə etiraz etməyən cəmiyyət yoxdur. Lakin, hər cəmiyyətin dinamikası bir-birindən fərqləndiyi üçün bəzi cəmiyyətlər ümumilikdə etiraz etməyə, bəziləri isə az və ya kəskin etiraz edə bilər. Az etiraz edən cəmiyyətlərdə etirazların adətən planlaşdırılmış formada deyil, **partlayış** şəklində baş verməsi ehtimalı daha çoxdur. Məhz bu səbəbdən, demokratik ölkələrdə əhalinin nəbzini düzgün tutmaq və partlayışlara yol vermədən müdaxilə edə bilmək üçün kütləvi aksiyalara və etiraz nümayişlərinə icazə verilir. Beləcə əsaslı etirazlar vaxtında aşkar edilir və zəruri tədbirlər görülərək ictimai gərginlik nəzarət altına alınır. Bu səbəbdən etiraz edən cəmiyyət sağlam cəmiyyətdir.

Lakin avtoritar və ya diktator rejimlərdə bu etirazlara məhdudiyyət qoyulur. Cəmiyyət kəşfiyyat və təhlükəsizlik qüvvələrinin nəzarəti və təzyiqi altına idarə edilir. Sistem xalqın gözləntilərinə cavab vermədikdə bu tələbləri avtoritarlara eşitdirəcək xalqın azad iradəsi ilə seçilmiş parlament mexanizmlərinin olmaması və ya gərginlik artmaya başlayanda gərginliyi hiss edəcək və ya azaldacaq mexanizmlərin yoxluğu kiçik bir qığılcım, səbir kasasını dolduran son damla kimi anidən elə bir formada təzahür edir ki, bir anda bütün ölkə və ya dünyanı heyrətə salır. Məsələn, bir çox ölkədə çörək və ya hər hansı gündəlik tələbat mallarının qiymətinin artması kimi adi səbəblərdən meydana gələn etirazlar nəticəsində hökumətlər devrilir, rejimlər sarsılır, habelə evlər, iş yerləri, dükanlar yandırılır, dağıdılır və ya talan edilir.

Demokratik rejimlərdə xalqın azad iradəsi ilə seçilmiş parlamentlər mövcud olur. Lakin, demokratiyanın ideal formada işlədilməməsi, güclü sərmayə, lobbi və təzyiq qruplarının təkidi səbəbindən xalqın tələbləri milli iradəyə təcəssüm etməyə bilər. Bu cür hallarda aşağı təbəqədən gələn dəyişiklik istəkləri müəyyən bir limitə çatandan sonra uzlaşma yolu ilə həll edilir. Kiçik qruplar həlli olunmayan problemlərini kütləvi aksiyalarla ictimaiyyətin diqqətinə çatdırır və onlar daha geniş kütlələrdən dəstək almağa çalışırlar. Yəni, demokratik rejimlərdə küçələrdə aksiya keçirən qruplar təhlükə mənbəyi deyil. Onlar qanun çərçivəsində problemlərini həll etmək istəyən insanlardır. Əsas təhlükəli məqam insanların evlərindən çıxmamasıdır. Çünki, çölə çıxmadıqları müddətcə narazı insanların sayını, narazılıq səviyyəsi, nə fikirləşdiyini, nə istədiklərini öyrənmək də mümkün deyil. Belə hallarda problemi həll etmək də mümkün olmur. Bu səbəblərdən, demokratik rejimlərdə ictimai aksiyalar dəyişiklik tələbi və ya fikir plüralizminin tərkib hissəsi kimi qəbul olunur.

İnsanların öz sosial əlaqələrində xarakter baxımından özünə bənzəyən və ya özü kimi düşünənlərlə **həmrəy** olması, özündən fərqli olanlar ilə isə **mübarizə aparmaq** xüsusiyyəti əslində insan cəmiyyətindəki dinamizmin əsas mənbəyidir. Bunu dialektik düşüncə prizmasından qiymətləndirsək, fikir ayrılığı və ya zidd fikirlərin mübarizəsi olmadan iqtisadi, sosial və bioloji dəyişiklik, yəni təkamülün olması mümkün deyil.

Digər bir sözlə hər bir sistem daxildə özünə tərəfdar və ya müxaliflər qazanır və onların bir-biriləri ilə mübarizəsi cəmiyyətdəki ətalətin və gerilləmənin qarşısını alır. Çünki, bu gün lider kimi qəbul olunan bir qrup zəifləyib sosial, siyasi və iqtisadi inkişafda liderlik qabiliyyətini itirdiyi zaman bayrağı onu rəqibi təhvil alacaq və nəticədə bəşəriyyət müntəzəm qaydada

inkişaf edəcək. Geniş çərçivədə buna misal kimi qədim Yunan, İslam və Qərb mədəniyyətini göstərmək olar. Eyni prizmadan yanaşsaq görərik ki, dünyadakı ictimai aksiyalar əslində fərqli düşüncə, etiqad, iqtisadi və ya sosial kateqoriyadakı insanların ölkə daxilində hakim qruplar tərəfindən yaradılan mövcud sistemi gözləntilərə cavab vermədiyi üçün **radikal** və ya **islahatlar** yolu ilə dəyişdirmə tələbidir.

## 1.1 İctimai etirazların mərhələləri

**Narazılıq:** Adətən iş, əmək, bərabərlik, azadlıq, ədalət, yeni haqların əldə edilməsi və bu kimi hallar ilə əlaqədar yaranır. Lakin, bu cür problemlərə malik insanlar həll yolunu dərhal küçəyə çıxmaqda görmürlər. İlk əvvəl qanun çərçivəsində həll yolu axtarmağa başlayırlar. Həll yolları əlaqədar qurumlara yazılı (ərizə ilə) və ya şifahi qaydada bildirilir. Əgər problemləri həll edilərsə, adi həyatlarına davam edirlər. Bununla belə, təklikdə qanun çərçivəsində problemlərini həll edə bilməyən insanlar çarəsizlik, zəiflik, haqsızlıq, ruh düşkünlüyü və ya intiqam hissləri keçirməyə başlayır. Bu məqama qədər mübarizə adətən fərdi qaydada aparılır.

**Təşkilatlanma:** Problemlərinə çarə axtaran fərdlər eyni problemlərlə üzləşən digər insanlardan xəbərdar olurlar və şərtlər onları həmrəy olmağa vadar edir. Onlar “güc birlikdədir” prinsipini reallaşdırmağa başlayır. Bu həmrəyliyin kökündə rəsmi və qeyri-rəsmi qaydada vahid məqsəd ətrafında birləşmək və təşkilatlanmaq dayanır. Bununla belə, təşkilatlanmanın dərnək və ya fond çərçivəsində olması mütləq deyil. Vahid məqsəd ətrafında rəsmi təşkilat olmadan toplanma, habelə müəyyən yer və vaxtda birlikdə olmaq da təşkilatlanma kimi qəbul olunur. Çünki, bu vəziyyətdə müəyyən bir məqsəd ətrafında düşüncə və güc birliyi artıq formalaşmışdır. Onlar təşkilatlanmış qruplardan ilham alaraq eyni qaydada qanun çərçivəsində problemlərə həll yolları axtarmağa davam edirlər. Artıq bir nəfərin deyil, bir çox insanın imzaladığı ərizələr təqdim olunacaq və ya geniş lobbiçilik imkanı əldə edəcəklər. Əgər bu səylər müsbət nəticələnərsə, hər kəs adi həyatına geri qayıdacaq. Yox, əgər bu məqama qədər məhdud platformada göstərilən fərdi və kollektiv səylər problemləri həll etməsə, fərdlərdə və əhalinin narazı qrupunda yenidən çarəsizlik, zəiflik, ümidsizlik, haqsızlıq, ədalətsizlik hissləri qabarmaya başlayacaq.

**Kütləvi aksiyaya keçmə:** Əhalinin narazı qrupu problemlərinin həllində daha geniş kütlələrini dəstəyini almaq, haqsızlığa etiraz etmək, ictimaiyyət önündə hesabat tələb etmək, ictimaiyyəti məlumatlandırmaq və ictimai təzyiq yaratmaqla küçədə özlərinə tərəfdar toplamağa və mətbuat vasitəsilə daha geniş kütlələrin dəstəyini əldə etməyə cəhd edirlər. Beləcə dövlətə daha ciddi təzyiq göstərmək imkanı əldə edirlər. Bəzi qruplar aksiyada iştirak edən digər qrupların problemləri ilə üzləşmədiyi halda onların aksiyalarında iştirak etməklə və ya onları dəstəkləməklə (işçilərin keçirdiyi aksiyalara tələbələrin və ya həmkarlar ittifaqlarının dəstək verməsi kimi), əvəzində eyni dəstəyi onlardan gözləyirlər.

**Dövlət qurumları tərəfindən mövcud vəziyyətin qiymətləndirilməsi:** Küçədə aksiya keçirmə məcburiyyətində qalan narazı qrupla dövlət adətən iki formada rəftar edir. Birinci yanaşmada dövlət problemin mövcudluğunu qəbul edir, dialoq və uzlaşma vasitəsilə həll yolları tapılır. İkinci yanaşmada isə qrupun tələbləri təhlükəli hesab edilərək rədd edilir.

**Müdafiə mexanizmlərinin həyata keçirilməsi:** Dövlət təhlükə hiss etdikdə müdafiə mexanizmlərini həyata keçirərək aksiyaların qarşısını almağa çalışır. Bu məqsədlə hökumət təhlükəsizlik qüvvələri və yerli icra orqanlarının səlahiyyətlərindən, habelə qüvvədə olan qanunların tələblərindən dərhal istifadə etməklə əlaqədar qrupların aksiyalarını yatırmağa cəhd edir. Çünki, təhlükəli qruplara ediləcək güzəşt, yeni güzəşt tələblərini aktuallaşdıra bilər.

Dövlətin aksiyaları təhlükəli hesab etməsi bəzən milli təhlükəsizliklə bağlı qayğılardan, bəzən də elit qrupların öz güc və imtiyazlarını itirmək istəməməsi səbəbindən qaynaqlanır. Dövlət qurumlarının güc tətbiqi müqabilində qruplar vəziyyəti yenidən qiymətləndirməklə ya çox haqsız tələblər irəli sürdüklərini, ya da tələbləri haqlı olsa da mübariz aparmağın onlara baha başa gələcəyini düşünərək aksiyanı dayandıra bilər.

**Aidiyyəti dövlət qurumları və narazı qrup arasında qarşıdurma**: Mübarizə davam edərsə tərəflər bir-birinə qarşılıqlı ultimatum verəcəklər və nəticədə təhlükəsizlik qüvvələri ilə narazı qruplar arasında qarşıdurma yaşanacaq. Bu cür şəraitdə qrup daxilindəki fanatiklər, zorakılıq tərəfdarları və təhrikçilər passiv vəziyyətdən tədricən liderlik mövqeyinə keçməyə başlayacaq.

Həmçinin, qrup daxilində üzvlər arasında möhkəm bağlılıq, radikallaşma, gərginlik, təcavüzkarlıq, dirəniş və zorakılıq meylləri artacaq. Bunun müqabilində hökumət nümayişlərin keçirilməsinə icazə verməmək, qadağa qoymaq, güc yolu ilə qrupu dağıtmaq, liderlər və nümayişçilərin həbsi və s. metodlardan istifadə etməklə qrupu qorxuya salmağa və dağıtmağa cəhd edəcək. Bununla belə, ictimai aksiya iştirakçılarının hər birinin zorakılığa əl atacağını demək yanlış olardı, çünki zorakılığa adətən hökumətdən ümidini kəsmiş insanlar yol verir. Yeni nə isə əldə edərkən, əllərindəki mövcud imkanları da itirmək istəməyən bəzi aksiya iştirakçıları qanunlar yolu ilə təzyiq göstərməyi üstün tutur.

**Gizli fəaliyyətlər (terror):** Bu cür fəaliyyətlər dövlətin təhlükəni hiss edərək müdafiə mexanizmlərini yenidən işə salması, aksiya iştirakçılarının cəmiyyətdən təcrid edilməsi və uzlaşma yollarının qapanması nəticəsində meydana gəlir və terrorun yaranma səbəbidir.

Yuxarıdakı təsvirə fərqli sosioloji prizmadan yanaşsaq, küçə aksiyalarının cəmiyyətdəki narazılıqların səbəbi deyil, nəticəsi olduğunu demək mümkündür. Yəni, insanları küçə aksiyalarına vadar edən bəzi səbəblər və mexanizmlər var. Bu problemlər düzgün qiymətləndirilərək müvafiq qaydada həll olunarsa, küçədə aksiyaların keçirilməsinə ehtiyac qalmayacaq. Digər tərəfdən, sosial narazılıqların yaranma səbəblərini aradan qaldırmadan ictimai aksiyaların qarşısını almağa cəhd etmək adətən ictimai asayişin pozulması və vəziyyətin daha da mürəkkəbləşməsi ilə nəticələnir. Çünki, ictimai toplantıların kökündə sosial, iqtisadi və siyasi səbəblər dayanır. **Beləliklə, ictimai toplantılar səbəb deyil, nəticədir.**

Məsum tələbləri bəhanə edərək iğtişaş yaratmaq istəyən qruplar hər zaman olmuşdur. Bununla belə, bu cür qrupların mövcudluğu xalqın haqlı tələblərinin yerinə yetirilməsinə mane olmasa radikal qrupların tərəfdarları və istismar sahələri əhəmiyyətli dərəcədə azalacaq. Bu səbəbdən, demokratik cəmiyyətlərdə idarəçilərin xalqın tələblərinə düzgün yanaşması zorakılıq və iğtişaşların qarşısının alınmasında mühüm rol oynayır.

Yuxarıda qeyd olunan **"ictimai toplantıların səbəbi, nəticəsi və həll edilməsi prinsipi çərçivəsində bəs, polisin vəzifəsi nədir"** sualına cavab axtarsaq görərik ki, polis **nə ictimai toplantıların baş verməsinin səbəbkarıdır, nə də ki, problemi həll etmə öhdəliyi var**. Yəni polis ictimai aksiyaların səbəbkarı deyil. İctimai aksiyaların baş vermə səbəbi adətən sosial, iqtisadi və siyasi xarakter daşıyır. Aksiyalara həll yolları axtararkən, problemi öz mahiyyətinə uyğun həll etmək lazımdır. Yəni polisin vəzifəsi təhlükəsizliyi və ictimai asayişi təmin etməkdir. Polisin ictimai problemlərə sosial, iqtisadi və siyasi həll yolları tapmaq öhdəliyi yoxdur.

Bu baxımdan, ictimai toplantılar idarə edənlərin idarə olunanların tələblərinə laqeyd yanaşması nəticəsində baş verən **etiraz** aksiyasıdır. Aksiyaların gücü əhalinin çarəsizlik hissi ilə düz mütənasibdir. Yəni, dövlət idarəçiləri xalqın tələblərinə nə qədər **həssas** və

**düzgün** həll yolları tapa bilsə, ictimai etirazlar bir o qədər azalacaq. Bununla belə, hazırda fərqli tələblər irəli sürən qrupların hamısını məmnun etmək əksər hallarda mümkün olmur. Məsələn, ilk baxışda enerji problemini həll etmək üçün nüvə stansiyası tikmək istəyənlərin tələbləri ilə həmin stansiyaya qarşı olan ekologiya tərəfdarlarının tələbləri tamamilə bir-birinə zidd görünə bilər. Lakin, sosial tarazlıq nə qədər qorunarsa və ictimaiyyətin suallarına hansı səviyyədə cavab verilərsə, bir o qədər də etirazları tarazlaşdırmaq mümkündür. Bu cür yanaşma tərzi ola bilsin ki, əlaqədar qurumları qane etməsin, ancaq burada əsas olan ictimaiyyəti və ictimai vicdanı razı salmaqdır.  Bu yolla, marginal qrupların xalqdan dəstək almaq cəhdlərinin qarşısını almaq olar.

İctimai aksiyalarda polisin vəzifəsi ətrafa və ya polisə qarşı zorakılıq olmadığı müddətcə aksiyanın dinc və təhlükəsiz qaydada baş tutmasını təmin etməkdir. Daha geniş mənada polisin vəzifəsi nümayişçilərin təhlükəsizliyini təmin etmək, onlara kənar müdaxilənin qarşısını almaq, təhrikçilərin onları öz məqsədlərindən azdırmasına, habelə, müxalif qüvvələrin bir-biriləri ilə toqquşmasına yol verməmək və. s vəzifələrdən ibarətdir. İctimai aksiyalar baş verərkən polis zəruri tədbirlər almasa çaxnaşma yarana bilər. Bu şəraitdə nə nümayiş iştirakçıları, nə də ki, adi vətəndaşlar özlərini təhlükəsiz hiss etməyəcək.  Yəni polis konstitusiya və qüvvədə olan qanunlar çərçivəsində nümayişçilərin dinc və iğtişaşa yol vermədən aksiyalar keçirməsinin təminatçısıdır. Əgər polis yuxarıda qeyd olunan öhdəliklərindən azacıq yayınsa, dinc aksiya iştirakçıları radikal qruplar,  müxalif qüvvələr və özlərini reklam etmək istəyən terrorist qruplar tərəfindən hücuma məruz qala bilər. Bu baxımdan, bəzilərinin sanki polis demokratik hüquqlardan istifadəyə icazə vermir iddiası tamamilə yanlışdır.

Dinc ictimai aksiyaların təşkilinin təminatçısı kimi polis tez-tez aksiya iştirakçılarının hücumuna məruz qalır və ya onlar polislə əlbəyaxa olurlar. Bu cür hallar araşdırılarkən polisə hücumun səbəbini "hədəfdən yayınma" kimi qiymətləndirmək mümkündür. Qruplar aksiya keçirərkən əksər hallarda qarşılarında problemlərinin səbəbkarı olan əlaqədar qrumları deyil, polisi görürlər və neqativ enerjilərini onlara deyil, polisə yönəldirlər. Bu cür halların baş verməsində adətən təhrikçilər və ya radikal qruplar mühüm rol oynayırlar. Onların əsas məqsədi dövlətlə xalq arasında toqquşma yaratmaqla anarxiya şəraitindən istifadə edərək öz ideologiyalarını yaymaq, təşkilatlarını reklam etmək və öz məqsədləri üçün gündəm yaratmaqdır. Çünki, dövlətindən küsmüş xalqın radikal qruplara maddi-texniki, kəşfiyyat və canlı qüvvə verərək dəstək göstərməsi daha asandır. Onlar platformalarını genişlətmək üçün polisi öz oyunlarına alət edirlər. Bu halların qarşısını almaq üçün ictimai aksiyaların baş vermə səbəbləri əsaslı şəkildə təhlil olunmalı və onlara lazımı qaydada müdaxilə yolları tapılmalıdır. Polisin **qanunu qoruyan mexaniki polis** əvəzinə **barışdırıcı və ya ictimai uzlaşmanı təmin edən polis** modelini mənimsəməsi onun **legitimliyini**, yəni xalq arasında dəstəyini artıracaq. Qanuni gücdən istifadəyə zərurət yaranarsa, yalnız polisə müqavimət göstərənlər və ya zorakılıq edənlər əleyhinə ən optimal güc növündən istifadə etməklə, narazı insanların qanunsuz təşkilatların tərəfdarına və ya təcavüzkara çevrilməsinin qarşısını almaq mümkündür. Polisin əsas məqsədi narazı insanları itirmək deyil qazanmaqdır və zorakılığa sövq etməməkdir.

Yuxarıda qeyd olunanları aşağıdakı diaqram vasitəsilə izah edək:



MÜDAFİƏ MEXANİZMLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ VƏ QƏTİ TƏDBİRLƏRİN GÖRÜLMƏSİ

↓ AKSİYADAN İMTİNA VƏ YA GERİYƏ ADDIM ATMA

↓ Aksiyaların keçirilməsinə icazə verilməməsi, qadağan edilməsi, gecdən istifadə edərək dağıdılması, aksiya liderlərinin və nümayişçilərin həbs olunaraq ağır cəzaların verilməsi və s. qəti tədbirlərlə qorxutma və aksiyaları dağıtma

↓

Qrup üzvlərinin bir-birində daha sıx bağlanması, radikallaşma, gərginlik yaratma, aqressivləşmə, müqavimət və zorakılıq meyllərinin ortaya çıxması

↓

Dövlətin təhlükəni hiss etməsi və müdafiə mexanizmlərini yenidən həyata keçirməsi

↓

Aksiyaçıların daha da marginallaşması, Müvafiq dövlət qrumları ilə dialoq və uzlaşma yollarının bağlanması

↓

Gizli fəaliyyətlər və ya Terror
(Zorakılıqdan zorakılığın yaranması)

## 2. İCTİMAİ TOPLANTILARIN HAZIRLIQ MƏRHƏLƏSİ

Əslində qanunsuz ictimai toplantılar qəfil baş vermir. Qəfil baş verən hər bir hadisənin hazırlıq və formalaşma mərhələsi var. Bu mərhələ bəzən aylarla, bəzən də illərlə davam etdiyi üçün ictimaiyyətin gözündən yayına və gizlədilə bilər. Bu mərhələdən sonra əlverişli şərait yarananda və ya yaradılanda hadisələr müəyyən bir bəhanə nəticəsində qəfildən üzə çıxır və sürətlə inkişaf edir. Planlaşdırılmış və provokativ aksiyaların hazırlıq və formalaşma mərhələsinə təsir edən ən vacib faktorları aşağıda nəzərdən keçirəcəyik.

### a) Liderlik:

Kollektiv formada yaşayan insanların idarəetmə və idarə olunma hissləri olur. İdarəetmə hissi və bacarığına sahib insanların sayı azlıq təşkil edir. Bu hissə sahib olan bütün insanların da lider olması mümkün deyil. Xüsusilə cəsarəti, təsirli danışma bacarığı, sərtliyi, cəzbedici bədən quruluşu, savadı və s. şəxsi keyfiyyətləri ilə seçilən şəxslər lider ola bilər. Nəticə etibarilə, cəmiyyətdəki digər insanlardan bəzi fərqli xüsusiyyətlərə malik olan və öz üstün cəhətləri ilə qarşısındakılara təsir edə bilən şəxsləri lider adlandıra bilərik. Bu xüsusiyyətlər

və ya bacarıqlar həm anadan gəlmə, həm də sonradan əldə edilə bilər.

Qanunsuz ictimai toplantıda liderlər təsirli danışma bacarığı, cazibədar və həyəcanlı şüarları və hərəkətlər ilə narahat, əsəbi və gərgin atmosferin yaranmasına çalışırlar. Liderin məşhur və ya çox yaxşı tanınan bir şəxs olması mütləq deyil. Bəzən onların ortaya çıxışı öncədən planlaşdırılaraq təşkil edilir, bəzən də qrup daxilində özlərini dərhal ortaya atan şəxslər olur. Bu cür aksiyalarda liderlər adətən intriqa yaradır, sadəlövh, gənc və tez təsir altına düşən şəxsləri aksiyaya cəlb edilər.

### b) Hədə qorxu gəlmə və təkəbbür mərhələsi:

İnsanlar təklikdə və ya bir neçə nəfərdən ibarət qrup halında olarkən daha məntiqli düşünür və daha rasional qərarlar verə bilir. Eyni qaydada, onların cəsarəti və davranışları da adi insanların cəsarət potensialı qədərdir. Amma, insanlar kütlə içərisində say baxımından üstünlük əldə edir, təbiətən özünü güclü hiss edir, cəsarətlənir və buna paralel olaraq davranışlarda da sərbəstləşir. Həmçinin emosiya, düşüncə və qərar vermə bacarığı da eyni ölçüdə mürəkkəb və mücərrəd bir istiqamətə yönəlir. Təklikdə etiraz edə bilməyən şəxslər qrup halında ikən, yuxarıda qısa şəkildə izah edilən xüsusiyyətlərin də təsiri ilə bir-birilərindən ilham alaraq özlərini daha qüvvətli hiss etməyə başlayır.

Beləcə, lovğalanmaya, hədə qorxu gəlməyə, qudurğanlığa, qısası dava çıxarmaya hazır olurlar. Məsələn, polisin yolda tək başına gedən bir vətəndaşı haqlı səbəbdən xəbərdarlıq etməsi müqabilində həmin şəxsin davranışı ilə futbol oyununda yenə haqlı səbəbdən xəbərdar edilən, lakin öz dostları və ya ən azından geniş azarkeş qrupu arasında olan şəxsin davranışı çox fərqlidir. Yəni, birinci hadisədə şəxs daha sakit, məntiqli və təmkinlidir, ikincisində isə üsyankardır. O, çevrəsindən aldığı dəstəklə həm özü, həm də oradakı qrup qudurğanlıq edə bilər. Hədə qorxu gəlmə mərhələsinin polis üçün əhəmiyyəti; bu vəziyyətə düşmüş qruplar qanunsuz aksiyalar üçün mühüm resursdur və polis şəraitdən asılı olaraq onlara nəzarət etməsə, qanunsuz hərəkətlər daha da kəskinləşə və inkişaf edə bilər.

### c) Kütlənin böyüməsi:

Qanunsuz ictimai toplantının öz məqsədinə çatması üçün əvvəlcədən öyrədilmiş şəxslər, habelə təhrikçilər aksiyanın başlayacağına, hətta başlamağa az qaldığına dair şayiələr yaymaya başlayır. Bu mövzuda oradakı şəxslər arasında müxtəlif şayiələr və şərhlərin diskussiyası başlayır. Onların əksəriyyəti məntiqi düşünmür və həyəcanlıdır. Bu vəziyyətdən istifadə edən öyrədilmiş şəxslər özlərinə tərəfdar toplamağa çalışır. Halbuki, kütlənin əksəriyyətinin əslində pis niyyəti yoxdur. Buraya gələrkən onlar ola bilsin ki, üsyankar bir aksiyaya qatılmaq barədə düşünməyiblər, sadəcə olaraq maraqdan və ya əylənmək, vaxt keçirmək üçün gəliblər.

Təhrikçilər bu tip insanları həyəcanlandıraraq aksiyaya cəlb etməyə çalışır. Beləcə, qələbəlik tədricən artır, qələbəliyin sayı artdıqca şayiələr yayılır, həyəcan artır və artıq kütlə şüursuzlaşır (azğınlaşır). Beləliklə, cəsarətlənən kütlə təhlükəyə çevrilir, qanunsuz əməllərə yönəlmə cürəti artır. Polis kütlələrin bu cür tədrici inkişafına mane olmalıdır.

### ç) Düşüncə (ideologiya) formalaşdırma mərhələsi:

Bu mərhələyə gələnə qədər kütlə artıq müəyyən bir həyəcan dalğasına yönləndirilir. Əslində kimin nə dediyi, nə demək istədiyi tam anlaşılmır. Müxtəlif şayiələr dolaşır və kütlə hər cür zorakılığa əl atma cürətinə yaxınlaşır. Məhz bu düşüncə formalaşdırma mərhələsində öyrədilmiş təhrikçilər şayiələri mümkün olduğu qədər yaymağa, genişləndirməyə, bütün kütləyə şamil etməyə çalışırlar. Beləcə kütlənin emosionallığını, nəfsi arzularını təşviq edirlər.

**d) Sürətləndirici məqam:**

Yuxarıda yığcam şəkildə izah olunan mərhələlərə nəzər salsaq qısası, dalğalı dənizdə sükanı əlində saxlamağa çalışan bir və ya birdən çox liderin rəhbərliyi altında sayları tədricən artan və bundan cəsarətlənərək hədə qorxu gələn, tədricən böyüyərək hər cürə zorakılığa cürət etməyə və emosionallaşaraq müəyyən bir ideoloji səviyyəyə gəlməyə başlayan kütlə ilə tanış olmuşduq. Məhz bu hal və şəraitdəki kütlə üçün ən kiçik səhv, hətta çox önəmsiz görünən hər hansı bir hadisə sürətləndirici səbəb ola bilər. Həmin səbəblərin nədən ibarət olduğunu əvvəlcədən demək çox çətindir. Onlar hadisələrin gedişi ərzində təsadüfən ortaya çıxaraq səbir kasasını daşıran son damla və ya hadisələrin başlaması üçün qığılcım da ola bilər.

**e) Nəzarətdən çıxmış zorakılıq mərhələsi:**

Bundan əvvəlki maddədə qeyd olunanların timsalında səbir kasasını daşıran son damla səbəbindən ictimai toplantılarda kütlə istər məntiq, istər emosional, istərsə də miqdar və fiziki baxımdan artıq sözün əsl mənasında və tamamilə şüursuzlaşır, yəni nəzarətdən çıxmır. Bu mərhələdə zorakılıq hərəkətləri çığ kimi nəzarətdən çıxır.

**ə) Zorakı hərəkətlərinin yayılması:**

Kütləvi hərəkətin şiddəti artaraq nəzarətdən çıxdıqca zorakı hərəkətlər də vahid məqsəddən uzaqlaşaraq şaxələnir və ümumiləşir. Məsələn, bir işçinin mitinqində öz problemləri və hədəfləri ilə qətiyyən aidiyyəti olmayan özəl və ya dövlət mülklərinə, dükanlara hücum edərək dağıtması hədəfdən kənar zorakılıq hərəkətlərinin yayılmasına əyani sübutdur.

## 3. İCTİMAİ TOPLANTILARIN BAŞLANMA METODLARI

Qanunsuz ictimai toplantıların başlanma metodlarını əsasən aşağıdakı başlıqlar üzrə nəzərdən keçirməyə çalışacağıq.

**a) Təbliğat aparmaq:**

Təbliğata müəyyən bir mövzunu başqalarına çatdıraraq, mənimsətmək və onların marağını bu mövzuya cəlb etmək kimi tərif verə bilərik. Qanunsuz toplantı ərəfəsində (və ya daha öncə) qarşıya qoyulan məqsəd çərçivəsində yazılı və şifahi formada təbliğat aparılır. Bu təbliğatın mümkün olduğu qədər geniş kütlələrə xitab etməsinə, daimi və təsirli olmasına xüsusi diqqət ayrılır. Bu yolla planlanan aksiyanın toxumları cücərir, beyinlərə ideologiya yeridilərək, təkmilləşdirilir. Nəticədə, istənilən istiqamətə asanlıqla yönləndirilə bilən kütlə formalaşır.

**b) Hərarətli çıxışlar:**

Xüsusilə lider adlandırdığımız şəxslər və ya təsirli nitq qabiliyyətinə malik eyni məqsədə xidmət edən digər şəxslər təhrik etmək istədikləri şəxslər, qrup və kütlələr qarşısında hərarətli çıxışlar edərək onlara təsir etməyə çalışır. Onların çıxışları adətən kütlənin arzularına və gözləntilərinə uyğun gəlir. Əvvəlcədən təbliğat aparmaqla qismən və ya tamamilə şərtləndirilmiş, təsirlənmiş kütlə bu cür çıxışların təsiri altında istənilən hadisəyə sövq edilməyə hazır olur.

**c) Həyəcanı artırmaq:**

Təmkinli insanlar daha məntiqli və şüurlu düşünür, daha tutarlı addımlar atırlar. Onlardan fərqli olaraq həyəcanlı insanların davranışları və düşüncələri nisbətən şüursuz və tutarsızdır. Qısası, onların düşüncə və davranışları ziqzaq formasındadır. Ümumilikdə bu xüsusiyyətlərə malik olduqları üçün təbliğat yolu ilə asılılığı artan, məqsədli çıxışlarla müəyyən bir səviyyəyə

gətirilən kütləni aksiya idarəçiləri həyəcanlandırmağa və tamamilə şüursuzlaşdırmağa çalışır. Bu məqsədə nail olmaq üçün şişirdilmiş yalan xəbərlər, şüarlar ortaya atıla bilər. Çünki, bu vəziyyətdəki kütləni aldatmaq artıq xeyli asanlaşır. Hər şeyə aldanan kütlədə tədricən məntiqi düşüncə azalır, əvəzində həyəcan artır.

**ç) Kütləvi iğtişaşa çevrilmə:**

Yuxarıdakı bölmələrdə xülasə formasında təsvir olunan kütlənin artıq iğtişaş yaratması üçün kiçik bir qığılcım kifayət edir. Aksiya keçirməyi planlaşdıran şəxslərdən birinin qəsdən etdiyi ilkin başlama hərəkəti oradakı kütləni hərəkətə gətirir və beləcə aksiya başlayır.

## 4. TOPLANTI İŞTİRAKÇILARININ TAKTİKİ HƏRƏKƏTLƏRİ

Qanunsuz kütləvi toplantıları başladan və keçirən qruplar məqsədlərinə nail olmaq və ya toplantını mümkün qədər təsirli etmək üçün onlara müdaxilə edən polis əleyhinə aşağıdakı bəzi taktikalardan istifadə edirlər;

**a) Diqqətləri başqa istiqamətə çəkmək:**

Qanunsuz ictimai toplantı keçirənlər əsl hədəflərinə nail olmaq üçün polisi çaşdırmağa və onların diqqətini başqa istiqamətə çəkməyə cəhd edə bilərlər. Məsələn, toplantıların keçirilmədiyi ərazilərdə bomba partlatmaq və buna bənzər təlaş yaradan hadisələr törətməklə polisin diqqətini əsas toplantı məkanından həmin yerlərə yönəltməyə cəhd edirlər. Əgər onlar buna nail olsalar, əsl hədəflərinə daha rahat çatacaqlar.

**b) Dağılmış kimi görünüb təkrar toplanma**

Bu sahədə istifadə olunan digər bir taktika da dağılmış kimi görünüb yenidən toplanmaqdır. Qrupun dağılışdığını görən polis arxayınlaşır və alınan tədbirlər və texnikanın sayı azaldılır. Bu məqamda qrup plana uyğun olaraq sürətli bir şəkildə toplanmaya başlayır. Burada məqsəd polisi qəfil yaxalayaraq, hədəfə doğru irəliləməkdir.

**c) Böyük bayraqlarla və marşlarla yürüyüş**

Bayraq hər bir ölkənin azadlıq, hürriyyət və müstəqillik rəmzi olduğu üçün müqəddəsdir. Həmçinin, müxtəlif mərasim bayraqları da milli bayraqlar kimi dəyərli mənaya malikdir. Qanunsuz toplantı keçirənlər bu dəyərli (müqəddəs) vasitələrdən istifadə edərək həm ətrafdakıların rəğbətini qazanmağa, həm də Polisin müqavimətini qırmağa çalışırlar. Bayraq daşımaqla, hətta milli və qəhrəmanlıq marşları oxumaqla elə bir təəssürat yaratmağa cəhd edirlər, guya onların pis məqsədi yoxdur.

**ç) Yaşlı, qadın, uşaq, qazi (veteranlar) və əlillərin kütlənin qabağına verilməsi**

Qanunsuz toplantı keçirənlər qrupun ətrafına yaşlı, qadın, uşaq və qaziləri düzə bilər. Polisin onlara qarşı güc tətbiq etməyəcəyini bildikləri üçün, qismən də olsa polisin müqavimətini və ya hərəkətlərini məhdudlaşdırmağa çalışırlar. Digər tərəfdən, əgər müdaxilə olarsa, xüsusilə onlara rəğbət göstərən media vasitəsilə polis əməkdaşlarını utandıraraq, xalqın gözündən salmağa və ya ikrah doğuracaq şəkil və film görüntüləri yaxalamağa çalışırlar. Məqsədləri nə bahasına olursa olsun öz hədəflərinə doğru irəliləməkdir.

**d) Qrupun polisi mühasirəyə alması:**

Digər bir taktika növü isə qrupun müəyyən bir hissəsinin polisi mühasirəyə almasıdır. Məqsəd polisin manevr qabiliyyətini azaldaraq neytrallaşdırmaq və qrupun əsas hissəsinin hədəflənən aksiyanı keçirməsinə şərait yaratmaqdır.

## 5. KÜTLƏNİN HƏRƏKƏT NÖVLƏRİ

Hərəkət növlərinin sayını dəqiq demək mümkün deyil. Çünki, vaxt, şərait, məkan, imkan və digər amillər baxımından qrupun aksiya keçirmə imkan və qabiliyyətləri müxtəlif ola bilər. Aşağıda ən çox rast gəlinən hərəkət növlərinin xülasəsinə nəzər salınacaq.

**a) Təhqir etmə:** Qanunsuz ictimai toplantılarda aksiyanı keçirənlər, aksiyaya sövq edənlər, həmçinin kütlə daxilindəki digər şəxslər polisin şərəf, mənlik və namusunu alçaldan söz və hərəkətlərdən istifadə edə bilər. Məqsədləri qısa desək, hadisələri qızışdırmaq, təşviş yaratmaq və polisi ruhdan salmaqdır. Bundan əlavə, polisi gücdən istifadəyə sövq etməklə, özlərini ictimaiyyətə məzlum kimi göstərmək istəyə bilərlər. Burada vacib olan məqam polisin bu cür taktikalara qarşı hazırlıqlı və müdaxilə etmə gücünün olmasıdır.

**b) Şifahi və yazılı təhrik vasitələri:** Yazılı təhrik vasitələrinə bəyanat, broşur, qəzet, jurnal və s. aiddir. Şifahi təhrik vasitələri isə meqafon və s. səs gücləndirici alətlərdən ibarətdir. Qanunsuz toplantı keçirənlər yuxarıda qeyd olunan bu cür vasitələrlə polisi mümkün olduğu qədər iğtişaşa cəlb etmək, təhrik etmək istəyirlər. Onlar yaxşı başa düşürlər ki, təhrikin olduğu yerdə məntiq azalır, soyuqqanlılıq itir və nəticədə arzuladıqları səthi hərəkətlər ön plana çıxır.

**c) Partlayıcı maddə və silahlardan istifadə etmə:** Qanunsuz ictimai toplantılarda təşviş yaratmaq, həmçinin insanların əmlakına və sağlamlığına ziyan vurmaq üçün müxtəlif kimyəvi və partlayıcı maddələrdən istifadə edilə bilər. Polis əməkdaşlarını təhrik etmək və aksiyalara davam etmək üçün pomidor, yumurta, daş və s. maddələrin polisə atılması hallarına bu cür qanunsuz ictimai toplantılarda tez-tez rast gəlinir. Bəzi aksiya iştirakçıları öncədən hazırlıq görərək bu maddələri özləri ilə gətirirlər və ya planlaşdırılmış bir yerdə saxlayıb hadisə vaxtı istifadə edə bilər.

Digər hərəkət forması isə yüngül əl silahları adlandırılan dəyənək və zəncir kimi yaralayıcı alətlərdən istifadədir. Odlu silahlardan əsasən üsyan, qiyam kimi hadisələrdə istifadə olunur.

**ç) Əmlaka ziyan vurma və talan etmə:** Qanunsuz ictimai toplantının digər aksiya növlərindən biri də əmlaka ziyan vurma və talan etmədir. Burada məqsəd ictimaiyyəti mümkün olduğu qədər narahat etməkdir. Heç bir günahı və əlaqəsi olmayan məsum vətəndaşlara, həmçinin dövlətə məxsus bina, əşya və digər mallara dəyən zərər başda dövlət olmaqla vətəndaşları da məyus edir. Bu cür hərəkətlərə xüsusilə kütlənin bərk həyəcanlandığı, azğınlaşdığı vaxtlarda yol verilir. Bundan əlavə, talandan faydalanmaq istəyən bəzi fürsətçilər də ola bilər. Onlar kütləni talana sövq edə bilər.

## 6. İCTİMAİ TOPLANTILAR ZAMANI TƏLAŞ

Təlaş-qorxu və məlumatsızlığın səbəb olduğu şüursuz (kor-təbii) hərəkətdir. Təhlükəsiz bir yerə özünü çatdırmaq üçün kəskin qorxu və həyəcanın təsiri ilə baş verən kor-təbii hərəkətlərdir. Təlaş fərdi və kollektiv qaydada baş verə bilər.

Zəlzələ, yanğın, sel kimi təbii fəlakətlər zamanı binaların yıxılması və ya yıxılması qorxusu, yanğın zamanı alovların kütləni mühasirəyə alması, kütlə daxilində atılan partlayıcı maddələr, qapalı yerdə kütləyə yanğın və ya bomba xəbərdarlığının edilməsi qrupun təşvişə düşməsinə səbəb olur. Belə hallarda fərdlər öz canlarını xilas etmə təlaşına düşdüyü üçün, hər kəs müxtəlif istiqamətlərə qaçmaya başlayır və onlar arasında əzilənlər olur. Çünki, təşvişə düşmüş qrupda şəxslər ancaq özlərini fikirləşir. Bu səbəbdən, qaçarkən yıxılanların bir daha ayağa

qalxma şansı olmur. Yeri gəlmişkən, belə hallarda başqalarının fərdə, fərdin isə başqalarına zərər vermə ehtimalı çox yüksəkdir. Təşviş davam etdiyi müddətdə mal və can itkisi artır. Kütləyə nəzarət edərkən təlaş faktoru daim nəzərə alınmalıdır. Təlaş təhlükəsizliyi təmin edərkən yol verilən məntiqsiz və ağılsız davranışın səbəb olduğu qorxudan yaranır və sürətli şəkildə yayılır. Təlaş zamanı edilən hərəkətlər insanların öz həyatları ilə yanaşı digərinin də həyatını təhlükəyə atacaq qədər ağlasığmaz həddə çatır.

Təlaş fərdlərin əzilmə, tapdalanma, yaralanma və hətta ölümünə səbəb olduğu üçün təhlükəsizlik qüvvələri belə hallara qarşı çox diqqətli olmalıdır. Təhlükəsizlik xidmətinin hər bir işçisi aşağıda qeyd olunan təlaşa düşmə səbəblərini, təlaş zamanı ortaq davranış formalarını və təlaşın qarşısını alma metodlarını bilməlidir.

**a) Təlaşın səbəbləri:**

a) Fərd *təhlükənin xeyli yaxınlaşdığını hiss etdiyi* anda təlaşa düşür və ən çox istifadə olunan davranış formasına- qaçmaya çalışır. İnsanlar əvvəlki təcrübələrə əsaslanaraq üzləşdikləri vəziyyətin “təlaş yaradan” vəziyyət olduğunu dərk edib təhlükəni hiss edə bilər.

b) *Təhlükənin çox yaxınlaşdığı və dərhal qaçışın tələb olunduğu anlar,* həmçinin qaçış yollarının bir hissəsi və ya hamısının tutulması, istifadə edilən məhdud saydakı qaçış yollarının dolması və ya sıxlaşması da təlaşa səbəb olur.

c) Qabaqda gedən şəxslər *qapanmış qaçış yollarının açıq olduğunu zənn edərsə* təlaş qaçılmaz olacaq. Arxadan gələn şəxslərin qapanmış çıxış yolu tərəfə istiqamətlənməsi qabaqdakıların əzilməsinə, boğulmasına və ya tapdanmasına səbəb olur. Qısası, qabaq və arxadakılar arasında əlaqənin kəsilməsi də təlaşın yaranmasına səbəb olur.

d) Fərdin xeyli sıxlaşmış bir kütlədən canını qurtarması çox çətindir. Bu cür hallarda sıxlaşmanın gücündən asılı olaraq kütlə daxilindəki bir çox insan əzilə və ya ağır yaralana bilər.

Kütlənin təlaş anında necə hərəkət edəcəyini təxmin etmək çətin olsa da, bəzi ortaq davranışları ehtimal etmək olar. Təlaşa düşənlərin təlaşdan dolayı aşağıdakı ortaq xüsusiyyətləri var:

a) *Sağ qalmaq arzusu:* İnsanlar təlaş anında ilk öncə öz canlarını qurtarmağa çalışır. Bu instinktlə təhlükəsiz hesab etdikləri yerə yönəlirlər.

b) *Liderə itaət:* Səsi ən çox çıxan insana və onun dediklərinə qulaq asırlar. Verilən təlimatlara əsasən tənqidlərə yol vermirlər.

c) *Qrupa uyğunlaşma:* Fərdlər ilk hərəkət edənin və ya ətrafdakıların hərəkət etdiyi istiqamətə doğru yönələrək onların arxasınca gedirlər. Bu eyni zamanda kollektiv davranışın bir xüsusiyyətidir. İstənilən halda fərdin kütlənin əksi istiqamətdə getməsi mümkün deyil.

d) *Kor-təbii hərəkət etmə:* Təlaşa düşənlər canlarının dərdindən ayaqlarının altında qalanlar haqqında düşünmür, düşünsələr belə, ilk öncə öz canlarını qurtarmağa çalışır. Onlar təlaşa düşərək sel kimi sürətli hərəkət edirlər.

**b) Təlaşın qarşısını alma:**

a) Təlaşın qarşısını almaq üçün ilk öncə kütləni maarifləndirmək lazımdır. Bu yolla əgər həqiqətən bir təhlükə yoxdursa, kütləni buna inandırmaq olar. Əgər təhlükə varsa, onun mahiyyəti barədə kütlə məlumatlandırılarsa təlaşın yaranma ehtimalı azalar və ya yox olar. Bu səbəbdən kütlə ilə daim əlaqədə olmaq lazımdır.

b) Təlaşın qarşısını almaq üçün görüləcək digər vacib tədbirlərdən biri də kütlənin asanlıqla çıxa biləcəyi qaçış yollarını müəyyən etmək və bu yolları daim açıq saxlamaqdır. Həmin qaçış yolları kütləyə səs artırıcı cihazlarla və ya qışqıraraq bildirilməli və bütün imkandan istifadə edərək aydın şəkildə izah edilməlidir.

c) Hər hansı qrupa qarşı gücdən istifadə zərurəti yaranarsa, bu təlaşa yol vermədən kütləni dağılışmağa vadar edəcək tərzdə edilməlidir. Kütlənin dağılışdıqdan sonra gücdən istifadə dayandırılmalıdır. Bundan əlavə, kütlənin gücdən istifadənin forması və istiqaməti haqqında məlumatlandırılması təlaşın qarşısını əhəmiyyətli dərəcədə alır.

d) Təlaşın qarşısını alma yollarından biri də kütlə daxilinə güclü qışqırma bacarığına malik təhlükəsizlik işçilərinin yerləşdirilməsidir. Bu səbəbdən, kütlə daxilində kütləyə yol göstərən digər səs paylayıcı cihazlardan istifadə dayandırılmalıdır. Bu metodla təlaşa düşmüş insanların sadəcə onlara yol göstərən təhlükəsizlik qüvvələrinin səsinə qulaq asması təmin edilməlidir.

İstənilən halda, təlaşa düşmüş kütləyə yol göstərmək çox çətindir. Bununla belə, təhlükəsizlik qüvvələri səs artırıcı cihazlarla və ya qışqıraraq kütləni sakitləşdirməyə, təlaşın qarşısını almağa səy göstərməlidir.  Çünki, peşəkar bir təhlükəsizlik xidməti özündə potensial təhlükələri bilən və qabaqlayıcı tədbirlər alan xidmətləri ehtiva etməlidir.

## 7. İCTİMAİ TOPLANTILARA MÜDAXİLƏ ÜZRƏ ÜMUMİ QAYDALAR

Keçmişdə olduğu kimi, hal-hazırda da insanlar etiraz bildirmək üçün kütləvi aksiyalar keçirməyi üstün tuturlar. Bu cür aksiyalar insanların narazı olduğu müddətdə  davam edəcəkdir. Xalqın bütün təbəqələrinin ehtiyaclarını ictimai etiraza səbəb olmadan ödəyə bilən siyasi və iqtisadi sistem mövcud deyil. Hər bir sistem əhalinin qismən və ya geniş narazılığına səbəb olur. Nəticədə, bəzi qruplar hərdənbir küçələrə axışaraq kütləvi aksiyalarda iştirak edirlər.  Qısası; kütləvi etirazın olmadığı bir cəmiyyəti təsəvvür etmək çox çətindir. İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi ilə Avropa İnsan Hüquqları Konvensiyalarında əsas hüquq və azadlıqlara bağlı qaydalar müəyyən edilmişdir. Hər kəs əsas insan hüquq və azadlıqlarından faydalanmalıdır. Müasir cəmiyyətlərdə öz öhdəliklərini dərk edən fərdlərin öz  öhdəliklərini yerinə yetirməyən şəxsləri və idarəçiləri ümumbəşəri və demokratik dəyərlər çərçivəsində xəbərdarlıq etmə haqqına sahib olduğunu hər kəs qəbul edir. Bu çərçivədə ədalət axtarışı, ədalət tələb etmə və kütləvi halda etiraz etmə demokratiyanın vacib şərtlərindəndir.

Müasir dövlətin öhdəliklərindən biri də fərdin sadalanan hüquqlardan istifadə edə bilməsi üçün şərait yaratmaq, həm bu hüquqlarından istifadə nəticəsində, həm də bu hüquqlarından istifadə edərkən digər şəxslərə zərər dəyməməsi üçün tədbirlər görməkdir.

Kütlənin olduğu yerdə polisin vəzifəsi həm ictimai asayişi qorumaq, həm də aksiya iştirakçılarının təhlükəsizliyini təmin etməkdir. Polis bu vəzifələrini yerinə yetirərkən dağılışmaları tələb olunan kütlə müqavimət göstərərsə, polisə hücum etməyə cəhd edərsə və ya hücuma keçərsə bu hərəkətlərin qarşısını almaq üçün gücdən istifadə etmək hüququna malikdir. Bununla belə, gücdən "son çarə kimi", "mütənasib qaydada", "minimum səviyyədə" prinsiplərinə uyğun istifadə edilməlidir.

Polisin kütləyə nəzarət etmək üçün istifadə etdiyi taktikalar kütlənin aksiya zamanı hərəkətlərinə də təsir edir. Polisin kütləyə tez-tez müdaxilə etməsi və ya sanki müdaxilə edəcəkmiş kimi davranması nümayişçilərin öz problemlərini səsləndirməsinə imkan vermir. Bu da onlarda polis haqqında mənfi ab-hava yaranmasına səbəb olur.  Belə bir vəziyyət təhrikçilərə manevr üçün əlverişli zəmin yaradır. Bu səbəbdən, polis ictimai toplantılarda taktika istifadə edərkən çox diqqətli olmalıdır, kütlədə qanun çərçivəsində keçiriləcək

aksiyalara hörmətlə yanaşacaqları təəssüratı yaratmalıdır.

Bəzi aksiyalar icazəsiz olduğu üçün qanunsuz hesab olunsa belə, ictimaiyyətdən dəstək görməsi, habelə cəmiyyətin əxlaqına, sağlamlığına və təhlükəsizliyinə zərər vurmaması səbəbindən legitim ola bilər. Bu cür hallarda polis **qanunauyğunluq və ədalət hissi** arasındakı həssas tarazlığı düzgün seçməlidir. Məsələn, məhəllələrində baş verən qəzalar səbəbindən ölümlə nəticələn hadisələrə etiraz əlaməti olaraq yolu bağlayan və yol üstü körpünün tikilməsi üçün aksiya keçirən nümayişçilər qanuna zidd davranırlar. Lakin, onların arqumentləri və irəli sürdükləri tələblər ictimai təhlükəsizliyə xələl gətirmədiyi üçün bu qrupu gücdən istifadə edərək dağıtmaq əvəzinə onları əməllərindən daşınmağa razı salıb, aksiyaya son qoymaqla polis xalq arasındakı prestijini artıra bilər.

**a) Dialoq qurma:** Təhlükəsizlik qüvvələri qarmaqarışıqlıq ilə üzləşərsə, ilk əvvəl qarmaqarışıqlığı təşkil edənlərlə müxtəlif yollardan dialoq qurmalıdır. Belə ki, kütlənin lideri və ya aksiyada iştirak edənlərlə effektiv şəkildə dialoqun qurulması əksər hallarda gücdən istifadə etmədən vəziyyəti nəzarət altına almağa imkan verir. Adətən təhlükəsizlik qüvvələrinə hücum etmək üçün istifadə olunan materiallara (qalın bayraq dəyənəyi, bol mismarlı bayraq dəyənəyi və s.) əl atılmaması və aksiyalarda qanunsuz şüarların səsləndirilməməsi üzrə aparılan qarşılıqlı dialoqlar müsbət nəticələnir. Bu səbəbdən, hər hansı qarmaqarışıqlıq ilə üzləşdiyiniz zaman mütləq onu təşkil edənlərlə dialoq qurulmalıdır.

Dialoq zamanı təşkilatçılara açıq şəkildə izah edilir ki, polisin aksiya məkanındakı mövcudluğunun səbəbi izdihamdan sui-istifadə edərək öz təşkilatları adından sensasiyalı iğtişaşlar törətmək istəyən təhrikçilərin və radikal qrupların potensial hücumları əleyhinə kütlənin təhlükəsizliyini təmin etməkdir. Yəni, onlara aydın şəkildə bildirilir ki, polisin əsas məqsədi aksiyanın keçirilməsinə mane olmaq və ya nümayişçilərlə qarşı gəlmək deyil, nümayişin dinc şəkildə təşkili üçün lazımı tədbirlər görməkdir. Bu baxımdan, təşkilatçılara kütləni nəzarət altında saxlamağın, polis və nümayişçilər arasında qarşıdurmaya səbəb olacaq gərginliyə yol verməməyin vacibliyi bildirilir, beləcə təşkilatçılarla polis arasında ümumi razılıq əldə edilir.

Bununla yanaşı, liderlərin kütləni nəzarət altında saxlama bacarığının, kütlənin məqsədi, kütlənin dava-dalaş və ya çaxnaşma yaratma, qanunu pozma niyyətinin olub-olmadığı, həmçinin polislərin sayının kifayət edib-etmədiyi araşdırılmalı və qiymətləndirilməlidir. Kütlənin liderləri ilə dialoq qurmaqla onların niyyətini öncədən müəyyənləşdirmək mümkündür. Həmçinin, liderlərə təzyiq göstərməklə polis kütləni istədiyi tərəfə istiqamətləndirə bilər. Bunu birbaşa (aksiyanın keçiriləcəyi məkana girişin qadağan edilməsi) və dolayı (polisin nəzarətindəki alternativ bir məkanın təklif olunması) yolla etmək mümkündür.

Dialoq nəticəsində əldə olunan qarşılıqlı razılıq kütlənin növbəti addımını müəyyən etməyə imkan verdiyi üçün polislər yeni taktika və planlarla lazımı tədbirlər görə, polislərin sayı azaldıla və ya artırıla bilər. Bununla belə, hər ehtimala qarşı liderlərin kütləyə nəzarət etmə bacarığı ilə kütlənin iğtişaş yaratmaq və qanunsuz hədəflərə yönəlmə istəyi müntəzəm qaydada nəzarətdə saxlanılmalıdır.

**b) Razı salmaq və inandırmaq:** Kütləvi toplantılarda nümayişçilərin riayət etməli olduğu bəzi qanun və qaydalar mövcuddur. Toplantı zamanı polislər həmin qanun və qaydaları kütləyə açıqlamalıdır. Bu qaydalar adətən nümayişçilərin bəzi hərəkətlərinə qadağalar qoyur. Digər tərəfdən, əksər hallarda insanlarda qadağalara qarşı antipatiya olur və onları pozmağa meyl edirlər. Nümayişçilərin etmək istədiyi hərəkət müqabilində “Etməyin!, Qanuna ziddir” və ya “Cəzası bu qədərdir!!” kimi qəti əmrlərin verilməsi vəziyyəti daha da gərginləşdirə bilər.

İstifadə olunan ifadələr kütlədə elə bir təəssürat yaratmalıdır ki, onlar bu ifadələri əmr

və qadağa kimi deyil, əksinə öz təhlükəsizlikləri üçün tələb olunduğunu dərk etsinlər. Fərdə izah edilməlidir ki, o, öz sağlamlığına və ya təhlükəsizliyinə əhəmiyyət verməyə bilər, lakin etdiyi hərəkət sadəcə özü üçün deyil, başqaları üçün də təhlükəlidir və narahatlıq doğurur. Bu formada işlədilən ifadələr insanlarda qadağalara qarşı kəskin həssaslıq və etirazın qarşısını ala bilər.

Bəzi hallarda açıqlamaya fürsət olmaya və ya müəyyən səbəblərdən ümumiyyətlə heç bir açıqlama verilməməsi tələb oluna bilər. Bu kimi hallarda belə nümayişçilərə qısa və konkret ifadələrlə "bəzi səbəblərdən hələlik bir açıqlama verilməyəcək" formasında vəziyyət izah oluna bilər. Açıqlama fürsətinin olmamasını bəhanə edərək heç bir açıqlamanın verilməməsi bəzən vəziyyəti daha da pisləşdirir, nəticədə polis daha çox vaxt və enerji sərf edir. Bəzi hallar istisna olmaqla, çox vaxt vətəndaşa müvafiq qaydada və tərzdə açıqlamaların verilməsi, habelə məlumatlandırılması lüzumsuz mübahisə və gərginliyin qarşısını alır. Nümayişçilərə qaydalara riayət etməyin onların xeyrinə olacağı, bunun qadağa və ya məhdudlaşdırma olmadığı qısaca xatırladılarsa, əksər nümayişçilər müqavimət göstərməyəcək.

**c) Təşəbbüs göstərmə:** Bəzən "təşəbbüs göstərmə" yanlış anlaşılır. Təşəbbüs göstərmə cinayət törədənləri cəzasız qoymaq və cinayətə göz yummaq demək deyil. Əksinə, təşəbbüs göstərmə-qrupun ümumi mənafelərinə uyğun olaraq bəzi aqressiv hərəkət və davranışlarının məhdudlaşdırılması və ya qarşısının alınması cəhdidir.

Nümayişçilərin hərəkətləri qrupun ümumi asayişinə və ya təhlükəsizliyinə xələl gətirmədiyi müddətcə, kiçik miqyaslı xuliqanlıqlara göz yumulmalı və məcburiyyət yaranmasa müdaxilə edilməməlidir. Polis özünə "müdaxilə etməliyəm, yoxsa etməməliyəm?" sualını verməlidir. Əgər müdaxilənin edilməməsi nəticəsində vəziyyət daha də gərginləşəcəksə və nəzarətdən çıxacaqsa təbii ki, polis müdaxilə etməlidir. Ancaq burada biz, on min tamaşaçıdan sadəcə 50-60 nəfərin meydana və təhlükəsizlik qüvvələrinə müxtəlif maddələr atır deyə dərhal onları yaxalamağa və bütün kütləni dağıtmağa cəhd etməyin əksər hallarda hadisələrin daha da böyüməsinə səbəb olacağını izah etməyə çalışırıq.

Bu davranış təhrikçilər tərəfindən sui-istifadə nəticəsində kütlədə həmrəylik ruhu yarada bilər, eyni zamanda kütlənin təhlükəsizlik qüvvələrinə kollektiv müqavimət göstərməsinə səbəb ola bilər. Kütlə adətən yaxalanan şəxslərin qanunsuz hərəkət etməsi səbəbindən yaxalandığını bilmədiyi üçün, polisin onları qorxutmağa çalışdığını düşünərək onlara sahib çıxmağa cəhd edə bilər.

**ç) Çəkindirmə:** İğtişaş yaratmaqda qərarlı olan şəxslərin və qrupların öz niyyətlərindən və qərarlarından əl çəkməsi üçün tətbiq edilən taktikadır. Burada vacib olan cinayət törətməyə qərarlı olan şəxsi və ya qrupu bu əməldən çəkindirməyə çalışmaqdır. Bunu da ya güc tətbiqi, ya da fikrindən daşındırmağa məcbur etmə taktikası ilə etmək mümkündür. Məsələn, fərdi qaydada hadisə törədən cinayətkarın etdiyi hərəkətin qanuna zidd olduğuna inandırılması və ya müqəssirin girov götürdüyü şəxsləri azad etməyə inandırılması üçün tətbiq edilən taktika.... Fərdə etdiyi hərəkətin cinayət olduğu izah etmək deyərkən, girovları öldürdüyü təqdirdə vəziyyətinin daha da ağırlaşacağını, bundan əlavə fərdin psixoloji vəziyyətini də dəyərləndirərək etdiyi hərəkətin dini və əxlaqi qaydalara zidd olduğuna inandırmaq başa düşülür. İctimai toplantılarda fikrindən daşındırma taktikaları isə güc tətbiq etməklə qanun çərçivəsində bəzi tələbləri güzəştə gedərək kütləni qanunsuz əməllərdən çəkindirilməsi kimi başa düşülür.

Təhlükəsizlik qüvvələri ictimai aksiyalar zamanı hər cür ssenariyə hazır olmalı və hazır olduqlarını da müxtəlif yollarla qrup və qrup liderlərinin idarəçilərinə bildirməlidir. Bununla belə, qrupu fikrindən daşındırma zamanı həddən artıq güc tətbiq edilməməlidir. Çünki, hədsiz

güc tətbiq etmək əksər hallarda qrupu təhrik etmək deməkdir.

"Fikrindən daşındırma" ilə "meydan oxuma" arasında çox incə sərhəd var. "Meydan oxuma"-da qarşı tərəf təhdid edilir. Fikrindən daşındırmağa məcbur etmə zamanı isə qarşı tərəfə potensial hücumlara qarşı "hazırıq və gücümüz çatar" mesajı verilir. Meydan oxuma hücum, daşındırma isə "müdafiə" xarakterli taktikadır. Təhlükəsizlik qüvvələri nə qədər güclü olarsa olsun, heç vaxt kütlələri təhdid və təhrik edən tərəf olmamalıdır. Məsələn, aralarında qadın və uşaqların olduğu silahsız kütlə qarşısına tam təchizatlı, göz yaşardıcı bombalar və qalxanlarla çıxmaq daşındırma həddini aşmaq deməkdir. Beləcə vəziyyət gərginləşə bilər və kütlədə təhlükəsizlik qüvvələrinin onlara düşmən kimi davrandığı və qrupu təhrik edərək, onları əzməyə fürsət axtardığı təəssüratı yaranacaq. *Bu cür "əzələ nümayişi"nə qətiyyən yol verilməməlidir. Təhlükəsizlik qüvvələrin hər cür ssenariyə hazırlıqlı olması, meydanlarda güc nümayiş etdirməyi tələb etmir.*

**d) Təxribata getməmə:** Tələbləri yerinə yetirilmədikdə və bu tələblərin yerinə yetirilməsi üçün edilən cəhdlər heç bir nəticə vermədikdə insanların məyus olması təbii haldır. Zorakılığa meylli ictimai toplantılarda ümidləri puç olan insanların duyduqları hiddət və narazılıqdan bəzi şəxslər sui-istifadə edərək onları bu istiqamətdə təhrik edir. Məhz bu cür təhrikin vahid məqsədə nail olmaq üçün müəyyən şəxslər tərəfindən təşkil edilməsi provokasiya adlanır.

Müəyyən şəxslər məqsədli şəkildə ictimai toplantılarda iştirak edən şəxslərin həssas olduğu mövzuları səsləndirməklə provokativ şərait yaradırlar. Provokativ şərait insanların həssas olduğu mövzulardan birinə hücum edilməsi nəticəsində meydana gələn gərgin vəziyyətdir. Bundan agah olmaq provokativ şəraiti tanımağa və müdaxilə mərhələsində davranış qaydalarını müəyyən etməyə kömək edir.

Təhrikçilər kütləni yolundan azdırmağa çalışan peşəkar şəxslərdir. Onlar hər mərhələdə kütlə ilə təhlükəsizlik qüvvələrini qarşı-qarşıya gətirməyə cəhd edirlər. Təhlükəsizlik qüvvələri bu kimi hallarla qarşılaşarsa hissləri ilə deyil, ağıl və səbirlə hərəkət etməlidir. Kütlə psixologiyasını yaxşı bilən təhlükəsizlik qüvvələri təhrikçiləri dəyənəkləmək əvəzinə, onları yaxalayaraq dərhal təhlükəsizlik qüvvələrinin olduğu cərgənin arxasına aparmalıdır və ya kütlə dağılışdıqdan sonra onlar haqqında xüsusi mühafizə və axtarış xidmətinə məlumat verilməlidir. Xüsusilə idman yarışlarında azarkeş qruplarının liderləri və ətraflarındakı şəxslər təhrik sahəsində böyük təcrübəyə malikdir. Onlar kütləni təhrik etdikdən sonra həmin kütlənin daxilində izlərini itirməyə çalışırlar. Bu səbəbdən, təhlükəsizlik qüvvələri onların təhrikə sövq etmə təcrübələrini və taktikalarını yaxşı bilməlidir. Kütlə daxilində bu cür hərəkətlərə həvəsli olanlar, qəzəbli, həyəcanlı şəxslər, psixopatlar və kütləvi hərəkətləri başladaraq, ona liderlik edəcək şəxslər öncədən müəyyən edilməlidir.

**e) Peşəkar olma:** Hazırda müasir cəmiyyətlərin əksəriyyətində, cəmiyyəti formalaşdıran şəxslərin hər hansı mövzuda ictimai rəy yaratmaq, səslərini eşitdirmək məqsədilə kütləvi nümayiş keçirməsi fərdlərin əsas hüququ kimi qəbul edilir. Hətta, bu hüquqlar demokratik cəmiyyətin sağlam mexanizmə malik olduğunu göstərir. Bu baxımdan, təhlükəsizlik qüvvələrinin vəzifəsi bu hüquqdan müvafiq qaydada istifadə olunmasına nəzarət etmək və köməklik göstərməkdir.

Keçirilən nümayiş və aksiyaların mahiyyəti təhlükəsizlik qüvvələrinin düşüncə və görüşləri ilə hər zaman uyğun gələ bilməz. Gərginliyə səbəb olmayan nümayişlər təhlükəsizlik qüvvələri üçün problem yaratmır. Bu zaman təhlükəsizlik qüvvələri tərəfindən standart tədbirlər görülür və onlar öz vəzifələrini problemsiz yerinə yetirlər. Amma gərginlik artarsa, təhlükəsizlik qüvvələri özlərini tərəf olaraq görə bilər. Bu da demokratik hüquqlardan istifadə zamanı polisin öhdəliklərini tamamilə və ya qismən dəyişdirəcək.

Şəraitin necə olmasından asılı olmayaraq, təhlükəsizlik qüvvələri demokratik haqq kimi nümayişin müvafiq qaydada təşkilini təmin etməlidir. Təhlükəsizlik qüvvələri gərgin vəziyyətin təsiri altına düşməməlidir, bir peşəkar kimi, soyuqqanlı şəkildə, hisslərinə məğlub olmadan öz vəzifələrini icra etməlidir.

Vətəndaş ilə dialoq qurarkən asanlıqla təhrik olmaq, emosional davranmaq peşəkarlığa yaraşmır. Vətəndaş qəsdən və ya bilmədən təhrik edici davranışlar nümayiş etdirə bilər. Hətta, bəzi hallarda təhlükəsizlik qüvvələri qəsdən təhrik edilə bilər. Məsələn, ictimai toplantılarda bəzi şəxslər təhlükəsizlik qüvvələrini qəsdən təhrik etməklə onların kəskin reaksiya verməsinə cəhd edirlər. Qəsdən təhrik edilmə hallarında soyuqqanlılığı itirməmək peşəkarlığın əsas tələblərindən biridir. Təhlükəsizlik işçisinin peşəkarlığı öz davranışlarını başqalarının yönləndirməsi ilə deyil, aldığı təlim və peşə prinsipləri əsasında formalaşdırmasından asılıdır.

**ə) Yayındırma/Çaşdırma (hədəfdən yayındırma) taktikası:** Yayındırma taktikası aktiv fəaliyyət növüdür. Yayındırma taktikası zərurət yaranarsa aksiyaya müdaxilə edən polis komandirinin əmrinə əsasən tətbiq edilir. Əgər görülən tədbirlər aksiyanın keçirilməsinin qarşısını ala bilməsə, bu zaman müxtəlif çaşdırma taktikalarından istifadə etməklə aksiyada üstünlüyü ələ almaq mümkündür.

Məsələn, kütlə daxilinə gizli polis əməkdaşları sızdırılır. Onlar müxalif fikirlərlə nümayişçiləri aksiya keçirmək fikrindən daşındırmağa cəhd edə bilər. Tətbiq edilməyəcək taktikanı sıraya düzülməklə sanki tətbiq ediləcəkmiş kimi göstərmək də çaşdırma taktikasıdır. Yayındırma taktikaları əsas hədəfə çatmağa, əsas hədəfin uğurla nəticələnməsinə kömək etməli, bu prosesi sürətləndirməlidir. Amma, yayındırma taktikalarında müvəffəqiyyətsizlik əsas hədəfin uğursuzluqla nəticələnməsinə səbəb olmamalıdır. Yayındırma taktikaları son ana qədər gizli şəkildə planlaşdırılmalı və icra edilməlidir, həmçinin həqiqətə uyğun olmalıdır. Nəticə etibarilə, Yayındırma taktikaları qarşıya qoyulan hədəfin uğurla nəticələnməsini asanlaşdıran və tezləşdirən köməkçi taktikadır. Bu çərçivədə qarşı tərəfdəki qrupu hədəf alan düşünülmüş və planlı strategiyalar hazırlanmalıdır.

**f) Güc nümayiş etdirmə taktikası:** Buna güc nümayiş etdirmə taktikası da deyilir. Keçirilən aksiyalarda təhlükəsizlik qüvvələri gücünü daim cəmiyyətə və qanunsuz qruplara hiss etdirməlidir. Bunun üçün təhlükəsizlik qüvvələri fərdi və kollektiv qaydada vəzifə başında olarkən, öz vəzifələrini yerinə yetirərkən ciddi, vüqarlı, özündən əmin olmalıdır. Təhlükəsizlik qüvvələri geyim və davranışları ilə güclü olduğunu vətəndaşa göstərməsi güc nümayiş etdirmə taktikasıdır. Öz vəzifələri çərçivəsində baş verən hadisələrə müdaxilə etməklə qanunun tələblərini yerinə yetirən təhlükəsizlik qüvvələrinin bu müdaxiləsi də güc nümayiş etdirmə taktikasıdır. Təhlükəsizlik qüvvələrinin həyəcan siqnalını işə salaraq hadisə yerinə getməsi də güc nümayiş etdirmə taktikasıdır. Hətta gecə növbətçisinin gecə vaxtı oğruluğun qarşısını almaq üçün polis kimi fit çalması belə güc nümayiş etdirmə taktikasıdır.

Şəraitdən asılı olaraq ictimai toplantılarda polisin kütləni dağıtmaqda qətiyyətli və əzimli olduğunu ətrafdakılara hiss etdirməsi də güc nümayişidir. Məsələn, taktiki sıraya düzülmüş çevik qüvvət alayını kütləyə nümayiş etdirmək, müntəzəm yürüyüşlər keçirmək, sıraya müxtəlif cür düzülmək, kamera ilə çəkilişlər aparmaq, bəzən ehtiyat qüvvələrdən istifadə olunacağını elan etmək, hətta qanunsuz qrupların təşkil edəcəyi ictimai toplantılardan öncə səlahiyyətli şəxslərin mətbuat vasitəsilə qanunsuz hərəkətlərə qətiyyətlə müdaxilə edəcəklərini açıqlaması da güc nümayiş etdirmə taktikasıdır.

Təhlükəsizlik qüvvələrinin kütləyə nəzarət etmək üçün istifadə etdiyi taktikalar kütlənin aksiyalar zamanı davranışlarına da təsir göstərir. Təhlükəsizlik qüvvələrinin kütləyə müntəzəm şəkildə müdaxilə etməsi və ya sanki müdaxilə edəcəkmiş kimi görünməsi nümayişçilərin öz

problemlərini səsləndirmək imkanından məhrum olmasına və nümayişçilərdə təhlükəsizlik qüvvələrinə qarşı nifrətin yaranmasına səbəb ola bilər. Bu cür vəziyyət təhrikçilərin də təsiri ilə arzuolunmaz hadisələrin baş verməsinə şərait yaradacaq. Bu səbəbdən, təhlükəsizlik qüvvələri istifadə edəcəkləri taktikalar ilə kütləyə qanunu pozmadıqları müddətdə keçirilən aksiyalara hörmətlə yanaşacaqları mesajını verməlidir.

Bundan əlavə kütləni nəzarət altına alma zamanı hər kəsin tanıdığı və hörmət etdiyi bələdiyyə/icra başçısı kimi rəhbərlərin köməyindən, adət ənənələrdən faydalanmaq olar və ya musiqi səsləndirmə taktikasından da istifadə oluna bilər. Məsələn, idman yarışlarından əvvəl səsləndirilən şüarlar səbəbilə tamaşaçılar arasında artan gərginliyi yüksək səsli musiqi ilə azaltmaq mümkündür. Bəzən tamaşaçıların kiçik bir qrupu musiqiyə müşayiət etməsə də, yüksək səs səbəbindən qarşıdakı tamaşaçıların şüarlarını eşitmədiyi üçün gərginlik öz-özünə azalır.

# 3. BÖLMƏ İCTİMAİ TOPLANTILARDA İSTİFADƏ EDİLƏN TAKTİKİ-TEXNİKİ DÜZÜLÜŞLƏR



1. GÖZLƏMƏ DÜZÜLÜŞLƏRİ
   1.1 XƏTT DÜZÜLÜŞÜ
   1.2 ÇƏPƏR DÜZÜLÜŞÜ
   1.3 HÜNDÜR ÇƏPƏR DÜZÜLÜŞÜ
2. MÜDAXİLƏ DÜZÜLÜŞLƏRİ
   2.1 XƏTT DÜZÜLÜŞÜ
   2.2 QƏMƏ (KİÇİK XƏNCƏR) DÜZÜLÜŞÜ
   2.3 ÇƏPƏR DÜZÜLÜŞÜ
   2.4 ƏHATƏYƏ ALMA (ÇƏNBƏR) DÜZÜLÜŞÜ

## 3. BÖLMƏ İCTİMAİ TOPLANTILARDA İSTİFADƏ EDİLƏN TAKTİKİ-TEXNİKİ DÜZÜLÜŞLƏR



### HAZIRLIQ SUALLARI

- ☞ Xətt düzülüşü nə məqsədlə tətbiq edilir?
- ☞ Qəmə (kiçik xəncər) düzülüşü nə məqsədlə tətbiq edilir?
- ☞ Hündür çəpər düzülüşü nə məqsədlə tətbiq edilir?
- ☞ Əhatəyə alma (çənbər) düzülüşü nə məqsədlə tətbiq edilir?

### 1. GÖZLƏMƏ DÜZÜLÜŞLƏRİ

### 1.1 XƏTT DÜZÜLÜŞÜ

**a) Qrupun xətt düzülüşü:**

**Məqsəd**

1- Müəyyən bir yol və ya ərazinin bağlanması

2- Müəyyən bir bina və ya şəxsi qorumaq

3- Kütləni geriyə çəkməklə həmin ərazidən çıxarmaq

4- İki qrupu bir-birindən ayırmaq

5- Bütün istiqamətlərdən gələ biləcək təhlükələrə qarşı tədbir almaq

**(Əmr)**

“..... Qrup düzlən ..... Xətt düzülüşünə keç, Marş!”

**Tətbiq etmə**

1-ci və 4-cü manqanın (10 nəfərlik manqa) 2 nömrəli şəxsi heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşməklə öz yerlərini tutur. 1-ci manqa sağa, 4-cü manqa sola doğru xətt düzülüşünə keçir. 1-ci və 4-cü manqaların çıxışından orta hesabla 1-2 saniyə sonra 2-ci və 1-ci manqa, 3-cü manqa isə 4-cü manqanın ardınca xətt düzülüşünə keçir. Manqa komandirləri bir addım geridə manqanın mərkəzində mövqe tutur.

Heyət arasındakı məsafə (başqa cürə təlimat verilənə qədər) bir addımdır. Dağılışma vaxtı əvvəlcə robokob manqası, ardınca isə qalxan manqası öz yerlərinə keçir. Dağılışma hər manqanın son üzvündən başlayaraq həyata keçirilir.




QR – Qrup Rəhbəri

## b) Qrupu yaxından dəstəkləyən düzülüş:

**Məqsəd**

1- Müəyyən bir yol və ya ərazinin bağlanması

2- Müəyyən bir bina və ya şəxsi qorumaq

3- Kütləni geriyə çəkməklə həmin ərazidən çıxarmaq

4- İki qrupu bir-birindən ayırmaq

5- Bütün istiqamətlərdən gələ biləcək təhlükələrə qarşı tədbir almaq

**(Əmr)**

“..... Manqa düzlən ..... Yaxından dəstəkləmə düzülüşünə keç, Marş!”

**Tətbiq**

1-ci və 4-cü manqanın 2 nömrəli heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşməklə öz yerlərini tuturlar. 1-ci manqa sağa, 4-cü manqa sola doğru xətt düzülüşünə keçir. 2-ci və 3-cü manqalar orta hesabla 1-2 saniyədən sonra 1-ci və 4-cü manqanın arxasından mərkəzdə birləşməklə ikinci xətt düzülüşü yaradır. 1-ci və 4-cü manqanın komandirləri 9 nömrəli heyətin, 2-ci və 3-cü manqanın komandirləri isə 3 nömrəli heyətin cərgəsində ən arxa sırada öz yerlərini tutur. Heyət arasındakı məsafə (başqa cürə təlimat verilənə qədər) bir addımdır. Bu düzülüşdə 1-ci və 4-cü manqalar “Zəncir düzülüşü” və ya qalxanla “Çəpər düzülüşü”nə keçdikdə 2-ci və 3-cü manqanın heyəti qarşıdakı heyətin çiyninə iki əlini qoymaqla onlara dəstək olur. Dağılışma hər manqanın son üzvündən başlayaraq həyata keçirilir.





### c) Qrupa mərkəzdən dəstək verən düzülüş:

**Məqsəd**

1- Müəyyən bir yol və ya ərazinin bağlanması
2- Müəyyən bir bina və ya şəxsi qorumaq
3- Kütləni geriyə çəkməklə həmin ərazidən çıxarmaq
4- İki qrupu bir-birindən ayırmaq
5- Bütün istiqamətlərdən gələ biləcək təhlükələrə qarşı tədbir almaq

**(Əmr)**

“..... Qrup düzlən ..... Mərkəzdən dəstəkləmə düzülüşünə keç, Marş!”

**Tətbiq**

1-ci və 4-cü manqanın 2 nömrəli heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşməklə öz yerlərini tuturlar və 1-ci manqa sağa, 4-cü manqa sola doğru xətt düzülüşünə keçir. Bundan sonra 2-ci və 3-cü manqa cərgənin 3 addım arxasında Ümumi Gözləmə Mövqeyinə keçərək potensial təhlükələrə qarşı hazır şəkildə gözləyir. Manqa komandirləri ortadakı 6-ci heyət ilə eyni cərgədə düzülür. Dağılışma hər manqanın son üzvündən başlayaraq həyata keçirilir.




## ç) Qrupu yanlardan dəstəkləyən düzülüş:

**Məqsəd**

1- Müəyyən bir yol və ya ərazinin bağlanması

2- Müəyyən bir bina və ya şəxsi qorumaq

3- Kütləni geriyə çəkməklə həmin ərazidən çıxarmaq

4- İki qrupu bir-birindən ayırmaq

5- Bütün istiqamətlərdən gələ biləcək təhlükələrə qarşı tədbir almaq

**(Əmr)**

"..... Qrup düzlən ..... Yanlardan dəstək düzülüşünə keç, Marş!"

**Tətbiq**

1-ci və 4-cü manqanın 2 nömrəli heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşməklə öz yerlərini tuturlar və 1-ci manqa sağa, 4-cü manqa sola doğru xətt düzülüşünə keçir.

Bundan sonra 2-ci və 3-cü manqa cərgənin sağ və sol qanadlarının 3 addım arxasında Ümumi Gözləmə Mövqeyinə keçərək potensial təhlükələrə qarşı hazır şəkildə gözləyir.

Manqa komandirləri ortadakı 6-ci heyət ilə eyni cərgədə düzülür. Dağılışma hər manqanın son üzvündən başlayaraq həyata keçirilir.




## 1.2. ÇƏPƏR DÜZÜLÜŞÜ

Məqsəd

Manqa sayının kütləyə daha çox göstərilməsi

Digər düzülüşlərə keçisi asanlaşdırmaq

Gözləyən əməkdaşların fasilə ilə istirahət etməsini təmin etmək

**Əmr**

“.....  Qrup düzlən ..... Çəpər düzülüşünə keç, Marş!”

**Tətbiq**

Verilən əmrə əsasən 1-ci manqanın birinci üzvündən etibarən heyət soldan sağa doğru yanlarında 1 nəfərlik yer saxlamaqla sıraya düzülür. 4-cü manqanın birinci üzvü 1-ci manqanın sondakı üzvünün arxasına keçməklə 4-cü manqa 1-ci manqanın arxasına keçir. 2-ci manqanın birinci üzvü 4-cü manqanın sondakı üzvünün arxasına keçməklə 4-cü manqanın arxasına keçir. 3-cü manqanın birinci üzvü 2-ci manqanın sondakı üzvünün arxasına keçməklə öz yerini tutur. Bu formada gözləyərkən yaxın dəstəkli xətt düzülüşünə keçilən zaman əmrə əsasən 4-cü və 3-cü manqa heyəti 1-ci və 2-ci manqa heyətinin yanındakı boşluğu tutur. Çəpər düzülüşündən hündür çəpər düzülüşünə keçilən zaman əmr əsasında həyət aralarındakı boşluqları doldurmaqla bir-birlərinə yaxınlaşır. 1-ci manqa hündür çəpərin alt hissəsini, 4-cü manqa hündür çəpərin üst hissəsini formalaşdırır.2-ci və 3-cü manqalar hündür çəpərin arxa hissəsində düzülür.

Çəpər düzülüşündə gözləmə mövqeyində olarkən zərurət yaranarsa heyətin fasilələrlə istirahət etməsi üçün 1-ci və 2-ci manqa öz mövqeyində qalarkən, 3-cü və 4-cü manqa istirahət edə bilər. Daha sonra 3-cü və 4-cü manqa gözləmə mövqeyinə keçərkən, 1-ci və 2-ci manqa istirahət edir.





ÇƏPƏR DÜZÜLÜŞÜNDƏN YAXIN DƏSTƏKLİ SIRA DÜZÜLÜŞÜNƏ KEÇİŞ



ÇƏPƏR DÜZÜLÜŞÜNDƏN HÜNDÜR ÇƏPƏR DÜZÜLÜŞÜNƏ KEÇİŞ




## 1.3. HÜNDÜR ÇƏPƏR DÜZÜLÜŞÜ

### a) Manqanın hündür çəpər düzülüşü:

**Məqsəd**

1- Şəxsi heyəti kütlənin daş və s. yabançı maddələr ilə hücumlarından qorumaq.

2- Yabançı maddələrlə hücum edən kütlənin keçib getməsinə qədər manqanın öz mövqeyini qoruması

**Əmr**

“.....Qrup düzlən ..... Hündür çəpər düzülüşünə keç, Marş!”

**Tətbiq**

1-ci manqa əmrdə göstərilən mövqedə sağ tərəfdən xətt düzülüşünə keçərək qalxanları ilə çəpərin alt hissəsini formalaşdırır. 4-cü manqanın 2 nömrəli heyəti 1-ci manqanın 10 nömrəli həyətinin arxasında düzülür və manqa sol tərəfdən xətt düzülüşünə keçərək qalxanları ilə çəpərin üst hissəsini formalaşdırır. Sıra ilə 2-ci manqa sağa, 3-cü manqa sola xətt düzülüşünə keçməklə çəpərin arxasında qoruma mövqeyinə keçir.




## 2. MÜDAXİLƏ DÜZÜLÜŞLƏRİ

## 2.1 XƏTT DÜZÜLÜŞÜ

**a) Manqanın xətt düzülüşü**

Şəhər daxilində kütlənin yerləşdiyi məkanlarda tətbiq olunan düzülüş formasıdır.

**Məqsəd**

Əlavə qüvvə gələnə qədər qrupu yayındırma, müdafiə olunma

**Əmr**

“..... Qrup düzlən ..... Xətt düzülüşünə keç, Marş!”

**Tətbiq**

Manqa qalxanlı heyət qabaqda dayanmaqla qoşa sırada gözləyərkən əmr əsasında qalxanlı heyət yan-yana düzülür, digər heyət isə robokob formasında qalxanlı şəxsi heyətin sağına və soluna keçir. Bu məqamda göz yaşardıcı qazdan istifadə edən heyət “model-5” qaz balonu ilə cərgənin açıqda qalan və nümayişçilərin keçə biləcəyi tərəfi bağlayır.




**b) Yarım qrupun (20 nəfər) sıraya düzülüşü**

Məqsəd

Nümayişçilərin dar küçələrdən magistral yollara (prospektlərə) çıxışını əngəlləmək

Əmr

“..... Yarım qrup düzlən ..... Yarım qrup xətt düzülüşünə keç, Marş!”

**Tətbiq**

Manqada ilk 2 cərgədə mövqe tutan qalxanlı heyət əmr əsasında birlikdə xətt düzülüşünə keçir. Robokob formasında olan digər heyət isə qalxanlı heyətin sağına və soluna keçir. Göz yaşardıcı qazdan istifadə edən manqa üzvlərindən biri Z201 tüfəngi ilə manqanın bir ucuna, digəri isə Model-5 qaz balonu ilə digər ucuna keçir. Yanğın söndürən balon (YSB) daşıyan heyət manqanın arxasına keçir.




## c) Qrupu yaxından dəstəkləyən düzülüş

**Məqsəd**

Böyük prospektlərdə və ərazilərdə qrupların qarşısını kəsmək və müdaxilə etmək.

**Əmr**

“..... Manqa düzlən ..... Yaxından dəstək xətt düzülüşünə keç, Marş!”

**Tətbiq**

Birinci və ikinci cərgədəki qalxanlı heyət bir-birinin arxasınca xətt düzülüşünə keçir. Robokob formasında olan digər heyət isə bir-birinin arxasınca qalxanlı heyətin sağına və soluna keçir. Bu vaxt 4 nəfər göz yaşardıcı qazdan istifadə edən heyətdən ikisi qaz tüfəngi ilə qrupun uc nöqtələrinə keçir. Kütlənin çevik qüvvət alayını çətin vəziyyətə salmasını əngəlləmək məqsədilə Model-5 qaz balonu daşıyan heyət qaz tüfənginin yaxınında mövqe tutur. 2 ədəd yanğın söndürücü balon (YSB) daşıyan heyət qrupların uc nöqtələrində göz yaşardıcı qazdan istifadə edən heyətin arxasına keçir.







## 2.2. QƏMƏ (KİÇİK XƏNCƏR) DÜZÜLÜŞÜ

### a) Manqanın qəmə düzülüşü:

Məqsəd

1- Kütləni bölmək və kənarlara doğru dağıtmaq

2- Kütlə daxilindəki əsas günahkarları yaxalayıb təxliyə etmək

3- Kütlə daxilində yol açmaq.

**Əmr**

“..... Manqa düzlən ..... Qəmə düzülüşünə keç, Marş!”

**Tətbiq**

1-ci və 4-cü manqaların 2 nömrəli heyəti əmrlə göstərilən cəbhə istiqamətində birləşməklə öz yerlərini tuturlar və 1-ci tağım sağa, 4-cü tağım sola doğru mərhələli şəkildə xətt düzülüşünə keçir. 2-ci manqa 1-ci manqanın, 3-cü manqa 4-cü manqanın arxasından mərhələli şəkildə qəmə düzülüşünə keçir.

Manqa komandirləri manqaların mərkəzində və qəmənin daxilində mövqe tutur. Qəmənin önə doğru irəliləməsinə zərurət yaranarsa əmr əsasında manqa qəmənin mərkəzinə doğru sıxlaşaraq zəncir formasında düzülür. 1-ci və 2-ci manqa heyətinin sol tərəfi, 4-cü və 3-cü manqa heyətin isə sağ tərəfi öndə mövqe tutur və irəliyə doğru hərəkət mərhələli şəkildə edilməklə qəmə düzülüşünün pozulmasına yol verilmir.

Dağılışma bütün manqalarda son üzvün yerləşdiyi istiqamətdən və eyni anda həyata keçirilir.





## b) Qrupu yaxından dəstəkləyən qəmə düzülüşü

**Məqsəd**

1- Kütləni bölmək və kənarlara doğru dağıtmaq

2- Kütlə daxilindəki əsas günahkarları yaxalayıb təxliyə etmək

3- Kütlə daxilində yol açmaq.

**Əmr**

“..... Manqa düzlən ..... Yaxından dəstəkləyən qəmə düzülüşünə keç, Marş!”

**Tətbiq**

1-ci və 4-cü manqaların 2 nömrəli heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşməklə öz yerlərini tuturlar və 1-ci manqa sağa, 4-cü manqa sola doğru mərhələli şəkildə xətt düzülüşünə keçir. 2-ci və 3-cü manqanın 2 nömrəli heyəti qəmənin mərkəzində cəmləşir və 2-ci manqa sağa, 3-cü manqa sola mərhələli şəkildə xətt düzülüşünə keçməklə ikinci qəməni formalaşdırır. Manqa komandirləri manqaların mərkəzində və qəmənin daxilində mövqe tutur.

Qəmənin önə doğru irəliləməsinə zərurət yaranarsa əmr əsasında manqalar qəmənin mərkəzinə doğru sıxlaşarkən, 1-ci və 4-cü manqalar zəncir, 2-ci və 3-cü manqalar isə yaxın dəstək mövqeyini tutur.

1-ci və 2-ci manqa heyətinin sol tərəfi, 4-cü və 3-cü manqa heyətin isə sağ tərəfi öndə mövqe tutur və irəliyə doğru hərəkət mərhələli şəkildə edilməklə qəmə düzülüşünün pozulmasına yol verilmir (irəliləmə davamlı olaraq sağa sola çıxmaqla edildiyi üçün qəmə düzülüşünün pozulmasına yol verilmir).

Dağılışma hər manqanın son üzvün yerləşdiyi istiqamətdən və eyni anda həyata keçirilir.





## c) Qrupu mərkəzdən dəstəkləyən qəmə düzülüşü

**Məqsəd**

1- Kütləni bölmək və kənarlara doğru dağıtmaq

2- Kütlə daxilindəki əsas günahkarları yaxalayıb təxliyə etmək

3- Kütlə daxilində yol açmaq.

**Əmr**

“..... Qrup Düzlən ..... Mərkəzdən dəstəkləyən qəmə düzülüşünə keç, Marş!”

**Tətbiq**

1-ci və 4-cü manqaların 2 nömrəli heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşərək xətt düzülüşünə keçir. 1-ci manqa sağa, 4-cü manqa sola mərhələli şəkildə xətt düzülüşünə keçməklə qəmə yaradırlar. Daha sonra, 2-ci və 3-cü manqalar cərgənin 3 addım arxasında mərkəzdən dəstəkləyən düzülüş mövqeyində potensial təhlükələrə qarşı hazır vəziyyətdə gözləyir. Manqa komandirləri mərkəzdəki 6-cı heyət ilə birgə eyni cərgədə mövqe tutur. Lazım gələrsə qəmənin hər iki qanadı açılmaqla 2-ci və 3-cü manqalardan zəruri müdaxilələr zamanı istifadə etmək olar. Dağılışma eyni anda hər manqanın şəxsi heyətindəki ən sonda duran üzvündən başlayır.



## ç) Qrupu yanlardan dəstəkləyən qəmə düzülüşü

**Məqsəd**

1- Kütləni bölmək və kənarlara doğru dağıtmaq

2- Kütlə daxilindəki əsas günahkarları yaxalayıb təxliyə etmək

3- Kütlə daxilində yol açmaq.

**Əmr**

"…..Qrup Düzlən ….. Yanlardan dəstəkləyən qəmə düzülüşünə keç, Marş!"

**Tətbiq**

1-ci və 4-cü manqaların 2 nömrəli heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşərək xətt düzülüşünə keçir. 1-ci manqa sağa, 4-cü manqa sola mərhələli şəkildə xətt düzülüşünə keçməklə qəmə yaradırlar. Daha sonra, 2-ci və 3-cü manqalar cərgənin sağ və sol qanadlarının 3 addım arxasında mərkəzdən dəstəkləyən düzülüş mövqeyində potensial təhlükələrə qarşı hazır vəziyyətdə gözləyir. Manqa komandirləri mərkəzdəki 6-ci heyət ilə birgə eyni cərgədə mövqe tutur. Qəmənin irəliyə doğru hərəkət etməsi zərurəti yaranarsa kənar qanadlar qəmə ilə birlikdə irəliləyərək kütlənin bir-birindən ayrılmasını təmin edir.

Dağılışma eyni anda hər manqanın şəxsi heyətindəki ən sonda duran üzvündən başlayır.



## 2.3. Çəpər düzülüşü

**Məqsəd**

Hücuma keçən kütlənin atdığı hər cür cisimdən qorunmaqla onlara müdaxilə etmək

**Əmr**

“..... Qrup düzlən ..... Çəpər  düzülüşünə keç, Marş!”

**Tətbiq**

1-ci və 2-ci cərgədəki heyət qalxanları ilə birlikdə (ön cərgədəkilərin diz üstə dayanması ilə)  çəpərin alt,  2-ci cərgədəki heyət isə üst hissəsini formalaşdırır. Çəpərin sağ və sol uclarında iki ədəd qaz tüfənginə malik heyət dayanır.  Ən arxada bir ədəd yanğın söndürmə balonuna (YSB) malik heyət dayanır.







## 2.4. ƏHATƏYƏ ALMA (ÇƏNBƏR) DÜZÜLÜŞÜ

### a) Çənbər qrupunun düzülüşü

**Məqsəd**

Yaxalanması (həbsi) nəzərdə tutulan kütləni əhatəyə almaq

**Əmr**

“..... Qrup düzlən ..... Əhatəyə al, Marş!”

**Tətbiq**

1-ci və 4-cü manqaların 2 nömrəli heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşərək xətt düzülüşünə keçir. 1-ci manqa sağa, 4-cü manqa sola, aşağı istiqamətdə (çənbərin daxili boş qalmaq şərtilə) birləşərək çənbərin yarımdairəsini yaradır.

2-ci manqa 1-ci manqanın, 3-cü manqa isə 4-cü manqanın arxasından gələrək çənbərin digər yarımdairəsini yaradır. Manqa komandirləri mərkəzdəki 6-ci heyətin arxasında mövqe tutur. Dağılışma hər manqanın ən sonda duran üzvündən, əvvəlcə 2-ci və 3-cü manqalar, sonra isə 1-ci və 4-cü manqalardan baş layır.





**b) Qrupu mərkəzdən dəstəkləyən əhatəyə alma düzülüşü**

*Məqsəd*

Yaxalanması nəzərdə tutulan kütləni əhatəyə almaq

*Əmr*

"….. Qrup düzlən ….. Əhatəyə al, Marş!"

*Tətbiq*

1-ci və 4-cü manqaların 2 nömrəli heyəti əmrdə göstərilən cəbhə istiqamətində birləşərək xətt düzülüşünə keçir. 1-ci manqa çənbərin sağ, 4-cü manqa isə sol hissəsini formalaşdırır. Daha sonra, 2-ci və 3-cü manqalar xətt cərgəsinin 3 addım arxasında mərkəzdən dəstəkləyən düzülüş mövqeyində potensial təhlükələrə qarşı hazır vəziyyətdə gözləyir. Manqa komandirləri mərkəzdəki 6-cı heyətin yanında mövqe tutur. Dağılışma eyni anda hər manqanın ən sonda duran üzvündən başlayır.


Tətbiq – 1-ci manqa
Tətbiq – 2-ci manqa
Tətbiq – 3-cü manqa
Tətbiq – 4-cü manqa
1. MANQA
2. MANQA
3. MANQA
4. MANQA
QR
R
QR
R

# 4. BÖLMƏ GÖZYAŞARDICI QAZLAR VƏ XÜSUSİ MÜDAFİƏ SİLAHLARI



1. GÖZ YAŞARDICI QAZLAR
2. ƏL QAZ QUMBARALARI
3. GÖZYAŞARDICI AEROZOL QAZ BALONU
4. GÖZYAŞARDICI QAZATAN QURĞULAR
5. QAZ TÜFƏNGLƏRİ
6. FN 303 MÜDAFIƏ TÜFƏNGI
7. “12 mm POMPALI TÜFƏNG”
8. “TEREN –12 K” (KARTEÇLİ) VƏ “TEREN – 12 P” MARKALI ELASTİK GÜLLƏLƏR
9. ƏLEYHQAZLAR VƏ SÜZGƏCLƏR
10. GÖZYAŞARDICI KİMYƏVİ MADDƏLƏR

## 4. BÖLÜM GÖZYAŞARDICI QAZLAR VƏ XÜSUSİ MÜDAFİƏ SİLAHLARI



### Hazırlıq Sualları

- Fizioloji təsirinə görə kimyəvi maddələrin neçə növü var?
- Gözyaşardıcı kimyəvi maddələrin neçə növü var və hansılardır?
- Gözyaşardıcı qazların təsirlərindən üçünü qeyd edin.
- Gözyaşardıcı qaz vasitələrini qeyd edin.

## 1. GÖZ YAŞARDICI QAZLAR

### a) Kimyəvi maddələrin təsnif edilməsi:




### b) Gözyaşardıcı Kimyəvi Maddələr:

Gözyaşardıcı maddələr; hər növ qanuna zidd toplantı, nümayiş, mitinq və bənzər yollarla həyata keçirilən üsyanların iştirakçılarını dağılmağa məcbur etmək və ya təyin olunan istiqamətlərə yönləndirmək, xüsusi əməliyyatlar yolu ilə həbs etmə və ya vəzifənin icrası zamanı qarşılaşılan hücumları təsirsiz hala gətirmək və birbaşa mübarizələr zamanı müqaviməti qırmaq məqsədilə istifadə edilir.

**CS (Ortho-chlorbenzalmalononitrle)**

CS, gözyaşardıcı maddələr içərisində geniş olaraq istifadə edilir. 1928-ci ildə B.B. Carson və R.W. Stoughton adlı iki kimyaçı tərəfindən kəşf edilmiş və adlarının baş hərfləri olaraq CS adlandırılmışdır. İlk dəfə 1957-1958-ci illərdə ingilislər tərəfindən Kiprdə istifadə edilmişdir.

CN maddəsindən daha təhlükəsiz və təsirli olduğu üçün 1960-cı illərin ortalarından etibarən polis təşkilatlarında istifadə edilməyə başlanılmışdır. Əl qumbaraları və fişənglərdə ağ, kristal toz şəklində, spreylərdə isə maye və ya aerozol formasındadır. Dərhal təsir göstərir və təsiri 10-30 dəqiqə içərisində yox olur.

**OC (Oleoresin of Capsicum)**

OC Çili bibərindən hazırlanan tamamilə təbii bir maddədir. İlk dəfə olaraq e.ə. 2000-ci illərdə Çinlilər tərəfindən istifadə edildiyi təxmin edilir. Uzun illər xalq arasında müalicə məqsədilə istifadə edilmişdir. 1950-ci illərdə gizli xidmətlər tərəfindən aparılan təhqiqat zamanı, 1960-cı illərdə Amerika Poçt Xidməti tərəfindən itlərə qarşı istifadə edilmişdir. Polis təşkilatları bu maddədən 1970-ci illərdə istifadə etməyə başlasalar da, yalnız 1980-ci illərin sonunda geniş yayılmağa başladı. OC spreylərinin içərisində yalnız özünü məhlul içində saxlayan digər kimyəvi maddələr və məhlulları boşaltmaq üçün istifadə olunan ötürücü maddə vardır. Xalq arasında bibər qazı da deyilən OC ən çox istifadə edilən göz yaşardıcı maddədir. Çünki CN və CS maddələrindən daha çox istifadəyə yararlıdır və daha az yan təsirlərə malikdir. Təsirini dərhal göstərir və 10-30 dəqiqə içərisində yox olur. Təmizlənməsi olduqca asandır. Tərkibində bibər olduğu üçün toxunduğu yerdə çox güclü yanğıya səbəb olur.

**CN (Kloroasetofenon)**

Qatı, sarımtraq rəngdə, 54 C dərəcədə əriyən bir maddədir. Dərhal təsir göstərir. CN gözləri və yuxarı tənəffüs yollarını dərhal qıcıqlandırır. Yüksək konsentrasiyaları bol miqdarda göz yaşına, qıcıqlanmağa, yanmağa, boğaz və burun ağrısına, xüsusilə cildin həssas hissələrində tərləməyə, nəm hissələrdə qaşıntıya səbəb olur. Təsirləri günəş yanığına bənzərdir. Yarım saat ilə bir neçə saat arasında təsir göstərir. Bəzi insanlarda ürək bulanması yarada bilər. Alma çiçəyi qoxusu verir.

## c) Gözyaşardıcı Qazların Təsirləri

Gözyaşardıcı maddələrin təsirindən müvəqqəti olaraq aşağıdakı əlamətlər meydana gəlir:

- Tərkibində olan aktiv maddə gözləri yaşardır və göz bəbəklərinə təsir göstərir. Göz qapaqlarının qeyri-ixtiyari olaraq bağlanması və göz yaşı yaranması səbəbindən müvəqqəti olaraq görmə pozğunluğu yarana bilər.
- Baş gicəllənməsi, səndələmə, müvəqqəti olaraq koordinasiya pozğunluğu meydana gələ bilər.
- Göz, burun, boğaz və dəri üzərində yanma və batma təsiri yaradır. Maddə bədən hərarəti və nəmi ilə yayılma təsiri göstərə bilər.
- Öskürək və ürəkbulanması yaradır. Yüksək miqdarda qaza məruz qalındıqda qusma meydana gələ bilər.
- Sinus boşluqlarına təsir edir, ağız və burun ifrazatını artırır.
- Tənəffüs zamanı diafraqmada sıxılma ola bilər.
- Ürək sıxıntısı, boğulma və təlaş hissi yarana bilər.
- Yüksək miqdarda qaz nəfəs darlığına səbəb ola bilər.
- Parlaq işıqlara qarşı yüksək həssaslıq yarana bilər.
- Qazın bütün təsiri 15-30 dəqiqə içərisində keçir.

### ç) Göz Yaşardıcı Qazlarda İlk Yardım

Göz yaşardıcı qazların istifadə edilməsində məqsəd müdaxilə edilən şəxslərə fiziki təzyiq göstərmədən müqavimətini qıracaq səviyyədə təsirsiz hala gətirməkdir. Bu səbəbdən qazın təsirinə məruz qalan şəxslərə ilk tibbi yardım göstərmək üçün hazırlıqlı olmaq lazımdır. Çünki qazın təsirinə məruz qalan şəxslər təsirsiz vəziyyətə düşür. Habelə həmin şəxslərin təlaşa düşərək ətrafdakılara xəsarət yetirmək ehtimalı da var. Göz yaşardıcı qaz aerozol şəklində istifadə edildikdə vücudun yalnız qazın təmas etdiyi hissələrinə təsir göstərir. Toz və ya duman şəklində istifadə edildikdə isə bədənin demək olar ki, hər tərəfini, xüsusilə də açıqda qalan hissələrini təsiri altına alır.

- Gözləri ovuşdurmadan açıq saxlamaq, gözlərdə linza olduqda onları çıxarmaq və qazın yayıldığı ərazini tərk etmək lazımdır.
- Gözləri küləyə və ya əgər varsa ventilyatora qarşı açıq saxlanılmalıdır. Bu yolla gözlərin təmizlənməsini sürətləndirmək olar.
- Burnu təmizləmək üçün burnu silmək və normal nəfəs almağa cəhd etmək lazımdır.
- Çoxlu miqdarda soyuq su ilə maddənin bulaşdığı yerlər, xüsusilə də gözlər ovuşdurmadan yuyulmalıdır. Tərlənmənin qarşısını almaq üçün çox hərəkət edilməməli və mümkün qədər maddənin bulaşdığı hissələr hava ilə təmas etdirilməlidir.
- Göz yaşardıcı maddənin bulaşdığı paltarlar çıxarılmalı, havalandırılmalı və lazım gəldikdə yuyulmalıdır.
- Göz yaşardıcı maddələrin bulaşdığı hissələrə krem, məlhəm, yağ, losyon kimi maddələr sürtmək olmaz. Bu maddələr qaz hissəciklərinin dəriyə yapışmasına və təsirinin iki qat artmasına səbəb olur.
- Əsəbilik, yanma hissi, öskürək, boğulma-nəfəs darlığı və təlaş hissi yaratdığı üçün qazın təsirinə məruz qalmış şəxslə danışaraq onu rahatlatmaq və sakitləşdirmək lazımdır.
- Qazın təsiri və reaksiyası davam etdiyi halda dərhal həkimə müraciət edilməlidir.

Bu şəkildə müdaxilə etdikdə göz yaşardıcı qazın təsiri təqribən 15 dəqiqə ərzində yox olur.

## 2. ƏL QAZ QUMBARALARI

Qumbaranın aktiv maddələri CS qazından ibarətdir. Əl qumbaraları çox yüksək dozaya və fitil sisteminə  malik olduğu üçün onların qapalı ərazilərdə istifadə edilməsi təhlükəlidir və bu yanğına, insanların ölməsinə və daimi şikəst qalmasına (xüsusilə nəfəs çatışmazlığından əziyyət çəkənlər, qocalar və uşaqlar) səbəb ola bilər.




### a) 9230 Poison Plastik əl qaz qumbarası

Yanma ilə yayma metodundan istifadə edərək içindəki topa halında olan gözyaşardıcı kimyəvi maddəni (CS) ağ toz buludu formasında xaric edən, açıq ərazilərdə kütləyə qarşı istifadə olunan, yüksək dozalı və parça təsiri göstərməyən əl qaz qumbarasıdır. Ortadakı mavi sarğının altında 5 ədəd, baş hissədə isə 1 ədəd olmaqla ümumilikdə 6 qaz çıxış kanalına malikdir. Kanalların sayı çox olduğu üçün təzyiqi ilə birlikdə qaz sürətlə çölə çıxır və qeyri nizami hərəkət edir. Səthi plastik olduğu üçün fitil işə düşdükdən sonra qumbara şişməyə başlayır və qazla birgə yüksək temperaturda istilik xaric edir. Bu xüsusiyyətləri onun nümayişçilər tərəfindən polisə geri atılmasını çətinləşdirir, amma yanğınlara da səbəb ola bilər.



Həlqəni çəkib əl bombasını atdıqdan sonra 3 saniyə ərzində qaz xaric olmağa başlayır. Burada ən vacib məqam bu üç saniyə ərzində qumbaranın nümayişçilər tərəfindən geri atılmasını əngəlləməkdir. Yaxın məsafədəki nümayişçilərə qarşı qazdan istifadə edilərsə polis əməkdaşı qumbaranın həlqəsini çəkib təhlükəsizlik sıxacını buraxdıqdan 1 saniyə sonra

qumbaranı atmalıdır. Burada vaxtın düzgün hesablanması vacibdir. Polis əməkdaşı gecikərsə qaz onun əlində çıxmağa başlayacaq və istilik səbəbindən ciddi şəkildə yaralana bilər. Qumbara ABŞ-da istehsal olunub.

### b) Condor əl qaz qumbarası

- İçərisində xalis CS miqdarı 35 (+/-2) qramdır. Üst tərəfdən 4, yandan isə 2 çıxış deşiyi var.
- Əl qaz qumbarası fitil vasitəsilə qazı yandırır və yaymağa başlayır.
- Əl qaz qumbarası atıldığı andan etibarən 2.5 saniyə ərzində qazı yaymağa başlayır.
- Əl qaz qumbarası atıldıqdan sonra maksimum 20 (iyirmi) saniyə ərzində içərisindəki qazı tam yayır.
- Ümumi çəkisi 375 qramdır. Diametri 72 mm-dir.
- Saxlama müddəti 5 ildir.
- 10 metrlik ərazidə qeyri nizami hərəkət edərək qazı yayma xüsusiyyətinə malikdir.
- Təhlükəsizlik sıxacı və halqası var.




### c) Han-Ball Rezin Cs əl qaz qumbarası

Han-Ball CS əl qaz qumbarası “Defense Technology” şirkəti tərəfindən hazırlanmış taktiki vəsaitdir. Han-Ball CS əl qaz qumbarası hədəf seçilmiş yerə qatı CS qazı buraxmaq üçün dizayn edilib. 2006-cı ildə istehsal edilib.





Qumbaranın içərisindəki CS qazı qaz çıxışı kanallarından xaric olaraq ətrafa yayılır. Bu qumbara xüsusilə ictimai toplantılarda qısa vaxtda maksimum qatılıqda CS qazı buraxmaqla kütləni əməllərindən daşındırmaq üçün istehsal olunub. Qumbaranın təhlükəsizlik sıxacı çəkilir, fitil manivelası buraxılır və hədəfə atıldıqdan 2 saniyə sonra ətrafa çox qatı CS qatı yayılır. Qumbara əllə və ya müvafiq adapterlə atıla bilər. Polis alayı adapterdən kütlələri uzaq məsafədən nəzarət altına almaq üçün istifadə edir.

### ç) Hərəkətli CS plastik əl qaz bombası



İçərisində xalis CS miqdarı 35 (+/-2) qramdır.

Əl qaz qumbarası fitil vasitəsilə qazı yandırır və yaymağa başlayır. Əl qaz qumbarası atıldığı andan etibarən 2 saniyə ərzində qazı yaymağa başlayır. Əl qaz qumbarası atıldıqdan sonra maksimum 20 (iyirmi) saniyə ərzində içərisindəki qazı tam yayır. Ümumi çəkisi maksimum 400 (dörd yüz) qramdır. Əl qaz qumbarasının nümayişçilər tərəfindən geri atılmaması üçün minimum 30 (otuz) sm, maksimum 10 (on) metrlik ərazidə qeyri nizami hərəkət etməklə yerdən qazı yayma xüsusiyyətinə malikdir. Saxlama müddəti 4 (dörd) ildir. Hindistan istehsalıdır.

### d) Tüstü qumbaraları

Kütləyə psixoloji təsir göstərməklə onların dağılışmasını təmin etmək və təhlükəsizlik qüvvələrinin hərəkətlərini gizlətmək üçün istifadə olunan əl qumbarasıdır. Qumbaranın aktiv maddəsi alışqan ağ fosfatdır. Yanmaya başladıqdan sonra suya düşsə belə özünü məhv edənə qədər yanmağa davam edir. Onlar ətrafa yayılarkən gözyaşardıcı maddə yayan qumbaralarla eyni zahiri görünüşə malik olurlar. Məhz bu xüsusiyyətinə görə kütlə onu gözyaşardıcı maddə ilə səhv salarkən ətrafdakı vətəndaşların qazdan təsirlənməsinin qarşısı alınır.

### e) Han-Ball rezin tüstü qumbaraları




Han-Ball tüstü əl qaz qumbarası “Defense Technology” tərəfindən hazırlanmış təlim vəsaitidir. Han-Ball tüstü əl qaz qumbarası hədəflənən yerə qatı duman/tüstü buraxmaq üçün hazırlanıb. 2006-cı ildə istehsal edilib. Qumbaranın içərisindəki vəsait qaz çıxışı kanallarından tüstü/duman formasında xaric olaraq ətrafa yayılır. Qumbaranı əllə və

ya müvafiq adapterlə atıla bilər.

### ə) “Model-303” gözyaşardıcı si-es (CS) qaz qumbarası.

**Təyinatı:** Qumbara silah və əl ilə atıldıqda bir neçə dəfə sıçrayır. Hər sıçradıqda qumbaradan si-es (CS) qazı ayrılır. Bu qumbaralar açıq sahədə kütləvi iğtişaşların qarşısının alınmasında istifadə olunur.

**Döyüş xüsusiyyətləri:**

| | | | | |
|---|---|---|---|---|
| - | Diametri | - | 80 (±3) | mm |
| - | Qumbaranın çəkisi | - | 350 | qr. |
| - | Tərkibi | - | si-es (CS) | tüstü |
| - | Qazın yayılma vaxtı | - | 7-12 | san. |
| - | Qumbaranın partlama vaxtı | - | 3,5 (±0,5) | san. |
| - | Yaratdığı gözyaşardıcı tüstü sahəsi | - | 900 | $m^2$. |
| - | Təhlükəsizlik məsafəsi | | 1,5 | m. |



### f) “Model-G303-STOC” gözyaşardıcı bibər (OC) qaz qumbarası

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | Diametri | - | 80 (±3) | mm |
| - | Qumbaranın çəkisi | - | 235 (±15) | qr. |
| - | Tərkibi | - | bibər (OC) | tozu |
| - | Qumbaranın partlama vaxtı | - | 3,5 (±0,5) | san. |
| - | Səsin gücü | - | 135 | db. |
| - | Yaratdığı gözyaşardıcı tüstü sahəsi | - | 300 | $m^2$. |
| | Təhlükəsizlik məsafəsi | | 1,5 | m. |




### g) “Model-G303-STRB” rezin qırmalı işıq-səs qumbarası

**Təyinatı:** kütləvi iğtişaşların qarşısının alınması zamanı kütlənin dağıdılması üçün nəzərdə tutulub.

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | Diametri | - | 80 | mm |
| - | qumbaranın çəkisi | - | 275 | qr. |
| - | qırmaların sayı | - | 40 | ədəd |
| - | işığın gücü | - | 10 | mkd. |
| - | səsin gücü | - | 130 | db. |
| - | partlama müddəti | - | 3,5+1 | san. |
| - | təhlükəsizlik məsafəsi | - | 1,5 | m. |



## ğ) “Model-2020” gözyaşardıcı si-es (CS) qazı, səs və bibər (OC) toz qumbarası

**Təyinatı:** “Model – 2020” tipli gözyaşardıcı si-es (CS) qazı, səs və bibər (OC) toz qumbarası silah və ya əl ilə atıla bilər. Qumbaranı silahdan və ya əl ilə atdıqdan sonra ilkin olaraq tüstü si-es (CS) qazı, bir neçə saniyədən sonra səs və bibər (OC) tozu ətrafa yayılır.

**Döyüş xüsusiyyətləri:**

| | | | | |
|---|---|---|---|---|
| - | Diametri | - | 68 ± 2 | mm |
| - | qumbaranın çəkisi | - | 360 ± 25 | qr. |
| - | tərkibi | - | CS tüstüsü və OC tozu | |
| - | partlama müddəti | - | 3,5 ± 0,5 | san. |
| - | qazın yayılma vaxtı | - | 7-12 | san. |
| - | səsin gücü | - | 120 | db. |
| - | yaratdığı gözyaşardıcı tüstü sahəsi | | 500 | m². |
| - | təhlükəsizlik məsafəsi | - | 1,5 | m. |



## h) “Model-3030” gözyaşardıcı qaz, səs və rezin qırmalı qumbara

**Təyinatı:** “Model 3030” tipli gözyaşardıcı qaz, səs və rezin qırmalı qumbara silah və ya əl ilə atıla bilər. Qumbaranı silahdan və ya əl ilə atdıqdan sonra öncə CS (si-es) qazı bir neçə saniyədən sonra səs və 50 m radiusunda rezin qırmalar ətrafa yayılır.

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | Diametri | - | 68 ± 2 | mm |
| - | qumbaranın çəkisi | - | 330 ±30 | qr. |
| - | tərkibi | - | CS qazı və rezin qırmalar | |
| - | partlama müddəti | - | 3,5 ± 0,5 | san. |
| - | qazın yayılma vaxtı | - | 5 ±1 | san. |
| - | səsin gücü | - | 130 | db. |
| - | yaratdığı gözyaşardıcı tüstü sahəsi | | 500 | m². |
| - | təhlükəsizlik məsafəsi | - | 1,5 | m |



### x) “Model-4040” gözyaşardıcı qaz, səs və qırmızı rəngli boya qumbarası

**Təyinatı:** “Model 4040” tipli gözyaşardıcı qaz, səs və qırmızı rəngli boya qumbarası silah və ya əl ilə atıla bilər. Qumbaranı silahdan və ya əl ilə atdıqdan sonra ilkin olaraq si-es (CS) qazı, bir neçə saniyədən sonra səs və qırmızı rəngli boya ətrafa yayılır.

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | Diametri | - | 68 ± 2 | mm |
| - | qumbaranın çəkisi | - | 275 ± 30 | qr. |
| - | tərkibi | - | CS qazı və rəngli boya | |
| - | partlama müddəti | - | 3,5 ± 0,5 | san. |
| - | qazın yayılma vaxtı | - | 6 ± 1 | san. |
| - | səsin gücü | - | 130 | db. |
| - | yaratdığı gözyaşardıcı tüstü sahəsi | | 500 | $m^2$. |
| - | təhlükəsizlik məsafəsi | - | 1,5 | m. |




### ı) “Model-5050” gözyaşardıcı qaz, səs və qırmızı rəngli yapışqanlı qumbara

**Təyinatı:** “Model 5050” gözyaşardıcı qaz, səs və qırmızı yapışqan qumbarası silah və ya əl ilə atıla bilər. Qumbaranı silahdan və ya əl ilə atdıqdan sonra öncə si-es (CS) qazı bir neçə saniyədən sonra səs və rəngli yapışqan yayılır.

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | Diametri | - | 68 ± 2 | mm. |
| - | qumbaranın çəkisi | - | 320 ± 30 | qr. |
| - | qumbaranın hündürlüyü | - | 155 ± 5 | mm. |
| - | tərkibi | - | CS və rəngli yapışqan | |
| - | qumbaranın partlama müddəti | - | 3,5 ± 0,5 | san. |
| - | qazın yayılma vaxtı | - | 6 ± 1 | san. |
| - | səsin gücü | - | 130 | db. |
| - | Yaratdığı gözyaşardıcı tüstü sahəsi | | 500 | $m^2$. |
| - | təhlükəsizlik məsafəsi | - | 1,5 | m. |



## i) “teren-6” gözyaşardıcı qaz qumbarası

**Təyinatı:** Gözyaşardıcı qaz qumbarası (bundan sonra-xüsusi vasitə) tərkibində dözülməz konsentrasiyalı gözyaşardıcı-qıcıqlandırıcı təsirə malik maddə olan tüstünün ani səpələnməsi üçün təyin olunub.

Xüsusi vasitə ictimai asayişin mühafizəsi zamanı açıq ərazidə və ərazisi böyük olan qapalı sahədə tətbiq edilə bilər.

Döyüş xüsusiyyətləri:

| | | | | | |
|---|---|---|---|---|---|
| - | qumbaranın hündürlüyü | - | 185 | mm. |
| - | diametri | - | 63 | mm. |
| - | qumbaranın doldurulmuş halda çəkisi | - | 140 | gr |
| - | partlama müddəti | - | 3,5±1 | san. |
| - | minimum istifadə olunma məsafəsi | - | 1,5 | m. |
| - | Yaratdığı gözyaşardıcı tüstü sahəsinin həcmi | - | 150-180 | m³. |



**Yanğına qarşı təhlükəlidir.**




Qumbaranın hissə və mexanizmiləri:

1. Gövdə.
2. Qoruyucu-işəsalma mexanizmi.
3. Halqa.
4. Şpilint.
5. Tətik dəstəyi.
6. Gövdənin yivi.

Bu sursatlar həm əl ilə, həm də digər vasitələrlə atıla bilər.
Müvafiq sursatlar tüstü pərdəsi yaratmaq və işarə vermək məqsədi ilə tətbiq olunur.

## j) Model G705 WS

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | çəkisi | - | 315 | qr. |
| - | Uzunluğu | - | 150 | mm. |
| - | Diametri | - | 60 | mm. |
| - | tərkibi | - | | ağ tüstü. |
| - | tüstünün yayılma vaxtı | - | 8-12 | san. |
| - | alışma müddəti | - | 3 | san. |
| - | qumbaranın materialı | - | | alüminium |
| - | yaratdığı gözyaşardıcı tüstü sahəsinin həcmi | - | 300 | m². |
| - | təhlükəsizlik məsafəsi | | 1.5 | m. |



Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | çəkisi | - | 315 | qr. |
| - | Uzunluğu | - | 150 | mm. |
| - | Diametri | - | 60 | mm. |
| - | tərkibi | - | | ağ tüstü. |
| - | tüstünün yayılma vaxtı | - | 8-12 | san. |
| - | alışma müddəti | - | 3 | san. |
| - | qumbaranın materialı | - | | alüminium |
| - | yaratdığı gözyaşardıcı tüstü sahəsinin həcmi | - | 300 | $m^2$. |
| - | təhlükəsizlik məsafəsi | | 1.5 | m. |



## k) "teren-7" işıq - səs qumbarası

**Təyinatı:** Qumbara psixoloji-iradi dözümlülüyün yüksək intensivliyə malik işıq və səs impulsu vasitəsilə müvəqqəti dəf edilməsi yolu ilə qanuna zidd hərəkətlərin qarşısının alınması üçün təyin olunub.

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | hündürlüyü | - | 135 | mm. |
| - | diametri | - | 60 | mm. |
| - | partlama müddəti | - | 2,5±0,5 | san. |
| - | minimum istifadə olunma məsafəsi | - | 1,5 | m. |
| - | 1,5 m məsafədə səsin gücü | - | 165±10 | db. |
| | qumbaranın doldurulmuş halda kütləsi | | 158 | gr |
| - | işığın gücü | - | 10 | mkd. |




## q) "teren-7m" işiq - səs qumbarası

**Təyinatı**: işiq-səs qumbarası hüquq pozucularına qarşı psixoloji təsir göstərməklə qapalı və açıq sahələrdə (binalarda, avtobuslarda) istifadə olunur. Qumbaranın gövdəsi bir-neçə dəfə istifadə olunan dəmir konteynerdən və buraxıcı mexanizmin qoruyucusundan ibarətdir. Binalarda, avtobuslarda gizlənən hüquq pozucularına qarşı istifadə edərkən dəmir konteyner şüşə pəncərənin sınmasını təmin edir .

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | hündürlüyü | - | 130 | mm. |
| - | diametri | - | 50 | mm. |
| - | partlama müddəti | - | 2,5±0,5 | san. |
| - | çəkisi | - | 680±50 | qr. |
| - | minimum istifadə olunma məsafəsi | - | 1,5 | m. |
| - | 1,5 m məsafədə səsin gücü | - | 165±10 | db. |
| - | işığın gücü | - | 10 | mkd. |

**Təyinatı:** adaptordan Model 1010, 2020, 3030, 4040, 5050, 303 və 303 STRB qumbaralarının istənilən silahdan atmağa imkan verir

## 3. GÖZYAŞARDICI AEROZOL QAZ BALONU

Aerozollar mükəmməl müdafiə vasitəsi olmaqla yanaşı, gücdən istifadə etmədən nümayişçi və ya qanun pozucuların öhdəsindən gələn effektiv vasitədir. Bununla belə, dozasında və şüurlu şəkildə istifadə edilməlidir.




### a) TW 1000 gözyaşardıcı aerozol:




- Aerozolun tərkibindəki vəsaitin miqdarı 90 (doxsan) qramdır.
- Aerozolun tərkibində minimum 5 %, maksimum 10 % nisbətində tam təbii OC qatqısı var.
- İstifadəçinin xəbəri olmadan aerozolun səhvən işə düşməsini önləmək üçün fitilin üstündə plastik qapaq mövcuddur.
- Aerozolun tərkibindəki çiyrəndirici və daşıyıcı maddələr insana və ekologiyaya zərərli deyil, həmçinin alovlanmır.
- Minimum 1 (bir) metrdən sonra aerozol formasında səpələnmə başlayır.
- Aerozolu minimum 2 (iki), maksimum 5 (beş) metr məsafəyə sıxmaq mümkündür.
- Təxminən 12 dəfə püskürdülə bilər.
- Saxlama müddəti 4 ildir. Almaniya istehsalıdır.

### b) Gözyaşardıcı aerozol




- ➪ Aerozolun tərkibindəki vəsaitin miqdarı 90 (doxsan) qramdır.
- ➪ Aerozolun tərkibində minimum 5 %, maksimum 10 % nisbətində tam təbii OC qatqısı var.
- ➪ İstifadəçinin xəbəri olmadan aerozolun səhvən işə düşməsini önləmək üçün fitilin üstündə plastik qapaq mövcuddur.
- ➪ Aerozolun tərkibindəki çiyrəndirici və daşıyıcı maddələr insana və ekologiyaya zərərli deyil, həmçinin alovlanmır.
- ➪ Minimum 1 (bir) metrdən sonra aerozol formasında səpələnmə başlayır.
- ➪ Aerozolu minimum 2 (iki), maksimum 5 (beş) metr məsafəyə sıxmaq mümkündür.
- ➪ Təxminən 12 dəfə püskürdülə bilər.
- ➪ Saxlama müddəti 4 ildir. Almaniya istehsalıdır

### c) “Teren-4m” Gözyaşardıcı Aerozol Qaz Balonu

**Təyinatı:** Aerozol qaz balonu hüquq pozan şəxslərə qarşı birbaşa tətbiq edilir və onlara qıcıqlandırıcı gözyaşardıcı təsir göstərir.

Döyüş xüsusiyyətləri:

| | | | |
|---|---|---|---|
| - | hündürlüyü | - 125 | mm. |
| - | diametri | - 35 | mm. |
| - | aktiv tərkibin ətrafa yayılma məsafəsi | - 2,5 | m. |
| - | balonun çəkisi | - 72-76 | gr |
| - | istifadə olunma məsafəsi | - 1,5-2 | m. |
| - | istifadə olunma temperaturu | - -8 +45º | S. |



## 4. GÖZYAŞARDICI QAZATAN QURĞULAR

a) “MODEL – 5”

Qazatan qurğular gözyaşardıcı aerozollar ilə eyni metodla çalışır, lakin daha uzaq mənzilə və qələbəlik qruplar üzərində daha ciddi təsirə malikdir. Tərkibində CS və OC məhlulu və çiyrəndirici $CO_2$ maddəsi var. Uçuş mənzili 15 metrdir, lakin küləyin gücündən maksimum istifadə etməklə 60 metr məsafəyə qədər atmaq mümkündür. Qurğunun ən mühüm xüsusiyyəti ondadır ki, onu təkrar doldurmaq mümkündür. Beş ildən bir təzyiq testindən keçməlidir.



Xalis çəkisi: 6±0.5 kg.
Dolu vəziyyətdə ağırlığı (brutto): 8±0.5 kg .
Uzunluğu: 69±1 cm.
Silindrin diametri: 10.6±0.2 cm.
Daxili təzyiq: 45 AT

Qazatan qurğulardan qələbəlik qruplara qarşı ən effektiv şəkildə qısa məsafəli atışlarla istifadə etmək mümkündür. Atışlar edilərkən küləyin istiqaməti düzün hesablanmalıdır və 3 metrdən az məsafədə yerləşən hədəflərə qarşı istifadə edilməməlidir. İstifadədən sonra qurğunun nəzarətdən kənar atış etməməsi üçün təhlükəsizlik sıxacı fitilin qoluna keçirilməli və qoruyucu başlıq lülənin ağzına taxılmalıdır.



Boş ağırlığı: 4.600 ± 200 (ikiyüz) gram

Silindir Çapı: 12 (oniki) cm ( +/-1 cm)

İç basınç: 250 AT

Atış Kapasitesi: 60 atım (her biri birer saniye)

Təyinatı: Kütləvi iğtişaşlarda və antiterror əməliyyatlarında istifadə olunan xüsusi qurğu “Model-5” əsasən gözyaşardıcı qazların (CS/CN/CO) atılması üçün istifadə olunur. Qurğu açıq ərazidə kütləvi iğtişaşların qarşısının alınması zamanı sakit havada 20-60 metr məsafədən bir neçə saniyə ərzində təsir göstərmək üçün nəzərdə tutulmuşdur.

Döyüş xüsusiyyətləri:




| | | | |
|---|---|---|---|
| - silahın ölçüləri | - | 11.0 x 70.0 | sm. |
| - dolu vəziyyətdə çəkisi | - | 7,5 | kq. |
| - atış məsafəsi | - | 20-60 | m. |
| - ümumi tutumu | - | 2 CS/CN/CO | kq. |
| - si-es (CS) qazı | - | 1,2 | litr. |
| - karbon dioksid qazı (CO) | - | 0,8 | kq. |
| - təhlükəsizlik məsafəsi | - | 20 | m. |
| Yaratdığı gözyaşardıcı qazın həcmi | - | 1500 | m². |

Boş qurğu doldurula bilər

## b) Gözyaşardıcı qazatan qurğu

**Təyinatı:** Kütləvi iğtişaşlarda və antiterror əməliyyatlarında istifadə olunan gözyaşardıcı qazatan qurğu toz halında olan Si-Es (CS) qazının atılması üçün istifadə olunur. Qurğu açıq ərazidə kütləvi iğtişaşların qarşısının alınması zamanı sakit havada 1.5-30 metr məsafədən bir neçə saniyə ərzində təsir göstərmək üçün nəzərdə tutulmuşdur.

**Döyüş xüsusiyyətləri:**



| | | | |
|---|---|---|---|
| - effektiv atış məsafəsi | - | 15-30 | m. |
| - dolu vəziyyətdə çəkisi | - | 9,5 | kq. |
| - balonunun tutumu | - | 2,8 CS | kq. |
| - fasiləsiz istifadə müddəti | - | 18-30 | san. |
| - işçi təzyiq | - | 40 | atm. |
| - istifadə temperaturu | - | -30 + 50° | C. |
| - Yaratdığı gözyaşardıcı tüstü sahəsinin həcmi | - | 2000 | m². |
| - təhlükəsiz məsafə | - | 1.5 | m. |

**Boş qurğu doldurula bilər.**

## 5. QAZ TÜFƏNGLƏRİ

### a) 37/38 mm. qaz tüfəngi

37/38 mm kalibrli raket və fişəngləri atmaq üçün istehsal edilmiş çox sadə və möhkəm konfiqurasiyaya, həmçinin boruyaoxşar lüləyə malik, yiv və dəsti olmayan tək atışlıq tüfəngdir. Tüfəng ikitərəfli atəş açma sisteminə malikdir, lakin təhlükəsizlik açarı yoxdur. Paslanmayan metaldan hazırlanmışdır.







Tüfəngin doldurulması üçün lülənin gövdə ilə birləşdiyi yerdə yerləşən kilidləmə qurğusu yuxarı qaldırılır və ov tüfənglərində olduğu kimi lülə ortadan bükülərək açılır. Fişəng boşluğuna 1 ədəd 37/38 mm kalibrli fişəng yerləşdirilir və lülə yuxarı qaldırılaraq bağlanır. Beləcə, silah atəş açmağa hazır vəziyyətə gəlir.

Silah gizli tətik kimi tanınan sistemə malikdir. Tətik ikitərəfli hərəkət etdiyi üçün silahı qurmağa ehtiyac qalmır. Tətik çəkilərkən iynə fişəng kapsuluna zərbə endirərək atəş açır. Atışdan sonra tüfəngi boşaltmaq üçün kilidləmə qurğusu yuxarı qaldırılır və içindəki boş patron çıxarılır. Hər atış üçün bu əməliyyat təkrarlanmalıdır. Silahın ağırlığı 3.5 kg, uzunluğu 74 sm-dir.

## b) 38 mm-lik Tapança

**Təyinatı:** əməliyyat rəhbərinin göstərişinə əsasən kütləvi iğtişaşın qarşısının alınması zamanı rezin güllələrdən və qaz patronlarından istifadə etməklə kütlənin dağıdılması üçün nəzərdə tutulub. Silah yalnız xüsusi hazırlıq keçmiş Daxili Qoşunların şəxsi heyəti və DİO əməkdaşları tərəfindən istifadə edilir.

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | Çapı | - | 38 | mm. |
| - | çəkisi | - | 1,2 | kq. |
| - | Uzunluğu | - | 312 | mm. |
| - | effektiv atış məsafəsi | - | 60-100 | m. |
| - | Tutumu | - | | tək-tək. |
| - | təhlükəsizlik məsafəsi | - | | var. |



## c) 64mm-lik 6 lüləli Göz Yaşardıcı qazatan qurğu

**Təyinatı:** kütləvi iğtişaşların qarşısının alınması zamanı kütlənin dağıdılması və tüstü pərdəsinin yaradılması üçün nəzərdə tutulub.

**Döyüş xüsusiyyətləri:**

| | | | |
|---|---|---|---|
| - çəkisi | - | 85 | kq. |
| - ölçüləri | - | 400x380x260 | mm. |
| - çapı | - | 64 | mm. |
| - tutumu | - | 6 | ədəd. |
| - Atış tempi | - | tək-tək və avtomatik | |
| - effektiv atış məsafəsi | - | 150-400 | m. |
| - qalxma bucağı | - | $10^0$-$60^0$ | |
| - dönmə bucağı | - | $75^0$ | |
| - təhlükəsizlik məsafəsi | - | 150 | m. |



## ç) 37/38 mm qaz fişəngi

Hər fişəng tərkibində CS duman çıxaran məhlul olan alüminim və ya karton qutudan, zərbə başlığından və preslənmiş şarjdan ibarədir.

Fişəng birbaşa hədəfin üzərinə atılarsa yaralanma və ya ölümlə nəticələnə bilər. Bu səbəbdən polis əməkdaşı tüfənglə müəyyən bucaqdan atəş açmaqla fişəngi hədəfin üzərinə atmamağa çalışmalıdır. Silahın mənzili hava şəraiti və bucağa görə dəyişir. Silahın mənzili orta hesabla təxminən 90 dərəcə bucaqda 75-100 m, 45 dərəcə bucaqda 100-150m, 180 dərəcə bucaqda isə 25-50 metrdir. Atəş açıldıqdan təxminən 2 saniyə sonra fişəngdən qaz çıxmaya başlayır və təxminən 15 saniyə ərzində tam boşalır. Daxilindəki vəsaiti yanaraq yayma metodundan istifadə etməklə çıxardığı üçün yanğın meydana gələ bilər. Bu səbəbdən, fişəng qapalı ərazilərdə istifadə edilməməlidir. Aktiv gözyaşardıcı maddəsi CS-dir. Havaya ağ toz buludu formasında yayılır. Saxlama müddəti 5 ildir.



### d) 37/38 mm çəpər dələn qaz fişəngi

Çəpər fişəngindən zərbə endirməklə istifadə olunur. Fişəngin daxilindəki maye halında CS maddəsi zərbənin təsirindən ətrafa yayılır. Qapalı ərazilərə müdaxilə zamanı istifadə olunur.



### e) “model - 850y” gözyaşardıcı qaz patronu

Döyüş xüsusiyyətləri:

| | | | | | |
|---|---|---|---|---|---|
| - | Çapı | - | 37/38 | mm |
| - | patronun çəkisi | - | 130 | qr. |
| - | patronun uzunluğu | - | 120 | mm |
| - | tərkibi | - | CS | tüstü |
| - | qazın yayılma vaxtı | - | 20 | san. |
| - | effektiv atış məsafəsi | - | 80-130 | m. |
| - | yaratdığı gözyaşardıcı tüstü sahəsi | - | 400 | m². |
| - | gilizin materialı | - | plastik. | |
| - | təhlükəsizlik məsafəsi | - | 80 | m. |
| - | patronun saxlanma müddəti | - | 5 | il. |




### ə) “Model - 850RL” rezin başlıqlı gözyaşardıcı qaz patronu

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | Çapı | - | 37/38 | mm |
| - | patronun çəkisi | - | 230 | Qr. |
| - | patronun uzunluğu | - | 160 | mm |
| - | tərkibi | - | CS | Tüstü |
| - | qazın yayılma vaxtı | - | 20 | san. |
| - | effektiv atış məsafəsi | - | 80-130 | m. |
| - | yaratdığı gözyaşardıcı tüstü sahəsi | - | 400 | M². |
| - | gilizin materialı | - | Alüminium | |
| - | təhlükəsizlik məsafəsi | - | 80 | m. |
| - | patronun saxlanma müddəti | - | 5 | il. |



## f) “Model - 850TS-P” gözyaşardıcı qaz və səs patronu

Döyüş xüsusiyyətləri:

| | | | |
|---|---|---|---|
| - çapı | - | 37/38 | Mm |
| - patronun çəkisi | - | 133 | qr. |
| - patronun uzunluğu | - | 120 | Mm |
| - tərkibi | - | CS | tüstü |
| - səsin gücü | - | 135 | db. |
| - qazın yayılma vaxtı | - | dərhal | |
| - effektiv atış məsafəsi | - | 80-130 | m. |
| - yaratdığı gözyaşardıcı tüstü sahəsi | - | 150 | m². |
| - gilizin materialı | - | Plastik | |
| - təhlükəsizlik məsafəsi | - | 80 | m. |
| - patronun saxlanma müddəti | - | 5 | il. |




## g ) Model C 850r-Css-St– Rezin Başlıqlı Gözyaşardıcı Qaz Və Səs Patronu

Döyüş xüsusiyyətləri:

| | | | |
|---|---|---|---|
| - hündürlüyü | - | 155 | mm. |
| - çəkisi | - | 210±15 | qr. |
| - aktiv kimyəvi maddə | - | CS | tüstü. |
| - ləngimə vaxtı | - | 2 | san. |
| - qazın yayılma vaxtı (səsli partlayışa qədər) | - | | dərhal. |
| səsin gücü | - | 135 | db. |
| - effektiv atış məsafəsi | - | 80-130 | m. |
| - Yaratdığı gözyaşardıcı tüstü sahəsinin həcmi | - | 400 | m². |
| - təhlükəsizlik məsafəsi | - | 80 | m. |
| - patronun davamlılıq müddəti | - | 5 | il. |




## ğ) model c 850-1-rb – rezin qırmalı patron

Döyüş xüsusiyyətləri:

| | | | |
|---|---|---|---|
| - çəkisi | - | 190 | qr. |
| - hündürlüyü | - | 120 | mm. |
| - qırmaların sayı | - | 1 | ədəd. |
| - qırmanın çəkisi | - | 135 | qr. |
| - effektiv atış məsafəsi | - | 40-60 | m. |
| - gilizin materialı | - | | alüminium. |
| - təhlükəsizlik məsafəsi | - | 40 | m. |
| - patronun davamlılıq müddəti | - | 5 | il. |



## h) model c 850-x-rba rezin qırmalı patron

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | çəkisi | - | 190 | qr. |
| - | hündürlüyü | - | 120 | mm. |
| - | qırmaların sayı | - | 28 | ədəd. |
| - | qırmaların çəkisi | - | 1,5 | qr. |
| - | effektiv atış məsafəsi | - | 20-30 | m. |
| - | gilizin materialı | - | | alüminium. |
| - | təhlükəsizlik məsafəsi | - | 20 | m. |
| - | patronun davamlılıq müddəti | - | 5 | il. |




## x) model c 850 r-ws – rezin başlıqlı patron

Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | hündürlüyü | - | 155 | mm. |
| - | ümumi çəkisi | - | 165 | qr. |
| - | daxili güllənin çəkisi | - | 115 | qr. |
| - | tərkibi | - | | ağ tüstü. |
| | tüstünün yayılma vaxtı | - | 8-10 | san. |
| - | alışma müddəti | - | 3 | san. |
| - | effektiv atış məsafəsi | - | 80-130 | metrə qədər. |
| - | Yaratdığı gözyaşardıcı tüstü sahəsinin həcmi | - | 300 | $m^2$. |
| - | Materialı | - | | alüminium. |
| - | təhlükəsizlik məsafəsi | - | 80 | m. |
| - | patronun davamlılıq müddəti | - | 5 | il. |



## 6. FN 303 MÜDAFIƏ TÜFƏNGİ




**FN 303 fişəngatıcının xüsusiyyətləri:**

- Hava təzyiqli
- Kinetik enerjili
- İnsan həyatı üçün minimum risk
- Yarımavtomat

**FN 303 Texniki məlumatı:**

- Tətiyin ağırlığı : 3.6KG
- Təhlükəsizlik : Əl açarı ilə
- Təzyiq : Sabit
- Hava borusunun atəş həcmi : 110 atəş (7 sandıq)
- Lülələdən fişəngin çıxış sürəti : 85–90 m/s
- Lülənin uzunluğu : 25 sm
- Temperatur : -30°C dən+65°C yə qədər temperaturda istifadə etmək mümkündür.

**FN 303 üstün cəhətləri:**

- Rahat istifadə, minimum geriyə təpmə, stressli şəraitdə cəld reaksiya vermə imkanı
- Qısa təhlükəsizlik məsafəsi: 1 metrə məsafədən atışda minimum yaralama riski
- Çevik; müxtəlif növdə fişənglər və aksesuarlar

**FN 303 fişəngləri və təsirləri:**

- Ən önəmli təsiri: travma, şok (50 metrdə 22 coul gücündə) yaratmaqla qanun pozucuları dərhal zərərsizləşdirir.
- İkinci dərəcəli təsir: Fişəngin daxilindəki kimyəvi məhlul
- Effektiv zərbə anında fərdə maksimum təsir göstərir. 15 metrdə 29 coulluq kinetik zərbə təsiri şübhəli şəxsi dərhal neytrallaşdırır.
- 50 metrə qədər hədəfi dəqiq nişan alır.
- Öldürücü deyil, FN 303 minimum risk daşıyan fişəngləri atmaq üçün hazırlanıb.

### FN 303 ün istifadə təyinatı:

- Üsyan və qiyamların nəzarət altına alınması
- Asayişin təmin edilməsi
- Aqressiv şəxslərin işarələnməsi
- Sahə atəşi əvəzinə nöqtə atışı etmək
- Çəpər arxasındakı şübhəlilərin zərərsizləşdirilməsi

### FN 303 fişənglərinin görünüşü

**Zərbə başlığı**
100% zəhərsiz qlikol tərkibli maddə



**Silinməyən boya**
Lateks tərkibli polimer boya: neft-kimyəvi maddə



**Silinən (yuyula bilən) boya**
Çəhrayı, qlikol tərkibli fluoresyent (lüminessensiyalı) maddə



**OC (Qırmızı bibər) Bibər qazı**
narıncı rəngdə, zəhərsiz, qlikollu, tərkibində +10 % bibər məhlulu olan maddə



## 7. “12 mm POMPALI TÜFƏNG”

**Təyinatı:** kütləvi iğtişaşların qarşısının alınması zamanı rezin güllələrdən istifadə etməklə kütlənin dağıdılması üçün nəzərdə tutulub.





| Döyüş xüsusiyyətləri: | | Safari PN-001 | | | 12 mm pompalı tüfəng | |
|---|---|---|---|---|---|---|
| - çapı | - | 12 | mm | - | 12 | mm |
| - patron xəzinəsinin uzunluğu | - | 76 | mm | - | 76 | mm |
| - xəzinənin tutumu | - | 4 | ədəd | - | 5 | ədəd |
| - lülənin uzunluğu | - | 560 | mm | - | 615 | mm |
| - patronsuz tüfəngin çəkisi | - | 3,250 | kq. | - | 2,950 | kq. |
| - tüfəngin uzunluğu | - | 1060 | mm | - | 1110 | mm |
| - güllənin orta surəti: | | | | | | |
| qırmalı güllə | - | 300 | m/s. | - | 300 | m/s. |
| elastik güllə | - | 380 | m/s. | - | 300 | m/s. |
| - | | | | | | |

Təhlükəsizlik məsafəsi sursatlara görə müəyyən olunur.

**Qeyd:** texniki şərtə uyğun olaraq karteçin ən azı 40%-i hədəfə dəyməlidir.

## 8. "TEREN –12 K" (KARTEÇLİ) VƏ "TEREN – 12 P" MARKALI ELASTİK GÜLLƏLƏR

**Təyinatı:** Karteç və elastik güllələli patronlar, xəzinəsinin uzunluğu 69,9±2, 12 mm çapında silindir formasında deşilmiş, özünü müdafiə məqsədi ilə yivsiz lüləli tüfəngdən atəş açmaq üçün təyin edilir. Kütləvi iğtişaşların qarşısının alınması zamanı kütlənin dağıdılması üçün "Safari PN-001" tüfəngi vasitəsi ilə atılması nəzərdə tutulub.

### "Teren –12 K" - rezin qırmalı patron.

Döyüş xüsusiyyətləri:

| | | | |
|---|---|---|---|
| - çapı | - | 12x65 | mm. |
| - çəkisi | - | 6,3±0,4 | qr. |
| - effektiv atış məsafəsi | - | 3,5-15 | m. |
| - qırmaların sayı | - | 24 | ədəd |
| - patronun uzunluğu | - | 65±1 | mm. |
| - təhlükəsiz məsafə | - | 3,5 | m. |



### "Teren –12 P" elastik patron.

Döyüş xüsusiyyətləri:

| | | | |
|---|---|---|---|
| - çapı | - | 12 | mm |
| - patronun çəkisi | - | 7,8±0,4 | qr. |
| - patronun uzunluğu | - | 65±1,8 | mm |
| - qırmaların sayı | - | 1 | ədəd |
| - effektiv atış məsafəsi | - | 20-35 | m. |
| - təhlükəsizlik məsafə | - | 20 | m. |



Patronlar xüsusi hazırlanmış patron üçün çantada bel kəmərinə bərkidilmiş qaydada gəzdirilir. Patronlar bir funksialıdır, bərpa və təmir edilmir. Patron -15 Sº-dən + 40 So temperatur aralıqlarında istifadəyə yararlıdır.

**Təhlükəsizlik qaydaları:**

1. Patronları göstərilən məsafədən yaxına istifadə etmək **qəti qadağandır:**
2. 20 m – “Teren-12P“ ilə atış zamanı;
3. 3,5 m – “Teren-12K“ ilə atış zamanı.
4. “Teren 12P” və “Teren 12K” patronlari ilə lülәsi daralan tüfəngdən atmaq qadağandır.

**12 mm-lik rezin qırmalı patronlar.**

▶ Üstün cəhətləri:

12 çaplı zərbə mərmiləri ağrıyaradıcı olaraq 1 hədəfə və aqressivləşmiş kütləyə qarşı istifadə üçün nəzərdə tutulmuşdur. Bu sursatlar öldürücü təsirə malik deyildir. Müvafiq mərmilər gözyaşardıcı xüsusi vasitələrin tədbiq olunması məqsədə müvafiq hesab edilməyən yerlərdə istifadə olunur.

## c) CO12-9-RBA-8 - rezin qırmalı patron




Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | hündürlüyü | - | 60 | mm. |
| - | çapı | - | 12 | mm. |
| - | çəkisi | - | 15 | qr. |
| - | qırmaların sayı | - | 9 | ədəd. |
| - | effektiv atış məsafəsi | - | 10-20 | m. |
| - | maksimum atış məsafəsi | - | 30 | m. |
| - | materialı | - | | plastik. |
| - | təhlükəsizlik məsafəsi | - | 10 | m. |

## d) CO12-18-RBA-8 – rezin qırmalı patron




Döyüş xüsusiyyətləri:

| | | | | |
|---|---|---|---|---|
| - | hündürlüyü | - | 65 | mm. |
| - | çapı | - | 12 | mm. |
| - | çəkisi | - | 15 | qr. |
| - | qırmaların sayı | - | 18 | ədəd. |
| - | effektiv atış məsafəsi | - | 10-20 | m. |
| - | maksimum atış məsafəsi | - | 30 | m. |
| - | Materialı | - | | plastik. |
| - | təhlükəsizlik atiş məsafəsi | - | 10 | m. |

## 9. ƏLEYHQAZLAR VƏ SÜZGƏCLƏR

### a) Əleyhqazlar

Gözləri və sifəti örtməklə istifadəçini kimyəvi, bioloji və radioaktiv maddələrdən qoruyan maskadır.




Əleyhqazı geyinən istifadəçi nəfəs aldığı vaxt hava filtrdə təmizlənərək əleyhqazın sifət hissəsinə daxil olur. Filtr aktiv kömürdən ibarətdir. Nəfəs alarkən filtr tutqacının daxilinə yerləşdirilmiş giriş klapanı açılır və filtrdən daxil olan təmiz havanın içəriyə girməsini təmin edir. Nəfəs buraxılanda isə klapan açılaraq istifadə edilmiş havanı çölə çıxarır.

Fərdi tənzimləmə

Qaz sızmasının qarşısını almaq üçün əleyhqazın baş kəmərlərini müvafiq səviyyəyə qədər dartmaq lazımdır, əks halda gicgahı sıxa bilər və ümumi narahatlığa səbəb olar. Əleyhqazı geyinəndə çənənizi əleyhqazın sifət hissəsinə yerləşdirərkən baş kəmərini başınızın arxasında mərkəzləyin və bir əlinizlə tutun, digər əlinizlə alın kəmərlərini azca bağlayın (baş kəmərini ani və sürətli çəkməklə daha asan tənzimləmək mümkündür).

**Əleyhqazın sifətə uyğunluğunu yoxlamaq:** Göz bəbəyi ilə şüşə gözlüklərin mərkəzləri eyni istiqamətdə olmalıdır. Əleyhqazdan istifadə edərkən ehtiyatlı olmaq lazımdır. Əks halda gözün ətraflarını tutaraq görmə qabiliyyətini, habelə qulaqlara təmas edərək eşitməni məhdudlaşdıra, burun və boğazı sıxa, çənədən aşağıya düşərək boğazı kəsə bilər.

Kəmərləri tənzimləməklə yaranacaq kiçik boşluqları və kanalları aradan qaldırın. Əgər yenə də əleyhqazı tənzimləmək mümkün olmasa, onu kiçik və ya böyük ölçülü əleyhqaz ilə dəyişdirin.

**Sızıntı:** Ovcunuzun içi ilə süzgəcin hava girişini bağlayın, normal qaydada nəfəs alın və nəfəsinizi 10 saniyə tutun. Əleyhqazın sifət hissəsi içəriyə doğru boşalarsa deməli düzgün qaydada tənzimlənib. Əgər boşalmasa, deməli əleyhqaz sifətə düzgün oturmayıb. Bundan əlavə, uzun saçlar və uzun qalın saqqallar qaz sızmasına səbəb ola bilər.

**Əleyhqaz və əleyhqaz çantasının saxlanılma qaydaları**

Əleyhqazın istifadə müddəti 10 ildir. Əgər lazımı qaydada saxlanılarsa və texniki qulluq göstərilərsə əleyhqazdan istifadə müddətinin ömrü uzadıla bilər. Çünki, əleyhqazlar çöl şəraitinə uyğun hazırlanıb. Bununla belə, yanlış istifadə ilə əlaqədar mexaniki təsirlər səbəbindən əleyhqazın rezin və metal hissələri zədələnə, şüşə gözlüklər sına bilər. Eyni zamanda əleyhqaz uzun müddət istiliyə, çantasının parçası isə kiflənməyə məruz qala bilər. Əleyhqazın rezinləri tədricən köhnəlməyə başlayır və köhnəlmə müəyyən səviyyəyə qədər artır. Rezinlərin köhnəlmə sürətinə günəş işığı, istilik və üzvi kimyəvi maddələr (aktivatorlar) təsir edir. Əleyhqazın saxlanıldığı anbarlar müvafiq şəraitə malik olmalıdır. Rezin köhnəlməyə başlayanda əvvəlcə bərkiyir, sonradan yapışqan olur, ən sonda isə quruyur və kövrəkləşir. Elə ki, bərkiməyə başladı əleyhqazın rezini dəyişdirilməlidir. Həmçinin, əleyhqazın zahiri hissləri soyuq havalarda bərkiyə bilər. Bu bərkimənin səbəbi köhnəlmə deyil, sadəcə olaraq soyuq havanın təsiri ilə meydana gəlir.

Anbarlarda çantası açıq vəziyyətdə saxlanılan əleyhqazlar ildə ən az bir dəfə havalandırılaraq yenidən öz çantasına qoyulmalıdır. Çantadakı əleyhqazlar karton qutuya yerləşdirilir. Daha sonra karton qutular konteynerlərə (yeşiklərə) qoyularaq anbarda saxlama texnologiyasına uyğun mühafizə edilir. Əleyhqazın təmizliyinə gəldikdə isə, onların səthi əgər qaza məruz qalarsa içini və çölünü sabun ilə yuyaraq təmizləyin. Sifətə təmas edən hissələri yumşaq fırça ilə fırçaladıqdan sonra yaxşıca yaxalayın. Əleyhqazın içinə yığılmış suları boşaldın və otaq temperaturunda qurudun. Əleyhqaz yaş qalmalıdır və mütləq qurumalıdır.

Əleyhqaz çantasının təmizliyi ilə əlaqədar, təmizlik zamanı benzin, spirt kimi maddələrdən qətiyyən istifadə edilməməlidir. Çantanın üstündəki kirlər fırça ilə fırçalanmalıdır. Əgər çanta kiflənərsə, kifi fırça ilə təmizləyin və çantanı bir az günəş işığına verin. Əgər çanta yağla ləkələnərsə onu sabunla yuyaraq sıxın. Çantanı ilkin formasına gətirin və otaq temperaturunda qurudun.



## b) Qaz filtrləri

Qaz filtrlərinin daxilində aktiv karbon (kömür) olur. “NBC” (radiasiya, bioloji və kimyəvi) qazlarına qarşı effektiv təsirə malikdir. Zərərli qaz və ya buxarların, toz və kir parçalarının çirkləndirdiyi havanı təmizləyir. Amma ammonyak, təbii və karbon qazlar əleyhinə, həmçinin insanın yaşaması üçün vacib olan oksigenin 17%-dən az olduğu şəraitdə qaz süzgəcindən istifadə edilməməlidir. Çünki süzgəc oksigen istehsal etmir, onun vəzifəsi qazlı havanı əmməklə bizə təmiz hava tənəffüs etdirməkdir.








Qazlı hava şəraitində filtri dəyişdirmək zərurəti yaranarsa əvvəlcə dərin bir nəfəs alırıq və dərhal istifadəyə yararsız filtri çıxardaraq ön sarğını sökmədən yenisi ilə əvəz edirik. Ön sarğını çəkdikdən sonra dərin bir nəfəs alırıq. Yenidən azca nəfəs alıb buraxırıq, beləcə içəridəki qazlı havanı çıxış klapanı vasitəsilə xaric edirik. Süzgəci sudan uzaq tutun və qətiyyən yumayın, üzərindəki kirləri fırça ilə təmizləyin. Ön sarğını və arxa qapağı əmir verilməyibsə qətiyyən açmayın. Ön sarğı və arxa qapaq açıldıqda süzgəcin istifadə müddəti başlayır. Süzgəclər alüminim folqa ilə örtülü orijinal qablaşdırmada təxminən 10 il,  qablaşdırmadan çıxarıldıqdan sonra isə 5 il istifadəyə yararlıdır. Ön sarğı və arxa qapaqlar açıldığı andan etibarən istifadə müddəti təxminən 90 dəqiqədir. Bununla belə, qan zəhərləyici qaz şəraitində istifadə müddəti 15-20 dəqiqəyə, kəskin gözyaşardıcı qaz şəraitində isə 30 dəqiqəyə qədər azalır. Filtrlər bir dəfəlik istifadə üçündür və istifadədən sonra atılmalıdır.




### c) Filtrlərlə bağlı ümumi məlumatlar:

- Qaz filtrlərini yalnız təlim keçmiş heyət istifadə etməlidir.
- Atmosferin qaz tərkibinin sürətli şəklidə dəyişdiyi hallarda da eyni qayda tətbiq edilir. Şübhə yaranarsa, əleyhqazdan istifadə edilməlidir.
- Oksigenin artması və ya azalması ya da havanın qaz tərkibinin dəyişməsi (karbon qazı və s.) ehtimalı ilə əlaqədar filtr cihazından qapalı məkanlarda (su anbarı, tunel və s.) istifadə edilməməlidir.
- Filtr cihazından havadakı oksigen qatılığı 18-23% arasında olarkən istifadə edilməlidir.
- Adi filtr dəm qazı, karbon qazı və azot qazları əleyhinə qoruma təmin etmir.
- İstifadədən öncə filtrin vəziyyətini və açılıb-açılmadığını yoxlamaq lazımdır. Kəskin təzyiq və təsirə məruz qalmış filtrlər korlana biləcəyi üçün dəyişdirilməlidir.
- Filtrin öz təyinatına uyğun istifadə olunub-olunmadığı və son istifadə tarixi yoxlanılmalıdır. İstifadədən sonra filtrdən yenidən istifadəyə zərurət yaranarsa açılmış filtr möhkəmcə bağlanılmalı, lakin açıldıqdan sonra 6 ay ərzində mütləq dəyişdirilməlidir.
- Filtr və ya filtrlər əleyhqaza möhkəm yerləşdirilməlidir. Əleyhqazda həmişə eyni növ və kateqoriyaya məxsus filtrlərdən istifadə edilməlidir.
- Filtrin istifadə müddəti onun tərkibindən, zəhərli maddələrin intensivliyindən və növündən, istifadəçinin nəfəs almaq müddətindən və.s faktorlardan asılıdır. Gözlərdə həssaslıq, ağızda pis dad hissi və buxarın mövcudluğu qaz filtrinin istifadə müddətinin bitdiyini göstərir.
- İstifadə müddəti adi şəraitdə 60 dəqiqə, qazın intensivliyindən asılı olaraq 30 dəqiqəyə qədər azala bilər. Qaz zərrəcikləri filtrləri və ya kombinasiya edilmiş filtrlər nəfəs alma müqaviməti azacıq yüksələn kimi dəyişdirilməlidir.
- Filtrlər istifadə temperaturu – 30 / + 50 dərəcədir.

## 10. GÖZYAŞARDICI KİMYƏVİ MADDƏLƏR

### a) Gözyaşardıcı qazlardan istifadə qaydaları:

- Gözyaşardıcı maddələrdən təyinatdan kənar və zəruri tədbirlər (tibbi yardım heyəti kimi) görülmədən istifadə edilməməlidir.
- Gözyaşardıcı qazlardan istifadə etməmişdən əvvəl kütlə hər kəsin eşidə biləcəyi tərzdə gözyaşardıcı qazdan istifadə ediləcəyi üçün dağılışmanın labüd olduğuna dair xəbərdar edilməlidir.
- Gözyaşardıcı maddələrdən qaz dəstəsinin komandirinin vəziyyəti qiymətləndirməsi nəticəsində müəyyən etdiyi taktika və miqdara (dozaya) uyğun istifadə edilməlidir.
- Gözyaşardıcı maddələr səlahiyyətli və yaxşı təlim keçmiş heyət tərəfindən istifadə edilməlidir. Əks təqdirdə gözyaşardıcı maddələr təhlükə yarada və insan ölümünə səbəb ola bilər.
- Gözyaşardıcı maddələrin təsirindən effektiv istifadə edə bilmək üçün küləyin istiqaməti və sürəti, havanın hərarəti kimi meteoroloji faktorlar nəzərə alınmalıdır.
- Gözyaşardıcı maddələrin miqdarı (dozası) kütlənin və ya fərdin göstərdiyi dirənişə və müqavimətə uyğun olaraq mərhələli şəkildə artırılır.
- İnsan ölümlərinə səbəb olacağı üçün qapalı yerlərdə gözyaşardıcı maddələrdən, xüsusilə də yüksək sıxlığı olan maddələrdən istifadə etmək qadağandır. Belə yerlərdə fizioloji təsirləri azaldılmış və minimum qatılıq dərəcəsinə malik maddələrdən (model 10 fişəngi, aerozol kimi) hazırlanmış gözyaşardıcı vasitələrdən istifadə olunur.
- Qapalı yerlərdə yanğına səbəb ola biləcəyi üçün fitillə çalışan (qaz əl qumbarası kimi) avadanlıqlardan qətiyyən istifadə etmək olmaz.
- Polis heyəti qapalı ərazilərdə və ya ictimai toplantılarda qazdan istifadə edərkən mütləq əleyhqaz taxmalıdır.
- Fişəng və raketləri insanın vücuduna istiqamətləndirmək olmaz.
- Aerozollardan 1 nəfər üçün ən az 1 metr məsafədən 1 dəfə basmaqla istifadə edilir.
- Gözyaşardıcı maddələr artıq müqavimət göstərməyən və hücuma keçməyən şəxslərə qarşı qətiyyən istifadə edilə bilməz.

### b) Açıq ərazilərdə gözyaşardıcı vasitələrdən istifadənin taktiki-texniki xüsusiyyətləri

İctimai toplantılarda kütləni daha kiçik qruplara bölərək dağıtmaq, aralarındakı əlaqəni zəiflədərək təhrikçilərin təsirindən xilas etmək üçün gözyaşardıcı maddələrdən istifadə oluna bilər. İctimai toplantılarda gözyaşardıcı maddədən istifadə zamanı beş əsas məqam nəzərə alınmalıdır.

**a)** Küləyin olub-olmadığı, əgər külək varsa hansı istiqamətdən əsdiyi müəyyən edilməlidir. Bundan sonra qrupun qazın təsirində qalması üçün gözyaşardıcı qazlar istiqamət müəyyən edildikdən sonra atılmalıdır. Əgər külək yoxdursa qazın yayılması üçün müvafiq taktikalar müəyyən edilməlidir.

**b)** Küləyin ani istiqamət dəyişdirməsi və ya digər fövqəladə hallar nəticəsində təhlükəsizlik qüvvələrinin də qazdan təsirlənmə ehtimalını nəzərə alaraq təhlükəsizlik qüvvələri özləri ilə əleyhqaz daşımalı və zərurət yaranarsa istifadə etməlidir.

**c)** Qazdan təsirlənən şəxslərin qaçış yolları açıq olmalıdır. Əks halda həm kütləni dağıtmaq mümkün olmayacaq, həm də sıxışdırılan insanlar daha da aqressivləşə bilər. Bundan

əlavə qaçış yolu düzgün təyin edilməlidir. Kütlənin təxribat törədə biləcəyi yerlərə, habelə biznes və yaşayış mərkəzlərinin yerləşdiyi ərazilərə giriş məhdudlaşdırılmalı, kütlənin zərər vermə ehtimalı az olan və onları kiçik qruplara bölmək üçün əlverişli imkana malik ərazilərə girişlər isə açıq olmalıdır.

d**)** İstifadə ediləcək vasitələrin uçuş mənzili müəyyən edilməli, hədəfə çatıb-çatmayacağı nəzərə alınmaqla müvafiq məsafədən atılmalıdır. Bundan əlavə, vəsaitlərin geriyə atılma ehtimalı və təsir dairəsi də nəzərə alınmaqla, ictimai toplantının mühitinə uyğun vasitələrdən istifadə olunmalıdır.

**e)** Kütlənin xüsusiyyətləri və həcmi nəzərə alınmalıdır. Böyük kütlələrin mərkəzinə qaz vəsaitləri atılarsa daxildən kənarlara doğru qaçış olacaq. Nəzərə almaq lazımdır ki, bu cür vəziyyətdə mərkəzdəkilərdən fərqli olaraq kütlənin kənarında yerləşən şəxslərə qaz təsir etmədiyi üçün onlar açılışmayacaq, nəticədə əzilmələr meydana gələ bilər.

### c) Qapalı ərazilərdə gözyaşardıcı vasitələrdən istifadənin taktiki-texniki xüsusiyyətləri:

- Qapalı ərazilərdə gözyaşardıcı vasitələrin qatılılığı daha çox olduğu üçün onların miqdarı (dozası) düzgün hesablanmalıdır. Əks təqdirdə tənəffüs yolları, ürək və ağciyər xəstəliklərindən əziyyət çəkənlərə, uşaqlara və yaşlı insanlara öldürücü və ya şikəst edici təsir göstərə bilər.
- Bundan əlavə, istifadə ediləcək vasitənin növünü də düzgün müəyyən etmək lazımdır. Qapalı ərazilərdə qatılığı az olan vasitələrdən (aerozol və s.) istifadəyə üstünlük verilməlidir. Qatılığı çox olan qaz əl qumbaralarından istifadəyə yol verilməməlidir.
- Qapalı ərazilərdə gözyaşardıcı qazlardan istifadədə məqsəd içəridəki şəxsləri çölə çıxmağa məcbur etməkdir. İlk öncə içəridəki şəxslərin qaça biləcəyi digər otaqlara, daha sonra onların yerləşdiyi otağa qaz fişəngləri atılmalıdır.
- Böyük binalarda bu əməliyyata ən üst mərtəbədən başlamaqla qaçışın aşağıya doğru istiqamətləndirilməsi təmin edilməlidir. Bundan əlavə, fərdlərin qaçış istiqamətləri təhlükəsizlik tədbirləri alınmaqla boşaldılmalıdır.
- Nəqliyyat vasitələrindəki şəxsləri neytrallaşdırmaq üçün nəqliyyat vasitəsinin şüşələrini deşə biləcək fişənglərdən istifadə olunmalıdır. Nəqliyyat vasitəsinin daxilinə gözyaşardıcı qaz yayıldıqdan sonra qapılar açılmalı və içəridəki şəxslər qazlı mühitdən xilas edilməlidir.

### ç) Gözyaşardıcı maddələrin qapalı ərazilərdən təmizlənməsi

Təcrübə göstərir ki, aşağıda qeyd olunan ümumi təmizləmə metodları müsbət nəticələr verir. Bununla belə, qeyd olunan bu təmizləmə əməliyyatlarının hər toplantıda və heç bir risk olmadan müsbət nəticə verəcəyinə zəmanət verilmir.

- Unutmamaq lazımdır ki, gözyaşardıcı maddələrin yayılma dərəcəsi birbaşa istifadə olunan maddənin növündən və vəsaitin ədədindən asılıdır. Qapalı ərazilərdə təmizlik aparıldığı müddət ərzində maska və əlcəklərdən istifadə edilməlidir.
- İçəridəki OS və CS qazını hava cərəyanı vasitəsilə boşaldın. Əlverişli hava şəraiti davam etdiyi müddətdə bütün qapı və pəncərələri açın. Ventilyatordan istifadə hava cərəyanın artmasına kömək edə bilər. Əgər otaqda boşalmış qaz vəsaitləri və ya boş qutular varsa onlar dərhal yığışdırılıb çölə atılmalıdır. Çünki, bu vəsaitlərin və boş qutuların içərisində qaz zərrəcikləri var.
- Toz halında istifadə olunan karbon qazını təmizləmək üçün su süzən tozsorandan

faydalanmaq lazımdır.

- Səthlər suda əridilmiş 5 % həcmində camaşır sodası (natrium karbonatı) vasitəsilə heç bir zərərə məruz qalmadan təmizlənə bilər. Bu kimyəvi məhlul qaz dənəciklərini həll edərək təmizləyir.
- Qazın təsirinə məruz qalmış qidalar qaz zərrəciklərini mənimsədiyi üçün meyvə və tərəvəzlər yaxşıca yuyulmalı, digər qidalar isə atılmalıdır. Qazın təsirinə məruz qalmış dərman preparatları da eyni qaydada yoxlanılmalıdır.

### d) Saxlama və məhv edilmə:

- Gözyaşardıcı qaz vəsaitindən zəruri hallarda hər hansı nasazlıqla üzləşmədən istifadə edə bilmək üçün onlar müvafiq şəraitdə saxlanılmalıdır.
- Bütün gözyaşardıcı vəsaitlər sərin və quru yerdə saxlanılmalıdır. 21 dərəcə temperatura, 50 % rütubət dərəcəsinə malik, kiçik havalandırma qurğusunun mütəmadi olaraq çalışdığı otaqlar vəsaitlərin saxlanılması üçün ideal hesab olunur.
- Vəsaitlərin müvafiq şəraitdə saxlanılması onların istifadə ömrünü uzadır. Bu səbəbdən, onlar orijinal qablaşdırmada və havası çıxarılmış torbalarda saxlanılmalıdır. İstifadə müddəti başa çatmış vəsaitlərdən təlim məqsədilə faydalanmaq olar.



# 5. BÖLMƏ DƏYƏNƏKLƏRDƏN İSTİFADƏ VƏ MÜDAFİƏ QAYDALARI

1. REZİN DƏYƏNƏK
    1.1 REZİN DƏYƏNƏKLƏRİN TƏTBİQİ QAYDALARI
    1.2 VURUŞLARDA HƏDƏF SEÇİMİ
    1.3 REZİN DƏYƏNƏKLƏRDƏN İSTİFADƏ
    1.4 DƏYƏNƏYİN ƏLDƏN ALINMASI
2. ŞÜBHƏLİ ŞƏXSİN MÜŞAYİƏT EDİLMƏSİ
3. SİNİR SİSTEMİNƏ TƏZYİQ METODLARI

## 5. BÖLMƏ REZİN DƏYƏNƏKLƏRDƏN İSTİFADƏ VƏ MÜDAFİƏ QAYDALARI

### 1. REZİN DƏYƏNƏK

Əksər nümayiş, üsyan və ya kütləvi etiraz aksiyalarında istifadə olunan ən optimal müdafiə, geri çəkmə və kütləni dağıtma silahıdır. Bundan əlavə dəyənəklərin "T" formalı dəyənək, düz dəyənək, uzanıb qısalan dəyənək və elektrikli dəyənək kimi növləri var.



Şəkil-4

### 1.1 Rezin dəyənəklərin tətbiqi qaydaları:

- Dəyənəyin müxtəlif növ tətbiq edilmə qaydası var:
- Dəyənəklə sərbəst vəziyyətdə dayanmaq və güc nümayiş etdirmək üçün hədəfə doğru uzatmaq
- Dəyənəyi əlin içində tutmaq, lazım gələrsə güc nümayiş etdirmək məqsədilə hədəfə uzatmaq.
- Dəyənəyi uzadıb hədəfə vurmaq.

### 1.2 Vuruşlarda hədəf seçimi

Oturaq sinirlərin olduğu yerlər hücum nöqtələridir. Qıçın arxasındakı oturaq sinir, dizin 10 sm yuxarısı və qıçın ön tərəfindəki diz ətrafı oynaq yerlər hədəf olaraq seçilə bilər. Baldır sümüyünə hücum nöqtəsi qıçın arxa əzələsinin düz yuxarısındadır.

Dəyənəklə və digər effektiv silahla hücum edərkən hər ikisində də eyni nəticə hasil olur. Bunlara daxildir:

- Zehni dolaşıqlıq yaradan psixoloji nasazlıq
- Bütün hərəkətverici sinirlərin və ya qıç əzələsinin müvəqqəti (bir neçə dəqiqəlik) iflic edilməsi
- Zərbədən təsirlənən qıçın refleksi
- Əksər hallarda yumşaq reflekslər, qıçın zədə almadan bükülməsi

Əgər polisə yumruq və ya alətlə hücum edilərsə, belə hallarda qolun mil sümüyünün (qolun dirsəklə bilək arasındakı hissəsində) hərəkətverici sinir nöqtələrindən, habelə mil sümüyünün orta sinir nöqtələrindən müdafiə olunmaq üçün istifadə oluna bilər. Mil sümüyünün sinir sisteminə edilən hücum nöqtələri mil sümüyünün iki tərəfində-üstündə və daxili hissəsində yerləşir.

Bu sinir nöqtələri dirsəyin təxminən 6-8 sm yuxarısındadır. Hər iki sinirə təzyiq göstərilməsi polisə hücuma edən fərdin qarşısını almağa kifayət edir. Bu vəziyyətdə qolun mil sümüyündə

keyimə (qolda hissizlik) meydana gəlir.

Polislərə qolun hərəkətverici sinir nöqtələrinə təzyiq göstərmələri üçün taktikalar öyrədən praktik metodlar hazırlanmışdır. Praktika zamanı təlimçi qol və qıçlardakı təzyiq nöqtələrini sarğı ilə örtür. Polis əməkdaşları dəyənəklərdən istifadə etməklə işarələnən yerlərə zərbə endirirlər.Polis əməkdaşlarının hücumlara qarşı bədənin düzgün hissələrinə təzyiq göstərmə texnikalarını qısa zamanda öyrəndiyi müşahidə edilmişdir. Zərbələrin sinir bölgələrinə tam dəqiqliklə vurulmasa da, hər bir sinir nöqtəsi təqribən 10-12 sm-lik həssas sahəyə malik olduğu üçün təsir sahəsi kifayət qədər genişdir.

Dərslərə əlavə olaraq polis əməkdaşlarına keçilən bu təlimlər sayəsində onların dəyənəkdən istifadə zamanı qorxu hissləri azalacaqdır. Əldə edilən təcrübələr polis əməkdaşlarının texniki bacarıq və qabiliyyətlərini artıraraq onlarda özünə inam yaradır. Yuxarıdakı qaydaların hamısı həm düz, həm də yandan tutulan dəyənəklərdən istifadə zamanı tətbiq olunur.

## 1.3 Rezin dəyənəklərdən istifadə

### 1.3.1 Dəyənəklə mövqe seçmə texnikaları

**a) Polisin dəyənəklə hazırlıqlı duruşu:**

Dəyənəyin əldə tutulması polisin özünə əminliyini göstərir. Dəyənək iki əllə önə doğru üfüqi istiqamətdə tutulur və ayaqlar arasında çiyin boyda məsafə saxlanılır.

**b) Rezin dəyənəklə sərbəst vəziyyət**




**c) Rezin dəyənəklə müdafiə vəziyyəti**



## 1.3.2 Zərbə vurma texnikaları

**a) Süpürmə (yelpik) zərbəsi**



**b) Dəyənəklə yandan zərbələr**



**c) Dəyənəklə zəif tərəfə zərbələr**



**ç) Dəyənəklə müqavimət hərəkətləri**




**d) İrəliyə yeriyərək dəyənəklə hərəkətlər**




## 1.4 Dəyənəyin əldən alınması

İki əllə tutduqda





Tək əllə tutduqda



## 2. ŞÜBHƏLİ ŞƏXSİN MÜŞAYİƏT EDİLMƏSİ

### 2.1 Şübhəli şəxsin müşayiət üsulları




### 2.2 Dirsəyə təzyiq



### 2.3 Ənənəvi müşayiət üsulu






### 2.4 Biləyin hərəkətsizləşdirilməsi






## 3. SİNİR SİSTEMİNƏ TƏZYİQ METODLARI

### 3.1 Burunaltı təzyiq





### 3.2 Qulaqaltı təzyiq





### 3.3 Çənəaltı təzyiq





### 3.4 Qırtlaqaltı təzyiq



**3.5 Körpücük sümüyünə təzyiq**



**3.6 Boyun ətrafı təzyiq**



**Oturma aksiyalarında nümayişçiləri bir-birindən ayırmaq üçün istifadə olunan sinir sisteminə təzyiq metodlarına dair bir nümunə**





# İSTİFADƏ OLUNAN MƏNBƏLƏR


EMNIYET GENEL MUDURLUGU, "Cevik Kuvvet Temel Egitmi, Egitici El Kitabi", Katalog no 508, Ankara, (2011).

AKYOL Z.,"Kalabalık Yönetimi", EGM Yayınları, Ankara, (2005).

AKYOL Z., TEKİN G., "Toplumsal Olaylara Müdahale Esasları Ders Notları", EGM Asayiş Daire Başkanlığı, Ankara, (1999).

AYTEKİN S., "Çevik Kuvvet Rehberi", Eksen Basım-Yayım, İstanul, (1997).

BÜLBÜL S. "Çevik Kuvvet Eğiticilerinin Eğitim Programı Ders Notları- Kitle Psikolojisi" EPAR- NC Yayıncılık, Ankara, s.35 (1997).

CERRAH İ., SEMİZ E., AKYOL Z., TEKİN G., "PMYO Toplumsal Olaylar Ders Kitabı Çalışması Notları", (2000).

CERRAH İ., SEMİZ E., "21. Yüzyılda Polis", EGM Asayiş Daire Başkanlığı Yayınları, s.36 (1999).

ERZURUMLUOĞLU B. "PMYO Ders Kitabı Çalışması" Ankara, (2000)

KORKUT F., "Kitle Psikolojisi- Çevik Kuvvet Eğiticilerin Eğitimi Kurs Notları" Ankara, (1997).

LE BON, G., "Kitleler Psikolojisi" Çeviri Editörü Yunus ENDER, Hayat Yayıncılık, İstanbul, 36 (1997).

ÖĞÜLMÜŞ, S., "Çevik Kuvvet Eğitimcileri - Kitle Psikolojisi", Ankara, (1997).

ÖZDEMİR B., "Polis Taktikleri", EGM. Yayınları, s.76-77 (2001).

SELEN İ., "Toplantı ve Gösteri Yürüyüşlerinde Meydana Gelen Sosyal Kazaların Önlenmesi Yüksek Lisans Tezi, Ankara Gazi Üniversitesi Fen Bilimleri Fakültesi, 12 (1999).

SEVİNDİK M., ESEN E., ERBABA İ., GEDİKLİ M., "Polis Savunma Taktikleri" Polis Akademisi Başkanlığı, Ankara 2009

SÜRMELİ, G., "Toplumsal Olaylar ve Toplumsal Olay Polisliği", Yüksek Lisans Tezi, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara, (2002).

ŞENEL, A.T., "Kalabalıkların Kontrolü ve Toplu Hareketlerin Önlenmesi" Ankara, (1989).

TÜRKDOĞAN, O., "Sosyal Hareketlerin Sosyolojisi", Birleşik Yayıncılık, Ankara, (1997)

Kitabın orijinal versiyası Prof. Dr. Semiha AYDIN, Ali SEVİNÇ, Tayyip KARAHAN, Zafer KURT, Serhad YÖŞ və Eyyüp KAYA tərəfindən Türkiyədə 2011-ci ildə "Çevik Kuvvet Temel Eğitimi" adı ilə hazırlanmışdır.

Bu kitab ATƏT-in Bakı Ofisinin həyata keçirdiyi "İctimai Toplantıların İdarə edilməsi" layihəsi çərçivəsində hazırlanıb və çap edilmişdir.

Azərbaycanda Daxili İşlər Orqanları tərəfindən dərs vəsaiti kimi istifadə ediləcək kitabın Azərbaycan versiyasının hazırlanmasında aşağıdakı şəxslərin əməyi vardır:

Dosent Hikmət EYVAZOV
Anar ƏLİYEV
Asim HÜSEYNOV
Ceyhun ŞABANOV
Erol ÖZTAŞ
Fariz MƏMMƏDOV

Gökmen ASKOLDAMCA
Haydar AKYÜREK
Kürşat Gökçe YILDIZ
Ömer Özden KILIÇ
Rəşad ƏLİYEV
Zahid NƏZƏROV

DİN

ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Ofisi

POLİS